Xalqın qəzeti!

# Xalq qəzeti

№ 35 (31004) 24 fevral 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Azərbaycan–Yaponiya əlaqələrində çoxyönlü hədəflər



Səhifə ⇨ 6

## Media əyri güzgüyə çevrilməməlidir



Səhifə ⇨ 7

## Dəniz suyunun şirinləşdirilməsi layihəsi gerçəkləşir



Səhifə ⇨ 8

# Azərbaycan–İran birgə layihələri dostluq və qonşuluq münasibətlərini möhkəmləndirir

## Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Söhbət zamanı Fərzanə Sadiqin ötən il ölkəmizə səfəri və Prezident İlham Əliyevlə görüşü məmnunluqla xatırlandı.

Dövlətimizin başçısı bir müddət əvvəl İran Prezidenti Məsud Pezeşkianla telefon danışığını xatırladaraq, həmin telefon söhbəti əsnasında dost ölkələr kimi Azərbaycanla İran arasında qarşılıqlı əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu dedi.

İkitərəfli gündəliyin genişlənməsini məmnunluqla qeyd edən Prezident İlham Əliyev Azərbaycanla İranın birgə icra etdiyi layihələrin həm ölkələrimiz, həm də region üçün geniş imkanlar açacağını vurğuladı. Dövlətimizin başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində bütün bu məsələlərin müzakirə ediləcəyinə və səfərin yaxşı nəticələrinin olacağına ümidvarlığını bildirdi.

Azərbaycana yenidən gəlməsindən məmnunluğunu ifadə edən Fərzanə Sadiq qəbula görə dövlətimizin başçısına minnətdarlıq etdi.

O, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı və vurğuladı ki, İran Prezidenti Azərbaycanla münasibətlərə xüsusi əhəmiyyət verir.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş etdi.

Fərzanə Sadiq ölkələrimiz arasında tarixi, dini və mədəni əlaqələrin mövcud olduğunu vurğuladı.

Söhbət zamanı Bakıda keçiriləcək "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadiyyat, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyası"nın 17-ci iclasının əhəmiyyətinə toxunuldu, Şimal-Cənub nəqliyyat dəhlizi, Araz çayı üzərində Ağbənd və Kəlalə məntəqələrini birləşdirən avtomobil körpüsünün inşası və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.

***AZƏRTAC***

# Hərbi, iqtisadi və siyasi qovuşma

## *Çoxşaxəli təhdidlər dövründə sadiq müttəfiqliyin mühüm əhəmiyyəti*

**Dövlətlərarası diplomatik təmaslar hər zaman xüsusi strateji əhəmiyyət daşıyır. Yaxın günlərdə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar arasında baş tutan telefon danışığı mühüm gedişlərin həlledici xəttidir.**



İkitərəfli tərəfdaşlığın ənənəvi dinamikası qitələrarası təhlükəsizlik mexanizmlərinin yenidən formalaşmasına yönəlmiş tarixi hadisədir. Tərəflərin səsləndirdiyi fikirlər nümayiş etdirir ki, rəsmi Bakı ilə İslamabad mövcud regional təhdidlərə, xaricdən gələn risklərə qarşı tam müştərək müdafiə platforması yaratmaq əzmindədirlər. İllərdir sınaqdan çıxmış mənəvi qardaşlıq bağları indiki reallıqlarla uzlaşaraq qlobal güclərin strateji meydanında yeni inam mərkəzinin parlamasını şərtləndirir. Yüksək rütbəli diplomatların toxunduğu hər məsələ gələcək fəaliyyət planının ilkin eskizlərini hazırlayır.

İki tərəfdaş ölkə arasında tarixən şəkillənmiş səmimi münasibətlər hazırkı çağırışlara adekvat reaksiya verilməsi məqsədilə mükəmməl inkişaf səviyyəsinə qaldırılır. Pakistan ilə Azərbaycan fərqli fəzalarda kəsişən coğrafiyalarda qərarlaşmaqla, analoji həssas təhdidlərlə bilavasitə üzləşirlər. Təhlükəli hallardan qorunmaq naminə iqtisadi, hərbi, tranzit və logistika sahələrinin inteqrasiyası mənfi risklərə qarşı ortaq immunitet qazanmaq missiyası daşıyır. Şəriklik prinsiplərinə sadiq fəaliyyətlər vacib həqiqətlərin dünya ictimaiyyətinə aşılama prosesini xeyli asanlaşdırır.

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan Sülh Şurasında: regional və qlobal barış naminə həmrəylik

## *Qurum elə fəaliyyət göstərməlidir ki...*




**Ötən həftə dünyanın ən mühüm hadisəsi ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılmış Sülh Şurasının Vaşinqtonda ilk iclası oldu. Bunu tam əminliklə söyləmək mümkündür. Məlum olduğu kimi, Azərbaycan da Şuranın təsisçi üzvlərindəndir və Prezident İlham Əliyevin qurumun ilk toplantısına qatılması da son dərəcə vacib olaydır.**

Sülh Şurası Qəzza sektoru ilə bağlı yaradılmış təşkilat olsa da, istər qurumla bağlı səslənmiş ayrı-ayrı fikirlər, istərsə də D.Trampın özünün açıqlamaları onun bütövlükdə yeni dünya düzəninin çağırışlarından qaynaqlandığını söyləməyə əsas verir. Daha doğrusu, söhbət bu çağırışları gerçəkləşdirmək məramından gedir.

D.Tramp Sülh Şurası ilə dünyaya barış mesajını verir. O mesajı ki, onun ilk əməli addımı Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasıdır. O mesaj ötən il avqustun 8-də Vaşinqtonda Bakı–İrəvan sülh sazişinin paraflanması, eləcə də iki Cənubi Qafqaz ölkəsinin Trampın şahidliyi ilə Birgə Bəyannamə imzalaması ilə verildi.

Deməli, Azərbaycanla Ermənistan arasındakı normallaşma Sülh Şurasının açıqladığı prinsip baxımından real indiqatordur. Yəqin elə buna görədir ki, Tramp daha çox bu normallaşmanın üzərində dayanır. Nəzərə alaq ki, məhz Bakı–İrəvan barışı Trampın digər sülh təşəbbüslərindən daha sistematik və nəticəyönümlü təbiətə malikdir. Məsələn, Azərbaycan öz ərazisindən Ermənistan üçün daşımalara icazə verib, habelə ölkəmiz Ermənistana neft məhsullarının ixracına başlayıb. Bir neçə il əvvələdək sülhün ən nikbin tərəfdarları belə bunun proqnozunu verə bilməzdilər.

*(ardı 5-ci səhifədə)*

# Şimal cərəyanından gələn siqnallar



**Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi hərbi-siyasi nəticələr regionda qüvvələr balansını əsaslı şəkildə dəyişdirdi. Dəyişikliklər bütövlükdə Cənubi Qafqazda formalaşmış təsir mexanizmlərinin yenidən qurulmasına gətirib çıxardı. Xüsusilə şimal istiqamətində mövcud olan ənənəvi geosiyasi nəzarət arxitekturası ciddi şəkildə sarsıldı.**

Şimal vektorunda strateji diskomfortun dərin geosiyasi mahiyyəti Azərbaycanın postmüharibə mərhələsində həyata keçirdiyi siyasətin miqyası ilə birbaşa bağlıdır. Fundamental səviyyədə Cənubi Qafqazda onilliklər boyu mövcud olmuş geosiyasi nəzarət fəlsəfəsi transformasiyaya uğrayıb. Uzun müddət region "idarə olunan qeyri-sabitlik" modeli üzərində saxlanılırdı: münaqişə tam həll olunmur, təhlükəsizlik boşluğu qalır, vasitəçilik institutu isə, faktiki olaraq, təsir alətinə çevrilirdi.

Azərbaycanın suverenliyini tam bərpa etməsi və separatizmi aradan qaldırması bu mexanizmi funksional baxımdan sıradan çıxardı. Münaqişə faktorundan təsir vasitəsi kimi istifadə imkanı zəiflədi və nəticədə region üzərində qurulmuş nəzarət modeli əvvəlki effektivliyini itirdi. Maraqlar dəyişmədi, təsir alətlərinin xarakteri dəyişdi.

*(ardı 5-ci səhifədə)*

# Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitoya

**Əlahəzrət!**

Yaponiyanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Yaponiya xalqına daim firavanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 fevral 2026-cı il**

# İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

**Əlahəzrət!**
**Əziz Qardaşım!**

Səudiyyə Ərəbistanı Krallığının Təsis Olunması Günü münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında möhkəm dostluğun yaxşı nümunəsi olan və qardaşlığa əsaslanan münasibətlərin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi olduqca sevindirir. Aramızda mövcud olan yüksək səviyyəli siyasi dialoq iqtisadi, enerji, humanitar və digər sahələrdə əməkdaşlığımız ilə müşayiət olunmaqdadır.

Bərpaolunan enerji və investisiya sahələrində ölkələrimizin səmərəli birgə fəaliyyətini xüsusi qeyd etmək istərdim. Qardaş ölkənizin "ACWA Power" şirkəti tərəfindən 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının tikilərək bu yaxınlarda istismara verilməsi sıx tərəfdaşlığımızın bariz nümunəsidir.

Əminəm ki, Azərbaycan-Səudiyyə Ərəbistanı dövlətlərarası münasibətlərini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Sizi və qardaş xalqınızı müqəddəs Ramazan ayının başlaması münasibətilə də səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 fevral 2026-cı il**

# Bruney-Darüssalamın Sultanı Əlahəzrət Hacı Həssənal Bolkiaha

**Əlahəzrət!**

Bruney-Darüssalamın milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Dostluq və qarşılıqlı hörmət üzərində qurulmuş Azərbaycan-Bruney münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Sizi və dost xalqınızı müqəddəs Ramazan ayının başlaması münasibətilə də səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Bruney-Darüssalama daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 fevral 2026-cı il**

# Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2026-cı ildə iyirminci əsr Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri, Xalq şairi, tanınmış dramaturq və ictimai xadim, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Səməd Vurğunun (Səməd Yusif oğlu Vəkilovun) 120 illiyi tamam olur.

Səməd Vurğun Azərbaycanın ədəbi fikir salnaməsində yeni parlaq mərhələ başladan görkəmli sənətkardır. Çoxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şair nəğməkarı olduğu Odlar diyarını alovlu məhəbbətlə tərənnüm etmişdir. Onun dillər əzbərinə çevrilmiş "Azərbaycan" şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir. Səməd Vurğunun milli poeziyanı yüksəklərə qaldıran romantik və fəlsəfi məzmunlu bənzərsiz lirikası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir. Keçmişə ehtiram və gələcəyə inam aşılayan Vurğun dramaturgiyası Azərbaycanın teatr sənəti tarixində xüsusi səhifə təşkil edir. Səməd Vurğunun novator keyfiyyətlərlə zəngin bədii irsi bir məktəb kimi müasir Azərbaycan poeziyasına güclü təsir göstərmişdir və bu gün də gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan görkəmli şair Səməd Vurğunun 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və aidiyyəti qurumlarla birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Səməd Vurğunun 120 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 fevral 2026-cı il**

# "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dağ-mədən sənayesinin inkişafı, o cümlədən metal yataqlarının kəşfiyyatı, işlənməsi, hasilatı və emalı sahəsində xüsusi xidmətləri olan "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

**Caniyev İbrahim Mustafa oğlu**
**Hüseynov Fuad Camal oğlu**
**Xələfov Sadiq Miri oğlu**
**İsmayılov Tofiq Köçəri oğlu**
**Quliyev Emil Ehtiram oğlu**
**Məmmədəliyev Dadaş Şixməmməd oğlu**
**Məmmədov Ələsgər Ağamehdi oğlu**
**Talıbov Zəka Famil oğlu.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 fevral 2026-cı il**

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 33.8-1-ci maddəsinin üçüncü abzasında, 34.8.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 35.2-1-ci,

102.1.33-2-ci, 106.1.28-3-cü, 106.1.28-4-cü, 164.1.41-5-ci, 164.1.49-2-ci (hər iki halda), 164.1.64-cü (hər iki halda) və 188.1.9-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 33.8-1-ci maddəsinin üçüncü abzasında və 164.1.64-cü maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 34.8.3-cü maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 34.8.3-cü maddəsinin ikinci cümləsində və 35.2-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 102.1.33-2-ci, 106.1.28-3-cü, 106.1.28-4-cü və 164.1.49-2-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur.

1.6. həmin Məcəllənin 164.1.41-5-ci, 164.1.64-cü (birinci halda) və 188.1.9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzərdə tutulur;

1.7. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 41.2.9-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.8. həmin Qanunun 41.2.9-1-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Xəzinədarlıq Agentliyi qismində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.9. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.35-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.10. həmin Qanunun 20.0.35-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747, № 11, maddə 1023; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 563 nömrəli, 2026-cı il 26 yanvar tarixli 587 nömrəli fərmanları) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə ", 33.8-1-ci, 33.10-cu maddələrində" sözləri "maddələrində, 33.8-1-ci maddəsinin üçüncü abzasında, 33.10-cu maddəsində" sözləri ilə əvəz olunsun və həmin bəndə birinci halda "ikinci abzasında" sözlərindən sonra ", 34.8.3-cü maddəsinin birinci və ikinci cümlələrində" sözləri, "35.1-ci" sözlərindən sonra ", 35.2-1-ci" sözləri, "102.1.33-cü" sözlərindən sonra ", 102.1.33-2-ci" sözləri, "106.1.28-ci" sözlərindən sonra ", 106.1.28-3-cü, 106.1.28-4-cü" sözləri, "164.1.41-4-cü" sözlərindən sonra ", 164.1.41-5-ci" sözləri, "164.1.49-cu" sözlərindən sonra ", 164.1.49-2-ci (hər iki halda)" sözləri, "164.1.63.2-ci" sözlərindən sonra ", 164.1.64-cü (hər iki halda)" sözləri, dördüncü halda "ikinci cümləsində" sözlərindən sonra ", 188.1.9-cu maddəsində" sözləri əlavə edilsin;

3.2. 1.7-ci bəndə "33.8-1-ci" sözlərindən sonra "maddəsinin üçüncü abzasında" sözləri, "164.1.63.2-ci" sözlərindən sonra ", 164.1.64-cü (ikinci halda)" sözləri əlavə edilsin;

3.3. 1.11-ci bənddən "34.8.3-cü," sözləri çıxarılsın;

3.4. 1.12-ci bəndə "(birinci halda)" sözlərindən sonra "maddələrində, 34.8.3-cü maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin;

3.5. 1.15-ci bəndə "(ikinci və üçüncü hallarda)" sözlərindən sonra "maddələrində, 34.8.3-cü maddəsinin ikinci cümləsində, 35.2-1-ci" sözləri əlavə edilsin;

3.6. aşağıdakı məzmunda 1.43-3-cü və 1.43-4-cü bəndlər əlavə edilsin:

"1.43-3. həmin Məcəllənin 102.1.33-2-ci, 106.1.28-3-cü, 106.1.28-4-cü və 164.1.49-2-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur;

1.43-4. həmin Məcəllənin 164.1.41-5-ci, 164.1.64-cü (birinci halda) və 188.1.9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzərdə tutulur;".

**4.** "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 mart tarixli 42 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 143 (Cild I); 2024, № 2, maddə 141) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-1-ci bəndə birinci halda "ikinci cümləsində" sözlərindən sonra

", 41.2.9-1-ci maddəsində" sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

"3.5. həmin Qanunun 41.2.9-1-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Xəzinədarlıq Agentliyi qismində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.".

**5.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 801 (Cild I); 2024, № 6 (I kitab), maddə 661, № 12 (II kitab), maddə 1371; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 563 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1-1-ci bənddə "və 20.0.34-cü (hər iki halda)" sözləri ", 20.0.34-cü (hər iki halda) və 20.0.35-ci" sözləri ilə əvəz edilsin;

5.2. aşağıdakı məzmunda 3.5-2-ci bənd əlavə edilsin;

"3.5-2. həmin Qanunun 20.0.35-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzərdə tutulur.".

**6.** Bu Fərmanın 1.1-ci, 1.2-ci, 3.1-ci və 3.2-ci bəndləri Azərbaycan Respublikası Vergi Məcəlləsinin 33.8-1-ci maddəsinə münasibətdə "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanunu dərc edildiyi gündən 6 (altı) ay sonra qüvvəyə minir.

**7.** Bu Fərmanın 1.1-ci, 1.6-cı, 3.1-ci və 3.6-cı bəndləri Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.41-5-ci və 188.1.9-cu maddələrinə münasibətdə, habelə bu Fərmanın 1.9-cu, 1.10-cu bəndləri və 5-ci hissəsi "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanunu dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

**8.** Bu Fərmanın 1.1-ci, 1.2-ci, 1.6-cı, 3.1-ci, 3.2-ci və 3.6-cı bəndləri Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.64-cü maddəsinə münasibətdə 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

**9.** Bu Fərmanın 1.1-ci və 3.1-ci bəndləri Azərbaycan Respublikası Vergi Məcəlləsinin 34.8.3-cü və 35.2-1-ci maddələrinə münasibətdə, habelə bu Fərmanın 1.3-cü, 1.4-cü, 1.7-ci, 1.8-ci, 3.3 – 3.5-ci bəndləri və 4-cü hissəsi 2026-cı il aprelin 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 fevral 2026-cı il**

# Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

**1.** 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996–2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 fevral 2026-cı il**

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1. Müəyyən edilsin ki:**

1.1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 36-cı maddəsinin 1-ci hissəsinin "b" və "c" bəndlərində, 155-ci maddəsinin 6-cı hissəsinin ikinci cümləsində (hər iki halda) və 261-ci maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 155-ci maddəsinin 6-cı hissəsinin ikinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 155-ci maddəsinin 6-cı hissəsinin ikinci cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 36-cı maddəsinin 1-ci hissəsinin "c" bəndində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyətləri nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 36-cı maddəsinin 1-ci hissəsinin "b" bəndində "orqan (qurum)" dedikdə mərkəzi icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 261-ci maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə baş kollektiv sazişə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, sahə kollektiv sazişinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, ərazi kollektiv sazişinə münasibətdə yerli icra hakimiyyətləri nəzərdə tutulur.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3** "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 8, maddə 943; 2025, № 2, maddə 124, № 7, maddə 641; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 16 yanvar tarixli 584 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasda ikinci halda "bəndində" sözü ", "b" və "c" bəndlərində" sözləri ilə, "6-cı hissəsində" sözləri "6-cı hissəsinin birinci və ikinci (hər iki halda) cümlələrində" sözləri ilə əvəz olunsun və həmin abzasa "314-cü" sözlərindən əvvəl "261-ci maddəsinin 3-cü hissəsində," sözləri əlavə edilsin;

3.2. üçüncü – otuz birinci abzaslar müvafiq olaraq dördüncü – otuz ikinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"həmin Məcəllənin 155-ci maddəsinin 6-cı hissəsinin ikinci cümləsində (ikinci halda) orqan (qurum) dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

3.3. altıncı abzasda "və 87-ci maddəsinin 3-cü hissəsində" sözləri ", 87-ci maddəsinin 3-cü hissəsində və 155-ci maddəsinin 6-cı hissəsinin ikinci cümləsində (birinci halda)" sözləri ilə əvəz edilsin;

3.4. on üçüncü abzasdan "36-cı maddəsinin birinci hissəsinin "b" bəndində," sözləri çıxarılsın;

3.5. on dördüncü abzasda "nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər" sözləri "orqan (qurum)" dedikdə yerli icra hakimiyyətləri nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

3.6. on doqquzuncu abzasda "nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər" sözləri "orqan (qurum) dedikdə" aşağıdakılar nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

3.7. iyirmi birinci abzasda "Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri, dövlət konsernləri, şirkətləri və idarələri" sözləri "mərkəzi icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

3.8. otuz ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda otuz üçüncü abzas əlavə edilsin:

"həmin Məcəllənin 36-cı maddəsinin 1-ci hissəsinin "b" bəndində "orqan (qurum)" dedikdə mərkəzi icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 fevral 2026-cı il**

# Ölkəmizdə data mərkəzlərinin inkişafına "yaşıl" işıq!

**"AzərEnerji" ASC və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) rəqəmsallaşma, kibertəhlükəsizlik və data mərkəzlərinin inkişafı üzrə birgə fəaliyyət istiqamətlərini razılaşdırıblar. Bu barədə XQ-yə "AzərEnerji"-dən məlumat verilib.**

Bildirilib ki, "AzərEnerji"nin Baş idarəetmə, elm, tədris və laboratoriya mərkəzində İRİA rəhbərliyinin iştirakı ilə görüş keçirilib. Prezident İlham Əliyevin bu il fevralın 11-də "Azərbaycanın yeni rəqəmsal arxitekturası"na dair müşavirədə verdiyi tapşırıqlardan sonra keçirilən sayca ikinci görüşdə dövlət başçısının 10 dekabr 2025-ci il tarixli 841 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair Strategiya" çərçivəsində enerji sistemində həyata keçirilən tədbirlər nəzərdən keçirilib.

"AzərEnerji" tərəfindən edilən təqdimat zamanı Elektroenergetika Obyektləri üzrə Operativ Məlumat Sistemi, SCADA və WAMS/WACS sistemlərinin tətbiqi, monitorinq və operativ idarəetmə imkanları barədə məlumat verilib. Bununla yanaşı, monitorinq məqsədilə xüsusi təchiz olunmuş nəqliyyat vasitələri və enerji obyektlərində rəqəmsal nəzarət mexanizmləri diqqətə çatdırılıb.

İRİA nümayəndələri isə təhlükəsizlik və kibertəhlükəsizlik sistemləri, o cümlədən Kiber Təhlükəsizlik Mərkəzinin fəaliyyəti barədə məlumat verərək birgə əməkdaşlıq və ixtisasartırma imkanlarını təqdim ediblər.

Müzakirələr zamanı enerji ilə əlaqəli data mərkəzlərinin enerji təchizatı, strateji obyektlərin yaxınlığında data infrastrukturunun qurulması, fiber-optik şəbəkənin inkişafı və "AzərEnerji"nin myGov.az platforması ilə inteqrasiyası məsələləri də əhatə olunub. Qeyd edilib ki, inteqrasiya mərhələli şəkildə həyata keçiriləcək və istifadəçi sayının artırılması nəzərdə tutulur.

***XQ***

# "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026–2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, bu sahədə infrastrukturun təkmilləşdirilməsi, içməli su və suvarma suyu ilə təminatın daha da yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

**1.** "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026–2030-cu illər üçün Tədbirlər Planı" (bundan sonra – Tədbirlər Planı) təsdiq edilsin *(əlavə olunur)*.

**2** "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya:

2.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təklifləri əsasında Tədbirlər Planının 1-ci hissəsində nəzərdə tutulan tədbirlər üzrə icra ediləcək layihələrin siyahısını bir ay müddətində müəyyən etsin;

2.2. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**4** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**5** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin cari ildə və növbəti illərdə maliyyələşdirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 fevral 2026-cı il**

*Azərbaycan Respublikası Prezidentinin*
*2026-cı il 21 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026–2030-cu illər üçün

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcraçı qurumlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| | **1. Suvarma üçün sudan səmərəli və qənaətli istifadənin təmin edilməsi** | | |
| 1.1. | "Qaraçuq-1" nasos stansiyasının və nasos stansiyasından qidalanan hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2030 |
| 1.2. | Culfa rayonu ərazisində Araz çayından qidalanan hidrotexniki qurğuların əsaslı təmiri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2028 |
| 1.3. | Ordubad rayonu ərazisində Araz çayından və Gilançaydan qidalanan hidrotexniki qurğuların əsaslı təmiri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2029 |
| 1.4. | Naxçıvançayın sol sahilində Babək rayonunun ərazisinə xidmət edən hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2029 |
| 1.5. | Naxçıvançayın sağ sahilində Babək rayonunun ərazisinə xidmət edən hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2029 |
| 1.6. | Sədərək rayonu ərazisində Araz çayından qidalanan hidrotexniki qurğuların əsaslı təmiri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2030 |
| 1.7. | Əlincəçaydan və Bənəniyar su anbarından qidalanan hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2030 |
| 1.8. | Şahbuz rayonu ərazisində əkin sahələrinin suvarılmasına xidmət edən hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2028 |
| 1.9. | Kəngərli rayonu ərazisində Arpaçaydan qidalanan hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2028 |
| 1.10. | Şərur rayonu ərazisində Araz çayından qidalanan nasos stansiyalarının və təzyiqli boru xətlərinin yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2027–2029 |
| 1.11. | Şərur rayonu ərazisində Arpaçaydan qidalanan hidrotexniki qurğuların yenidən qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2028–2030 |
| | **2. İçməli su təchizatı sisteminin təkmilləşdirilməsi** | | |
| 2.1. | Sədərək rayonunun Heydərabad qəsəbəsinin, Qaraağac və Sədərək kəndlərinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2029 |
| 2.2. | Kəngərli rayonunun Qıvraq qəsəbəsi və Şahtaxtı kəndinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2029 |
| 2.3. | Kəngərli rayonunun Xok, Qabıllı, Qarabağlar və Yurdçu kəndlərinin içməli su təchizatı şəbəkəsinin qurulması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2029 |
| 2.4. | Ordubad şəhəri üzrə içməli sutəmizləyici qurğunun bərpası, Babək şəhəri üzrə içməli sutəmizləyici qurğunun tikintisi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2030 |
| 2.5. | İçməli su təchizatının yaxşılaşdırılması məqsədilə yeni subartezian quyularının qazılması və infrastrukturun təkmilləşdirilməsi | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2026–2029 |
| | **3. Torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və deqradasiyasına, səhralaşmasına qarşı mübarizə** | | |
| 3.1. | Kəngərli rayonunun Böyükdüz və Xok kəndləri ərazisində qapalı suvarma və kollektor-drenaj şəbəkələri tikintisinin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2028–2030 |
| 3.2. | Naxçıvan şəhərinin Qaraxanbəyli və Tumbul kəndlərinin ərazisində kollektor-drenaj şəbəkələrinin tikintisinin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2028–2030 |
| 3.3. | Şərur rayonunun Püsyan, Tumaslı və Xanlıqlar kəndlərinin ərazisində kollektor-drenaj şəbəkələri tikintisinin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 2028–2030 |

# Gürcüstan parlament heyəti Milli Məclisdə

**Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Gürcüstan Parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Şamxaradze ilə görüşüb.**



Görüşdə üçtərəfli görüşün əhəmiyyəti vurğulanaraq, bu əməkdaşlıq formatının 2014-cü ildə Bakıda təsis edildiyi, son iclasının isə 2022-ci ildə Şuşada keçirildiyi qeyd olunub. Sahibə Qafarova Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli münasibətlərin regionda sülhə, sabitliyə, əməkdaşlığa və iqtisadi inkişafa töhfə verdiyini bildirib.

Söhbət zamanı Azərbaycan və Gürcüstan arasında əlaqələrin hazırkı yüksək səviyyəsindən məmnunluq ifadə olunaraq bildirilib ki, regionda strateji layihələrin icrasında da ölkələrimiz arasında əməkdaşlıq uğurla davam edir. Münasibətlərin parlamentlər çərçivəsində də uğurlu inkişafı qeyd olunaraq, parlament sədrləri və deputatlar arasında sıx qarşılıqlı təmasların münasibətlərimizin daha da genişlənməsində vacib rolu vurğulanıb. Parlamentlərimizin həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq etdiyi diqqətə çatdırılıb.

*XQ*

# Azərbaycan–İran Dövlət Komissiyasının 17-ci iclası




**Fevralın 23-də Bakıda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 17-ci iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, komissiyanın Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayevin və İran İslam Respublikasının yol və şəhərsalma naziri, komissiyanın İran tərəfindən həmsədri Fərzanə Sadiqin sədrliyi ilə keçirilən iclasda hər iki ölkənin aidiyyəti qurumlarının səlahiyyətli nümayəndələri iştirak ediblər.

Azərbaycan və İran arasında münasibətlərin ortaq tarixi, mədəni və dini dəyərlər, dostluq və qonşuluq prinsipləri əsasında qurulduğu, ikitərəfli əlaqələrin dinamikasının iki ölkə rəhbərlərinin siyasi iradəsinə əsaslandığı və bütün sahələri əhatə etdiyi xüsusilə vurğulanıb.

İclasda Azərbaycan ilə İran arasında ticarət-iqtisadi, nəqliyyat, energetika, su, humanitar və digər sahələrdə əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətraflı müzakirə edilib.

Baş nazirin müavini Şahin Mustafayev çıxışında qeyd edib ki, Ağbənd–Kəlalə avtomobil körpüsünün tikintisi artıq başa çatıb və sərhəd-gömrük infrastrukturunun inşası tamamlandıqdan sonra körpünün istismara verilməsi nəzərdə tutulur. Sözügedən layihə Şərqi Zəngəzur iqtisadi rayonunu Naxçıvanla ən qısa və səmərəli marşrutla birləşdirəcək, eyni zamanda, Fars körfəzi ilə Qara dənizi əlaqələndirən əlverişli avtomobil marşrutunun mühüm tərkib hissəsini təşkil edəcək.

Eyni zamanda, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı, regionun logistik imkanlarının və tranzit potensialının genişlənməsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin əsas elementi hesab edilən Rəşt-Astara dəmir yolu xəttinin tikintisi geniş müzakirə olunub. Bildirilib ki, bu xəttin istifadəyə verilməsi Şimal-Cənub istiqamətində daşımaların həcmini əhəmiyyətli dərəcədə artıracaq və çatdırılma müddətini qısaldacaq.

Həmçinin iki ölkənin birgə həyata keçirdiyi, xüsusilə də regionun logistik imkanlarının və tranzit potensialının genişlənməsinə, eləcə də enerji dayanıqlılığının təmin edilməsinə yönələn layihələrin icra vəziyyəti nəzərdən keçirilib.

İclasın yekununda həmsədrlər tərəfindən komissiyanın iclasının nəticələrinə dair Anlaşma Memorandumu imzalanıb.

*XQ*

# Qambiya ilə əməkdaşlıq müzakirə edilib




**Fevralın 23-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Qambiyanın xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılar üzrə naziri Serinq Modou Njie arasında telefon danışığı baş tutub.**

Telefon danışığı zamanı Azərbaycan ilə Qambiya arasında mövcud ikitərəfli münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Ötən ilin sentyabr ayında imzalanmış "Siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"na uyğun olaraq, iki ölkənin Xarici İşlər nazirlikləri arasında qısa müddət ərzində siyasi məsləhətləşmələrin keçirilməsinin önəmi vurğulanıb.

Tərəflər İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində ölkəmizin qarşıdan gələn sədrliyi, eləcə də bu çərçivədə keçiriləcək mötəbər tədbirlərə hazırlıq planları ətrafında fikir mübadiləsi aparıblar. Bununla yanaşı, ölkəmizdə bu il keçiriləcək Ümumdünya Şəhərsalma Forumu barədə qarşı tərəfə məlumat verilib.

*XQ*

# Konstitusiya Məhkəməsi Plenumunun qərarı

**Konstitusiya Məhkəməsinin Plenumu İnsan hüquqları üzrə müvəkkilin (Ombudsmanın) sorğusu əsasında Əmək Məcəlləsinin 144-cü maddəsinin 2 və 3-cü hissələrinin Konstitusiyaya uyğunluğunu araşdıraraq fevralın 18-də qərar qəbul edib.**



Sorğu əmək müqaviləsinə xitam verilərkən işçilərə istifadə olunmamış əlavə məzuniyyət günlərinə görə kompensasiyanın ödənilməməsini nəzərdə tutan normanın Konstitusiyanın bərabərlik, sosial dövlət və hüquqların məhdudlaşdırılmasının mütənasibliyi prinsiplərinə uyğunluğu ilə bağlı olub.

Qərarda göstərilir ki, qanunvericiliyə əsasən işçilərə əsas məzuniyyətlə yanaşı, müəyyən kateqoriyalara əmək şəraitinə, əmək stajına, uşaqlı qadınlara, eləcə də işğaldan azad edilmiş ərazilərdə çalışan mütəxəssislərə əlavə məzuniyyət hüququ verilir. Əmək müqaviləsinə xitam verilərkən istifadə edilməmiş əsas məzuniyyət günlərinə görə kompensasiya ödənildiyi halda, əlavə məzuniyyətlərə görə kompensasiya verilməməsi həmin hüququn faktiki həyata keçirilməsini məhdudlaşdırır.

Plenum qeyd edir ki, əlavə məzuniyyət hüququndan obyektiv səbəblərə görə istifadə edə bilməyən işçinin həmin hüquqa görə kompensasiya almaq imkanından tam məhrum edilməsi hüququn mahiyyətini formal xarakterə çevirir və bərabərlik prinsipinə uyğun gəlmir. Eyni zamanda, yalnız əmək münasibətlərinin davam etməsi və ya xitam verilməsi meyarına əsaslanaraq fərqli hüquqi nəticələrin müəyyən olunması obyektiv və ağlabatan əsas kimi qiymətləndirilə bilməz.

Bütün bunları nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu Əmək Məcəlləsinin 144-cü maddəsinin 3-cü hissəsində əlavə məzuniyyətlərə görə kompensasiyanın verilməməsini nəzərdə tutan müddəanın Konstitusiyaya uyğun olmadığını hesab edir və həmin normanın tətbiqinin dayandırılmalı olduğunu bildirir. Qanunvericilikdə müvafiq dəyişikliklər edilənədək əmək müqaviləsinə xitam verilərkən işçilərə istifadə edilməmiş əlavə məzuniyyət günlərinə görə kompensasiyanın əsas məzuniyyət üçün nəzərdə tutulmuş qaydada və məbləğdə ödənilməsi təmin olunmalıdır.

*XQ*

# Baş prokurorun Tbilisiyə səfəri

**Tbilisidə səfərdə olan Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev fevralın 23-də Gürcüstanın Baş prokuroru Giorgi Qvarakidze ilə görüşüb.**



Kamran Əliyev dəvətə görə gürcü həmkarına təşəkkürünü bildirib. O qeyd edib ki, Gürcüstan Azərbaycan üçün dost ölkədir.

Giorgi Qvarakidze qurumlararası münasibətlərin inkişafından məmnunluğunu ifadə edib.

Görüşdə iki ölkənin prokurorluq orqanları arasında cinayətkarlığın müxtəlif formalarına qarşı birgə mübarizə, həmçinin ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# 293 nəfər də doğma Ağdərəyə qovuşdu

**İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış proqramı çərçivəsində fevralın 23-də Ağdərə rayonunun 4 yaşayış məntəqəsinə, ümumilikdə 293 nəfərdən ibarət 63 ailə qayıdıb. Bu mərhələdə Çıldıran kəndinə 46 nəfər (10 ailə), Çapar kəndinə 22 nəfər (7 ailə), Aşağı Oratağ kəndinə 141 nəfər (29 ailə), Heyvalı kəndinə isə 84 nəfər (17 ailə) köçürülüb.**



Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

# “Adsız qəhrəman”ın ekran obrazı




**Nizami Kino Mərkəzində Xocalı soyqırımında qəhrəmancasına şəhid olmuş polis əməkdaşı Məzahir Əbilov haqqında “Adsız qəhrəman” sənədli filminin təqdimatı keçirilib.**

Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) “Avrasiya Media Şəbəkəsi” tərəfindən hazırlanmış film 1992-ci il fevralın 26-da törədilmiş Xocalı soyqırımında qəhrəmancasına şəhid olmuş polis əməkdaşı Məzahir Yaqub oğlu Əbilovun həyat və döyüş yolundan bəhs edir.

Qarabağ qazisi, jurnalist və filmin ssenari müəllifi Rey Kərimoğlu çıxış edərək film haqqında ümumi məlumat verib. Filmin rejissoru Roman Yaşar jurnalistlərə açıqlamasında filmin təqdimatının anşlaqla keçməsini və belə qəhrəmanların cəmiyyətə tanıdılmasının əhəmiyyətini qeyd edib. Daxili İşlər Nazirliyinin nümayəndəsi polkovnik Mehman Həsənov, BAMF prezidenti Umud Mirzəyev, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov və digər çıxış edənlər belə filmlərin davamlı çəkilməsinin vacibliyini vurğulayıblar.

Qeyd edək ki, Əbilov Məzahir Yaqub oğlu 1969-cu il yanvarın 29-da Ağdam rayonunun Muğanlı kəndində doğulub. Orta məktəbi bitirdikdən sonra 1987-1989-cu illərdə hərbi xidmətdə olub. 1990-cı ildə Vətənə olan sevgisi, dinc insanlarımızın həyatından narahatlığı onu Xocalıya aparıb. Xocalıda milis işçisi kimi xidmətə başlayıb. Silahdaşları ilə birgə “Bozdağ”, “Həsənabad”, “Daşbulaq”, “Mehdikənd” və digər əməliyyatlarda iştirak edib.

O, 1992-ci ildə Ermənistan silahlı qüvvələrinin Xocalıda törətdikləri vəhşilik zamanı soydaşlarımızı xilas edərkən itkin düşüb.

*XQ*

# Ukraynaya növbəti humanitar yardım



**Azərbaycanın Ukraynaya humanitar yardım çərçivəsində nəzərdə tutulan enerji avadanlıqlarından ibarət növbəti yük Kiyevin rəsmi şəxsləri tərəfindən təhvil alınıb.**

Enerji avadanlıqlarının təhvil verilməsində Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev, Ukraynanın xarici işlər nazirinin müavini Oleksandr Mişenko, Ukrayna energetika nazirlərinin müavinləri Nikolay Kolesnik və Valentina Moskalenko, səhiyyə nazirinin müavini İqor Kopaç iştirak ediblər.

Göndərilən avadanlıqların ümumi dəyəri 1 milyon dollar təşkil edir. Bura 12 alçaq gərginlikli panel, 11 generator, 5 transformator, 27 min metrə yaxın kabel və naqillər daxildir.

Məlumata görə, ümumilikdə Azərbaycanın Ukraynaya göndərdiyi humanitar, bərpa və yenidənqurma yönümlü yardımın həcmi 45 milyon dolları ötüb.

*XQ*

# Azərbaycan Sülh Şurasında: regional və qlobal barış naminə həmrəylik




(əvvəli 1-ci səhifədə)

Onu da deyək ki, Sülh Şurasına skeptik yanaşanlar, qurumu Birləşmiş Ştatların klubu kontekstində qiymətləndirənlər də var. Əlbəttə, mövcud istiqamətdəki fikirlərin əsasən Rusiya mediasının və ölkənin müxtəlif düşüncə mərkəzlərinin məhsulu olduğunu vurğulamalıyıq.

Qərb, dəqiq desək, Avropa mediasına və analitik çevrələrinə gəlincə, onların yanaşmasında Sülh Şurası, müəyyən mənada, sırf Trampa bağlı, yəni gerçək əsası olmayan, real çağırışlardan qaynaqlanmayan qurumdur. Təxminən belə: Tramp yoxdursa, Sülh Şurası da yoxdur. Amma...

Əlbəttə, Sülh Şurası dünyada, belə demək mümkünsə, tam legitimlik qazanmaq üçün çox işlər görməlidir. ABŞ-ın hazırkı administrasiyasının əzmi həmin işlərin, genişmiqyaslı fəaliyyət xəttinin reallaşdırılacağından xəbər verir. Sülh Şurası elə prinsipial fəaliyyət göstərməlidir ki, təşkilat ABŞ-ın çətiri altında olan dövlətlər birliyi kontekstində qəbul edilməsin. Ən başlıcası, Şura qütbləşməni dərinləşdirməməli, ənənəvi ABŞ-Rusiya rəqabətinin növbəti təzahür meydanına çevrilməməli, adının daşıdığı mənaya uyğun davranmalıdır. Yəni sırf sülh maraqları əsas götürülməlidir. Söhbət həm də barışın humanizm və insanpərvərlik kimi bəşəri meyarlarının qlobal miqyasda daha da möhkəmləndirilməsindən gedir.

Sülh Şurası sülhü alətə çevirməməli, səmimiyyət və dürüstlük platforması kimi populyarlaşmalıdır. Qurumun legitimləşməsini yalnız bu təmin edəcək və yalnız bu amil əsas götürüləcəyi təqdirdə, təşkilatın barış naminə fəaliyyəti şübhə doğurmayacaq, birmənalı qarşılanacaq. Azərbaycan dövləti də məhz belə bir gözləntidədir. Mövcud məqam Prezident İlham Əliyevin ölkəmizin Sülh Şurasına təsisçi üzv qismində qoşulmaqla bağlı Prezident Trampın dəvətinə cavab məktubunda da əksini tapıb: “Bu dəvəti Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarının qarşılıqlı hörmətə əsaslanan faydalı tərəfdaşlığının, həmçinin Azərbaycanın regional və qlobal miqyasda sülh və sabitliyin təşviqində rolunun tanınmasının rəmzi olaraq qəbul edirəm. Azərbaycan Respublikası Sülh Şurasına qoşularaq, onun Qəzzadakı münaqişənin sonlandırılması və uzunmüddətli münaqişədən əziyyət çəkən bütün tərəflərə daha təhlükəsiz və rifahlı gələcək qurulması kimi nəcib missiyasını paylaşacaq. İnanıram ki, Sülh Şurası səmərəli beynəlxalq təşkilat olub, öz missiyasını uğurla yerinə yetirəcək”.

Bəli, Azərbaycan üçün başlıca amal sülhdür. Başqa cür mümkün də deyil. Çünki ölkəmiz müasir müstəqilliyi dövründə sülhün olmamasından əziyyət çəkib. Barış mühitinin olmaması Azərbaycan toplumunun nəinki müstəqillik illərində, eləcə də ondan əvvəlki ahənginə də yumşaq desək, mənfi təsirini göstərib. Nəzərə alaq ki, bu toplum indiyədək müxtəlif miqyaslı faciələr, onların gətirdiyi məhrumiyyətlər və məşəqqətlərlə üzləşib, itkilər verib. Bu mənada Prezident İlham Əliyevin 2023-cü il sentyabrın 20-da, yəni lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra xalqa müraciətindəki bu fikirlər düşündürücüdür: “Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq!”.

Cənubi Qafqazda qanlı qarşıdurmalara, savaşlara yer olmamalıdır. Bölgə sülh və barış məkanına çevrilməlidir. Region sülh və barış platformasına çevrilməlidir ki, inkişaf olsun, bu coğrafiyada yaşayan insanlar dinclik və rifah tapsınlar, ömürlərini təhlükəsiz şərtlər altında, heç kəsdən və heç nədən çəkinməyərək sürsünlər. Azərbaycan məhz buna çalışır. Ölkəmizin Sülh Şurasında iştirakı həm də postmünaqişə dövründə əldə etdiyi barış və sabitlik təcrübəsini dünyaya ixrac etməkdir. Ölkəmizin təcrübəsinin qarşılıqlı faydaya əsaslandığını isə xüsusi qeyd etməliyik və ilk faydaları əvvəldə vurğuladıq.

Onu da vurğulayaq ki, Azərbaycan üçün sülh maksimum inam və etimad deməkdir. Yəni ölkəmiz barışa fundamental yanaşır. Ermənistandan da belə bir gözləntimiz var. Özü də təkcə Ermənistan dövlətindən deyil, erməni cəmiyyətindən də həmçinin. Gözləntimiz səmimiyyətdir. Elə bir səmimiyyət ki, bir əsrdən də artıq olan düşmənçilik səhifəsini tamamilə bağlasın. Ona görə Azərbaycan Prezidenti dünyanın gözü qarşısında Ermənistanın baş nazirinin əlini sıxır. Yəni Sülh Şurasındakı təmsilçilik amalımız, böyük ölçüdə, Ermənistanla barışdakı regional sabitlik gündəmini diri saxlamaq əzmimizin göstəricisidir. Beynəlxalq aləm də bunu görməlidir.

Sonda ümumiləşdirmə apararaq deyək ki, birincisi, Azərbaycan üçün dünyada sülhü hansı qüvvənin yaratmasının elə bir önəmi yoxdur. Ölkəmiz məsələyə özünün regional aktor statusu ilə yanaşır. Əgər ABŞ hazırda qlobal barış arxitekturasında yeni rol iddiasındadırsa və bu iddia ölkənin mütərəqqi beynəlxalq liderlik ampluası ilə möhkəmlənirsə, deməli, gələcəyə nikbin baxmaq olar.

İkincisi, Azərbaycan–Ermənistan münasibətləri Sülh Şurasının effektivliyinin test platforması kimi çıxır edir və ölkəmiz sülhün bir tərəfi olaraq qurumun fəaliyyət məhsuldarlığındakı indikator ölkədir.

Üçüncüsü, Sülh Şurasının legitimləşməsinin vacibliyini vurğuladıq. Onu da nəzərə alaq ki, legitimlik yalnız siyasi güclə deyil, prinsiplərə sadiqlik və qütbləşmədən uzaq durmaqla təmin edilə bilər.

Dördüncüsü, Sülh Şurasında təmsil olunan Azərbaycan barışı özünün fundamental milli marağı kimi təqdim edir. Bu təqdimatda da haqında söz açdığımız prinsiplərə sadiqlik ön plandadır. Elə bir sadiqlik ki, həm regional sabitliyi möhkəmləndirsin, həm də ölkəmizin beynəlxalq imicini gücləndirsin.

Beşincisi, ölkəmiz üçün regional barış yalnız iki dövlət arasında münasibətlər sistemi deyil, bütövlükdə Cənubi Qafqazın transformasiyası kimi təqdim edilir və Sülh Şurasından gözləntimiz də bu transformasiyaya dəstəkdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Şimal cərəyanından gələn siqnallar

(əvvəli 1-ci səhifədə)

Əvvəlki mərhələdə Cənubi Qafqazın təhlükəsizlik arxitekturası asılılıq prinsipi üzərində qurulmuşdu. Region ölkələrinin təhlükəsizlik təminatı müəyyən mərkəzlərdən keçirdi və bu, onların xarici siyasət manevr imkanlarını məhdudlaşdırırdı. Post-2020 mərhələsində Azərbaycan bu modeli diversifikasiya etdi. Proses çoxvektorlu balans siyasətinin institusionallaşmasıdır. Bakı eyni vaxtda müxtəlif güc mərkəzləri ilə işləməklə qərar qəbuletmə prosesində suverenliyi prioritet saxladı və klassik “təsir zonası” anlayışını faktiki olaraq sarsıtdı. Geoiqtisadi transformasiya bu prosesi daha da dərinləşdirir. Azərbaycanın Orta Dəhliz strategiyası və Zəngəzur bağlantısı təşəbbüsü Cənubi Qafqazı təhlükəsizlik periferiyasından qlobal logistika xəritəsinin əsas xəttinə çıxarır. Region artıq enerji və nəqliyyat təhlükəsizliyinin mühüm halqası kimi təqdim olunur. Hərbi-siyasi təzyiqin yerini iqtisadi və informasiya müstəvisində rəqabət tutur; tranzit marşrutları ətrafında ritorikanın kəskinləşməsi və alternativ layihələrin təşviqi geoiqtisadi mübarizənin elementlərinə çevrilir.

Strateji diskomfortun ən operativ təzahürü isə informasiya sahəsində özünü göstərir. Azərbaycanın təşəbbüskar aktora çevrilməsi bəzi dairələr tərəfindən “status-kvonun pozulması” kimi təqdim edilir və bu, beynəlxalq auditoriyada legitimlik mübahisəsi yaratmağa yönəlir. Narrativlərin toqquşması vasitəsilə regional liderlik imici balanslaşdırılmağa, daxili ictimai sabitlik test edilməyə və təşəbbüslərin beynəlxalq dəstəyi zəiflədilməyə çalışılır. Hibrid mühitin mahiyyəti məhz bundadır: siyasi, iqtisadi və informasiya komponentləri paralel və qarşılıqlı təsir şəklində işləyir.

* * *

Hibrid müharibə klassik qarşıdurmadan fərqli olaraq, cəbhəsi və formal başlanğıc nöqtəsi olmayan, lakin strateji məqsədləri aydın olan mübarizə formasıdır. Burada əsas hədəf birbaşa hərbi toqquşma deyil, siyasi mühitin tədricən dəyişdirilməsi, qərarvermə prosesinə təsir göstərilməsi və dövlətin davranış modelinin korreksiyasıdır. Azərbaycan kontekstində hibrid hücumların arxitekturası paralel və bir-birini tamamlayan təsir xətləri üzərində qurulur.

İnformasiya və psixoloji təsir bu arxitekturanın ən çevik komponentidir. Dezinformasiya kampaniyaları, manipulyativ analitik çərçivələr, sosial şəbəkələrdə koordinasiyalı şəbəkələrin aktivliyi faktların özündən daha çox onların interpretasiyasına yönəlir. Azərbaycanın suveren qərarlarının “aqressiv” və ya “destabilizasiyaedici” kimi təqdim olunması beynəlxalq auditoriyada normativ balans yaratmağa, eyni zamanda, daxili ictimai rəyin psixoloji davamlılığını test etməyə hesablanır. Müasir geosiyasətdə reputasiya və legitimlik sərt güc qədər əhəmiyyətli olduğundan, informasiya sahəsində üstünlük strateji təsir imkanları yaradır.

Diplomatik müstəvidə isə hibrid strategiya daha incə və institusional xarakter alır. Sülh prosesinə selektiv yanaşma, tərəflərə fərqli standartların tətbiqi və bəzi beynəlxalq mexanizmlərin balans aləti deyil, təzyiq rıçağı kimi istifadəsi diplomatiyanın mahiyyətini dəyişir. Azərbaycan belə şəraitdə normativ müstəvidə müdafiə mövqeyinə sıxışdırıla və danışıqlar prosesində əlavə şərtlərlə üzləşdirilə bilər. Bu isə formal olaraq münaqişəsiz görünən, lakin faktiki olaraq davam edən siyasi təzyiq modelidir.

İqtisadi və enerji alətləri hibrid arxitekturanın daha struktur komponentidir. Tranzit, logistika və bazar faktorlarının zaman-zaman qabardılması, iqtisadi siqnalların qeyri-müəyyən formada verilməsi psixoloji və siyasi təsir yaratmaq məqsədi daşıyır. Gömrük prosedurlarının sərtləşdirilməsi, nəqliyyat axınlarının ləngidilməsi və ya enerji əməkdaşlığı ilə bağlı qeyri-müəyyən mesajlar birbaşa sanksiya olmasa da, strateji mühitdə risk hissi formalaşdırır. Lakin Azərbaycanın həyata keçirdiyi diversifikasiya siyasəti – Cənub Qaz Dəhlizi, TANAP və TAP, eləcə də Orta Dəhlizin inkişafı – iqtisadi asılılıq imkanlarını struktur olaraq zəiflədir və bu alətin effektivliyini məhdudlaşdırır.

Hibrid modelin daha həssas komponentlərindən biri üçüncü tərəflər üzərindən dolayı təsir mexanizmləridir. Regionda sabitliyin pozulması üçün birbaşa müdaxilə deyil, dolayı destabilizasiya cəhdləri ön plana çıxır. Ermənistan daxilində revanşist ritorikanın təşviqi, hərbiləşmə meyillərinin gücləndirilməsi və daxili siyasi radikallaşmanın stimullaşdırılması təhlükəsizlik mühitini yenidən risk zonası kimi təqdim etməyə xidmət edə bilər. Bu halda məqsəd Azərbaycanın resurslarını inkişaf və inteqrasiya gündəmindən təhlükəsizlik prioritetlərinə yönəltmək, təşəbbüskarlıq imkanlarını zəiflətməkdir.

Ümumilikdə, hibrid hücumların arxitekturası şəbəkə prinsipinə əsaslanır. İnformasiya təzyiqi diplomatik müstəvidə rezonans yarada, iqtisadi siqnallar psixoloji təsiri gücləndirə, regional gərginlik isə beynəlxalq platformalarda əlavə arqument kimi istifadə oluna bilər. Amma bu modelin effektivliyi hədəf dövlətin institusional dayanıqlığından asılıdır. Azərbaycanın postmüharibə mərhələsində təhlükəsizlik sektorunun modernləşdirilməsi, enerji və nəqliyyat marşrutlarının şaxələndirilməsi, çoxvektorlu diplomatik balansın qorunması və informasiya təhlükəsizliyi sahəsində təcrübənin formalaşması hibrit təsir radiusunu məhdudlaşdıran əsas amillərdir.

* * *

Azərbaycanın əsas üstünlüyü ondan ibarətdir ki, o, hibrid qarşıdurma müstəvisinə hazırlıqsız daxil olmayıb. 44 günlük müharibə dövründə informasiya təhlükəsizliyi, strateji kommunikasiya və operativ diplomatik manevr qabiliyyəti sahəsində formalaşmış təcrübə post-müharibə mərhələsində institusional çərçivəyə salınıb. Müharibə dövlət



idarəçiliyində koordinasiya, informasiya axınının idarə olunması və beynəlxalq platformalarda çevik reaksiya mexanizmlərinin sınaqdan keçdiyi mərhələ oldu.

Çoxvektorlu xarici siyasət Azərbaycanın əsas balans alətidir. Regional təşəbbüskarlıq isə cavab strategiyasının geoiqtisadi sütunudur. Orta Dəhlizin inkişafı, Zəngəzur bağlantısının təşviqi və ümumilikdə Şərq–Qərb tranzit xəttində fəal rol Azərbaycanın strateji çəkisini artırır.

Hərbi modernizasiya və müdafiə sənayesinin inkişafı da cavab strategiyasının ayrılmaz hissəsidir. Hibrid müharibə hər nə qədər qeyri-simmetrik xarakter daşısa da, onun arxasında potensial sərt komponentlərin olması ehtimalı həmişə qalır. Buna görə də Azərbaycan balanslaşdırılmış təhlükəsizlik siyasəti aparır: bir tərəfdən diplomatik və iqtisadi alətlər aktiv saxlanılır, digər tərəfdən isə çəkindirici hərbi potensial gücləndirilir.

Şimaldan “əsən” təhdidlərin real ölçüsünə gəldikdə, birbaşa hərbi müdaxilə ehtimalı mövcud beynəlxalq konfiqurasiya fonunda aşağı qiymətləndirilə bilər. Böyük güclərin resurslarının digər istiqamətlərdə cəmlənməsi və regional balansın həssaslığı genişmiqyaslı konfrontasiyanı rasional seçimdən uzaqlaşdırır. Lakin bu, təhlükənin aradan qalxdığı anlamına gəlmir. Əksinə, təsir daha incə, uzunmüddətli və struktur xarakter ala bilər.

Məhz buna görə Azərbaycan təhlükəsizlik arxitekturasını müdafiə doktrinası üzərində qurmaqla kifayətlənmir. İnformasiya təhlükəsizliyi, kibermüdafiə qabiliyyəti, enerji marşrutlarının qorunması və iqtisadi davamlılıq strategiyası paralel şəkildə inkişaf etdirilir. Dövlətin dayanıqlığı institusional elastiklik və iqtisadi sabitliklə ölçülür. Sonda qeyd edək ki, şimaldan gələn təhdidlər uzunmüddətli rəqabət müstəvisində davam edə bilər, lakin Azərbaycanın geosiyasi çəkisi və artan institusional dayanıqlılığı bu təzyiqlərin effektivliyini ciddi şəkildə məhdudlaşdırır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Tarixi dəyərlərə və ortaq maraqlara sədaqət

## *Azərbaycan və İran arasında çoxtərəfli əlaqələrin ümumi məzmunu belədir*

**İran İslam Respublikasının yol və şəhərsalma naziri Fərzanə Sadiqi Bakıda rəsmi səfərdədir. Nazir Azərbaycan–İran iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası müştərək komissiyanın 17-ci iclasında iştirak edir.**

İclasın gündəliyinə əməkdaşlığın mövcud vəziyyətinin hərtərəfli qiymətləndirilməsi, qarşıya çıxan maneələrin aradan qaldırılması, habelə nəqliyyat, enerji, ticarət və mədəniyyət sahələrində birgə layihələrin icrasının sürətləndirilməsi daxildir. Bu mühüm təmaslar İranın yol və şəhərsalma nazirinin səfərinin yalnız rəsmi protokol xarakteri daşımadığını, həm də qarşılıqlı maraqların əlaqələndirilməsi və uzun illər müzakirə olunan layihələrin real icra mərhələsinə keçməsi baxımından əhəmiyyətini təsdiqləyir.




Müzakirələrdə nəqliyyat sektorunun xüsusi yer tutması tərəflərin strateji hədəfləri ilə birbaşa bağlıdır. Azərbaycan artıq özünü Avrasiya məkanında etibarlı tranzit və logistika mərkəzi kimi təsdiqləmiş, beynəlxalq yük daşımaları və ticarət axınlarında sarsılmaz tərəfdaş olduğunu sübut edib. İran isə regionun “cənub qapısı” kimi strateji mövqeyə malik olmaqla, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat marşrutlarının kəsişməsində həlledici rol oynayır.

Bu çərçivədə əlaqələrin genişləndirilməsi həm iqtisadi, həm də geosiyasi baxımdan müstəsna əhəmiyyət kəsb edərək, bütövlükdə regionun ticarət xəritəsinə köklü təsir göstərir. Hind okeanını Baltik dənizi ilə birləşdirən Şimal–Cənub marşrutu Süveyş kanalına alternativ, daha qısa və səmərəli yol təklif edərək Avrasiyanın tranzit potensialını maksimuma çatdırmaq imkanına malikdir. Gələcəkdə bu dəhlizlə yükdaşımaların illik həcminin 15 milyon tona çatdırılması nəzərdə tutulur ki, bu da Azərbaycana ildə 250–300 milyon dollar həcmində birbaşa iqtisadi gəlir gətirəcəkdir.

Bakı və Tehranın koordinasiyalı fəaliyyəti artıq bu marşrut üzrə konkret infrastruktur layihələrində özünü büruzə verir. Azərbaycan tərəfindən Astaraçay üzərində yeni körpünün inşası və İranın Astara şəhərində Cənub Yük Terminalının qurulması dəhlizin əsas halqalarını formalaşdırır. Dəhlizin tam gücü ilə fəaliyyət göstərməsi üçün prioritet hesab olunan Rəşt–Astara dəmir yolu xəttinin tamamlanması isə bütün regionun ticarət potensialını xeyli artıracaqdır. Hazırda İranla Rusiya arasında əməkdaşlıq bu istiqamətdə davam etdirilir.

Digər tərəfdən, Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək Araz dəhlizi də strateji əhəmiyyəti ilə iclasda diqqət mərkəzindədir. Zəngilanın Ağbənd qəsəbəsi və Naxçıvanda İran üzərindən bağlantı yaradacaq körpülərin inşası Qara dənizlə Körfəzi birləşdirən yeni iqtisadi platformanın təməlini qoyur.

**İqtisadçı ekspert Mahir Zeynalovun** da qeyd etdiyi kimi, tranzit yük həcminin artırılması və infrastrukturun modernləşdirilməsi yalnız iqtisadi artıma təkan vermir, həm də regional inteqrasiyanı gücləndirərək qarşılıqlı investisiya imkanlarını genişləndirir: “Azərbaycan və İran arasında infrastruktur layihələrinin birgə icrası uzunmüddətli perspektivdə ticarət dövriyyəsini artırmaqla yanaşı, regional əməkdaşlıq üçün etibarlı platforma rolunu oynayır. Hər iki ölkənin iqtisadiyyatına sərmayə yatırımlarını artırır”.

Onun sözlərinə görə, iki ölkənin nəqliyyat, logistika, enerji və sənaye sahələrində koordinasiyalı fəaliyyəti uzunmüddətli perspektivdə ticarət dövriyyəsini artırmaqla yanaşı, regional əməkdaşlıq üçün etibarlı platforma rolunu oynayır: “Energetika sahəsində əməkdaşlıq da strateji bağların möhkəmləndirilməsinə xidmət edir. 2024-cü ildə istifadəyə verilmiş “Xudafərin” və “Qız Qalası” hidroelektrik kompleksləri həm enerji təminatı, həm də kənd təsərrüfatında suvarma sistemlərinin inkişafı baxımından mühüm nailiyyətdir. “Ordubad” və “Marazad” su elektrik stansiyalarının tikintisi, 330 kV-luq İmişli–Parsabad elektrik xəttinin qurulması, eləcə də Azərbaycan, İran və Rusiya arasında regional enerji bazarının yaradılması bu əməkdaşlığın sistemli və uzunmüddətli xarakter aldığını göstərir. Şübhəsiz ki, tərəflər arasında mövcud olan inzibati baryerlərin aradan qaldırılması, biznes mühitinin liberallaşdırılması və qarşılıqlı investisiya imkanlarının genişləndirilməsi hər iki ölkənin iqtisadi potensialını gücləndirən fundamental amillərdir. Xüsusilə sahibkar təşəbbüslərinin dövlət səviyyəsində dəstəklənməsi və birgə sənaye layihələrinin icrası iqtisadi əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına rəvac verir”.

İqtisadçı sonda vurğuladı ki, iki qonşu dövlətin nəqliyyat və logistika sahəsindəki sıx koordinasiyası, enerji və sənaye sektorlarında həyata keçirdiyi müştərək fəaliyyətlər qarşılıqlı investisiya mühitini daha da stimullaşdırır: “Azərbaycan və İran tərəfindən infrastruktur layihələrinin birgə icrası uzunmüddətli perspektivdə ticarət dövriyyəsini artırmaqla yanaşı, regional əməkdaşlıq üçün etibarlı və sarsılmaz platforma rolunu oynayır. Atılan hər bir konkret addım yalnız milli iqtisadiyyatların inkişafına deyil, həm də bütövlükdə regionun dayanıqlı tərəfdaşlıq məkanına çevrilməsinə xidmət edir. Bu baxımdan, Azərbaycan–İran əməkdaşlığı yalnız iqtisadi və logistik mülahizələrlə məhdudlaşmayaraq, regionun geosiyasi dayanıqlığının, enerji və ticarət təhlükəsizliyinin təmin olunmasında strateji sütun kimi çıxış edir. Şübhəsiz ki, sözügedən əməkdaşlıq yalnız iqtisadiyyatla məhdudlaşmır. Əməkdaşlıq həm də siyasi sahədə genişlənir. Azərbaycanın müəllifi olduğu “3+3” regional əməkdaşlıq formatı, eləcə də Azərbaycan–Rusiya–İran və Azərbaycan–İran–Türkiyə üçtərəfli platformaları təhlükəsizlik və tərəfdaşlıq müstəvisində unikal imkanlar yaradır. Eyni zamanda, ECO, İƏT, D8 və ŞƏT kimi nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsindəki səmərəli fəaliyyət hər iki ölkənin qlobal arenada strateji manevr imkanlarını genişləndirir. Yekun olaraq qeyd etmək lazımdır ki, Bakı və Tehranın qarşılıqlı etimada əsaslanan bu kursu regionun gələcək inkişaf modelinin müəyyənləşməsində həlledici faktor olaraq”.

Beləliklə, Azərbaycan–İran münasibətləri artıq lokal çərçivədən çıxaraq regional miqyasda sabitliyin və iqtisadi tərəqqinin qarantına çevrilib. Bakıda keçirilən Azərbaycan–İran iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası müştərək komissiyanın 17-ci iclası və aparılan müzakirələr göstərir ki, hər iki dövlət qarşılıqlı maraqların uzlaşdırılması və konkret nəticələrə söykənən əməkdaşlıq modelinə sadiqdir. Azərbaycan öz balanslaşdırılmış xarici siyasət kursu çərçivəsində qonşu dövlətlərlə qarşılıqlı faydalı əlaqələri prioritet hesab edir və İranla münasibətlərin yüksələn xətlə inkişafı bu strateji kursun uğurlu təzahürüdür. Birgə həyata keçirilən nəqliyyat və enerji layihələri gələcək nəsillər üçün firavanlıq və tərəfdaşlıq mirası qoyaraq, regionu qlobal iqtisadiyyatın ən mühüm qovşaqlarından birinə çevirir. Azərbaycan və İran arasındakı bu yaxınlaşma yalnız iqtisadi dividend xarakteri daşımır, eyni zamanda, regionun geosiyasi dayanıqlığının təmin olunmasında strateji sütun rolunu oynayır.

***P.ƏFƏNDİ***
***XQ***

# Hərbi, iqtisadi və siyasi qovuşma

*(əvvəli 1-ci səhifədə)*

Yaxın Şərq regionunda alovlanan və qanla yazılan qarşıdurmalar bütün planetin ən mühüm narahatlıq nöqtəsinə çevrilmiş vəziyyətdədir. İki dövlət nümayəndəsinin vacib telefon dialoqunda kəskin eskalasiya meyllərinə xüsusi yer ayrılması olduqca düzgün atılmış həlledici gediş sayılmalıdır. Adıçəkilən ərazidə cərəyan edən silahlı toqquşmalar dar çərçivələri sürətlə yararaq ətraf regionlara dağıdıcı dalğalar yaymaq potensialına malikdir. Azərbaycan, həmçinin Pakistan kimi aparıcı ölkələr ağır destablizasiya risklərinə qarşı ortaq cəbhədən yanaşaraq ehtimal edilən hərbi sarsıntıların qarşısını almaq üçün çoxsaylı qabaqlayıcı aksiyalar şəbəkəsi işləyib hazırlayırlar.

Fevral ayında Vaşinqton mərkəzində reallaşan Sülh Şurasının ilk iclasından törəyən məsələlərin Ceyhun Bayramov və Pakistanın müvafiq rəsmisi tərəfindən geniş şəkildə müzakirəyə çıxarılması beynəlxalq proseslərin ümumi axınında mərkəzi yer tutur. Amerikanın paytaxtında təşkil edilən tarixi sammit qlobal qüvvələrin fəaliyyətini sülh arxitekturasında tənzimləmək missiyası daşıyır. Azərbaycanın sammitdə ən ali ranqda iştirak etməsi qeyri-sabit Qafqaz zonasında rəsmi Bakının dominant xarakterini nümayiş etdirməklə yanaşı, beynəlxalq həmrəylik proseslərində adil moderator statusunu tam şəkildə rəsmiləşdirir. Mövcud şurada irəli sürülən təməl strategiyalar gələcək illərdə beynəlxalq ziddiyyətlərin həll edilməsi üçün təzə diplomatik alətlər yaradacaq. Vaşinqtonda keçirilən vacib müzakirələrdən dərhal sonra Pakistan xarici idarəsi rəhbərinin həmkarı ilə əlaqə saxlaması İslamabad üçün həmin qaydaların olduqca mühüm əhəmiyyət daşıdığını təsdiqləyir. Təmaslar sayəsində iki dost ölkənin ehtimal olunan münaqişələrdə koordinasiyalı addımlar atacağı mütləq şəkildə aydınlaşır. Sülh çağırışlarının daxilindəki dərin siyasi gedişləri dəqiq anlamaq lazımdır. Amerika administrasiyasının fəal iştirakı ilə reallaşan gedişlər Qafqazda əbədi sabitliyin konturlarını çəkir, həm də digər sadiq müttəfiq ölkələrin ehtimal olunan hücumlardan qorunmasını gücləndirir.

* * *

İki əbədi qardaş respublikanın qlobal terrorizmə, destruktiv separatizm cərəyanlarına, habelə radikal ekstremizm elementlərinə qarşı mütəşəkkil cəbhədən mübarizə aparması geniş ərazidə daimi təhlükəsizliyin qarantı statusunu möhkəm tutacaq. Cənubi Qafqazda Ermənistan rəhbərliyinin əsassız şəkildə silahlandırılması, revanşist xülyalara düşərək sabitliyi pozmaq istəkləri qarşısında yaradılan müttəfiqlik əlaqələri aqressiv niyyətli dövlətlərə verilən ən sərt cavabdır. İslamabadın beynəlxalq miqyasda qətiyyətli formada daim rəsmi Bakının tarixi ərazi bütövlüyünü tərəddüdsüz dəstəkləməsi inkaredilməz nailiyyətlər sırasındadır. Mükəmməl sadiqlik faktları dəstək zəncirinin zəifləməz xarakter daşıdığını təsdiq edir. Qarşılıqlı addım olaraq Azərbaycanın Kəşmir məsələsində ədalətli nizamı, haqqın dərhal qorunmasını qəti addımlarla fəal təbliğ etməsi tərəfdaşlıq etibarının zirvəsidir. Beləliklə, qanunların təməl prinsipləri ortaq güc vasitəsilə bərpa olunacaq.



Diplomatik danışıqların məntiqi nəticəsi qismində hər iki tərəfin infrastruktur xətlərinin vahid iqtisadi mexanizm halında qovuşdurulması qaçılmaz xarakter daşıyır. Asiya materiki ilə Avropa zonasını əlaqələndirən mühüm nəqliyyat marşrutları hazırda intensiv irəliləyiş fazasında qərarlaşır. Pakistan tərəfinin beynəlxalq Çin dəhlizi layihəsi ilə qlobal ticarət magistrallarına nəzarət edən əsas tranzit dövlətlər qrupuna daxil olması inkaredilməz aksiomdur. Rəsmi Bakı isə möhtəşəm Orta Dəhliz tranzit layihəsinin əsas mühərrik qüvvəsi statusunda, Qərb ilə Şərq, habelə Şimal ilə Cənub qovşaqlarının dəqiq mərkəzində ucalır. Sadalanan faktorların işığında, ikili ticarət marşrutlarının sinxron fəaliyyətə daxil olması logistik xərclərin kəskin şəkildə aşağı düşməsinə, irihəcmli yüklərin mənzilbaşına sürətlə çatdırılmasına ideal şərait yaradacaq. Zəngəzur dəhlizinin açılaraq tam aktiv fəaliyyətə keçməsi sayəsində Pakistan iqtisadiyyatının məhsullarının Türkiyə üzərindən Avropa bazarlarına çıxış qazanması üçün unikal pəncərə formalaşacaq. Məhz fəal məsləhətləşmələrin davamında sərhədlərin aktiv şəkildə ticarətə uyğunlaşdırılması, lüzumsuz tranzit maneələrinin qəti olaraq aradan götürülməsi qlobal əhəmiyyətli gedişlər olacaq.

Siyasi münasibətlərin yalnız rəsmi dəhlizlərdə, qapalı iclas salonlarında məhdudlaşması kifayət sayılmır. Qabaqcıl tərəfdaşlıq əlaqələri cəmiyyətlərin ictimai həyatına, intellektual inkişaf sferasına möhkəm köklərlə nüfuz etməlidir. Yüksək çinli diplomatların danışıqlarında toxunulan mövzuların yeni mərhələyə keçəcəyi digər mühüm fəaliyyət istiqaməti məhz elm, təhsil, habelə informasiya təhlükəsizliyi olacaq. Hazırkı rəqəmsal erada kibertəhlükəsizlik dövlətlərin milli müdafiə konsepsiyasının ayrılmaz elementidir. İnformasiya məkanında baş verən intensiv hibrid hücumlar, kütləvi manipulyasiya cəhdləri qarşısında iki qardaş dövlətin kibermüdafiə sahəsində mütəşəkkil proqramlar həyata keçirməsi mütləq şərtdir. Gələcək aylar ərzində informasiya mütəxəssislərinin iştirakı ilə ortaq kiber poliqonların yaradılması, milli serverlərin qorunması məqsədilə innovativ proqram təminatlarının ərsəyə gətirilməsi yüksək ehtimalla proqnozlaşdırılır. Ali təhsil ocaqları, nüfuzlu universitetlər arasında mübadilə təşəbbüslərinin, ortaq tədqiqat qruplarının, texnoparkların təsisi fundamental nailiyyətlər siyahısına əlavə ediləcək.

* * *

Münaqişə ocaqlarında tərəflərin barışmaz mövqeyi davamlı olaraq qlobal nizamı sarsıdır. Hər iki paytaxt yaxşı dərk edir ki, Fələstin problemi, ümumilikdə ərəb coğrafiyasındakı dağıdıcı xaos dinc danışıqlar masasında, sivil beynəlxalq hüquq normaları çərçivəsində tənzimlənməlidir. Regional sabitliyin təmini üçün ədalətli qərarların çıxarılması, kənar qüvvələrin neokolonial siyasətinin ləğv edilməsi mütləqdir. Bakı beynəlxalq qoşulmama hərəkatına verdiyi tarixi töhfələrlə sülhün tərəfdarı kimi çıxış edərək tərəfləri dialoqa çağırır. Pakistan isə regionda geniş çəkiyə malik aktiv tərəf qismində həlledici danışıqlar prosesində effektiv platforma rolunu oynamaq iqtidarındadır. Dinamik dəyişikliklər onu göstərir ki, tərəflərin sıx koordinasiyası Yaxın Şərqdə barışın yaranması üçün güclü mexanizm təklif edəcək. Şərqlə Qərbin kəsişməsində, olduqca həssas yarımadalar qrupunda yerləşən ölkələr kimi gərginliyin artması onlara yolverilməz hesab edilir. Gələcəkdə Yaxın Şərq sülh platformalarında Azərbaycan rəsmiləri ilə yanaşı Pakistan tərəfinin aktiv diplomatik iştirakı proqnozlaşdırılır. Müştərək çağırışlar, müştərək bəyannamələr qan tökülməsinin qarşısını alan qüvvətli səddə çevriləcək. Belə tarixi nailiyyət diplomatiya elminin zirvə nöqtəsi sayılacaq.

İki rəsmi şəxsin strateji xəritə üzərindəki qlobal proyeksiya radiusunu təsəvvür etdikdə olduqca nəhəng, qüdrətli fəaliyyət mexanizminin reallığa çevrildiyinin şahidi oluruq. Dövlət başçısının inamlı liderliyi ilə həyata keçirilən xarici siyasət kursu bütün dünya tərəfindən böyük rəğbətlə, eyni zamanda, dərin hörmətlə qarşılanır. Sülh Şurasındakı mərkəzi mövqe diplomatik ağılın möhtəşəm təntənəsidir. İslamabad ölkəmizin təntənəsini Asiya coğrafiyasında daim müdafiə edən sədaqətli, polad iradəli dayağıdır. Yaradılan siyasi arxitektura iki xalqın işıqlı, parlaq gələcəyini əbədi təmin edəcək mükəmməl nizamın aydın göstəricisidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Replika*

# Haysayağı məhşər

**Daşnak–kilsə didişməsini haylar üçün məhz sonun başlanğıcı – məhşər əlaməti kimi dəyərləndirmək olar. İndi bu sualı necə verməyək: bunların hansı daha çox ikiüzlüdür? "Daşnaksütyun", yoxsa kilsə? Cavabın kim tərəfindən verilməsi sualın özündən daha böyük maraq kəsb edir.**



***İ.HƏSƏNQALA***
***XQ***

"Bilməyənlər üçün deyim ki, Kilikiya Katolikosluğu birbaşa "Daşnaksütyun"un nəzarəti və təsiri altındadır. Antilias və Eçmiədzin onilliklərdir ki, diasporun təsirlərini genişləndirmək uğrunda müharibə aparırlar. Bu mübarizə söz savaşı, müxtəlif ölkələrin hökumətlərinə bir-birindən şikayətlər, kilsə binalarının və ərazilərinin əldən-ələ keçməsi, dindarların şirnikləndirilməsi ilə müşayiət olunur. 1990-cı ildən bu yana iki mərkəzi birləşdirərək vahid kilsə yaratmaq cəhdləri edilirdi. Amma daşnaklar bunun qarşısını almaq üçün əllərindən gələni etdilər. İndi də kilsəni millətin satqınlarından xilas etmək üçün Ktriç Nersisyana gəliblər".

Həqiqətən də, bu, ikiüzlülüyün müstəsna nümunəsidir. Bu nümunəni isə oxucuların diqqətinə Ermənistan Baş nazirinin aparat rəhbəri Arayik Arutyunyan çatdırıb. Aparat rəsmisi demək istəyib ki, daşnakları və kilsəni milli məsələlələr deyil, əmlak, var-dövlət, pul maraqlandırırmış. Ağıllı sözə nə deyəsən? Bəli, artıq dövran dəyişib, Ermənistanda formalaşmaqda olan yeni nəsil əvvəlkilər kimi radikal millətçi ideyalara o qədər də meyilli deyil. Əksinə, onlar Avropa dəyərlərinə və dünya ilə inteqrasiyaya üstünlük verirlər. Xüsusilə gənclər arasında kilsənin çağırışlarına laqeyd yanaşanların sayı artır. Əhalinin böyük bir hissəsi müharibənin Ermənistana vurduğu ziyanı anlayır və yeni hərbi avantüraların fəlakətli nəticələr doğuracağını bilir. Bu isə o deməkdir



ki, kilsənin və "Daşnaksütyun"un birlikdə həyata keçirmək istədiyi revanşist planlar geniş ictimai dəstək tapa bilməz.

Bu gün Ermənistanda Eçmiəzdin kilsəsinin nüfuzu əvvəlki səviyyəsində qalmayıb. Əsas səbəb Paşinyanın Hayastanda dünyəvi idarəçilik forması qurmağa çalışması və kilsənin hegemonluğunu zəiflətmək cəhdləridir. Paşinyan komandası kilsənin siyasi proseslərə müdaxiləsinin qarşısını xeyli aldı və bu, kilsə ilə hökumət arasında qarşıdurma yaratdı. Amma kilsənin nüfuzuna ən böyük zərbəni 44 günlük müharibə vurdu. Müharibələrdən, siyasi qeyri-sabitlikdən, iqtisadi çətinliklərdən bezmiş xalq üçün revanşist çağırışlar, sadəcə, ürək bulandıran ritorikadan ibarətdir. Məhz buna görə Eçmiəzdin və daşnakların cəhdləri, əslində, Ermənistanın gələcəyi üçün yaxşı heç nə vəd etməyən məğlubiyyət ritorikasının davamıdır.

Məlumdur ki, qriqorian kilsəsinin erməni cəmiyyəti üzərində hakimiyyətini XIX əsrdə "Hnçaq", "Daşnaksütyun" kimi millətçi təşkilatlar "qurublar". Amma kilsənin bu gün də cəmiyyət və dövlət üzərində təsirini saxlamaq cəhdləri səmərə vermir. Çünki kilsə və onu dəstəkləyən daşnaklar iqtidardakı liberal cinahla toqquşmada uduzmağa məhkumdur. Ən azı ona görə ki, erməni millətçiliyi və kilsənin yönəltdiyi siyasi hakimiyyət ölkəyə heç nə qazandıra bilməyib. Doğrudur, kilsə və daşnaklar Paşinyana qarşı nəzəri cəhətdən vahid cəbhədə birləşə bilərlər. Təbii ki, onların Paşinyana qarşı əsas "silahı" Azərbaycanla müharibə və Qarabağ mövzusudur.

Bəli, müharibə mövzusu həmişə kilsənin əlində silah olub. Aydın məsələdir ki, müharibədə məğlub olmuş cəmiyyətin içərisində revanşist düşüncəli təbəqə ola bilər. İntəhası, indiki durumda nə revanşistlərin, nə də daşnak–kilsə ittifaqının xəyallarının gerçəkləşəcəyini demək olar. Kilsə və millətçilər isə müharibələrdə və bulanıq dövrlərdə "uğur" qazanmağa ümid edirlər. Yalnız Azərbaycanla münasibətlərdə yaranacaq gərginlik kilsəyə və daşnaklara yeni nəfəs verə bilər ki, bu da cəmiyyətlərin bir-birinə yaxınlaşması prosesinin başlandığı indiki məqamda mümkünsüzdür.

Nə yazıq ki, erməni cəmiyyət iki əsrdir ki, daşnakların və kilsənin uydurduğu miflərə inanıb. Amma məqamı yetişəndə, həmin miflər gerçəkliklə üzləşəndə çilik-çilik oldular. Kilsə-daşnak "cütlüyü" üçün sonun başlanğıcının – apokalipsisin bütün əlamətləri göz qabağındadır. 44 günlük müharibənin, 23 saatlıq antiterror əməliyyatının dərsləri yalnız hökumətə deyil, eyni zamanda, erməni kilsəsinə və onun təbliğ etdiyi ideoloji narrativlərə inamı sarsıtdı. Artıq erməni cəmiyyətinin böyük bir hissəsi o ritorikaya etibar etmir.

# Azərbaycan–Yaponiya əlaqələrində çoxyönlü hədəflər

## *Təhlükəsizlik və sülh təşəbbüslərində qarşılıqlı əməkdaşlıq güclənir*

**Son dövrlər Asiya ölkələrinin Cənubi Qafqaza, xüsusilə Azərbaycana olan marağı artıb. Onlar Bakı ilə əməkdaşlığı yüksək qiymətləndirirlər. Bu xüsusda Yaponiyanın Azərbaycanla əlaqələri genişləndirmək niyyəti aydın şəkildə özünü büruzə verir. Bir neçə gün öncə Yaponiya İmperatorunun doğum günü münasibətilə keçirilən tədbirdə ölkənin Azərbaycandakı səfiri Katsuya Vatanabe bildirib ki, ötən üç onillik ərzində Azərbaycan ilə Yaponiya arasında dostluq münasibətlərinin tarixinə nəzər saldıqda, bu əlaqələrin davamlı inkişafını görürük: "Əməkdaşlığımız siyasət, iqtisadiyyat, mədəniyyət və təhsil də daxil olmaqla, geniş sahələri əhatə edib. Xalqlarımız arasında birbaşa mübadilələr və ölkələrimiz arasında fəal əməkdaşlıq bu gün paylaşdığımız dərin bağların möhkəmlənməsində mühüm rol oynayıb". Səfir, həmçinin qeyd edib ki, 2025-ci il Cənubi Qafqaz regionu, o cümlədən Azərbaycan üçün həqiqətən də tarixi bir il oldu: "Avqustun 8-də Vaşinqtonda sülhün əldə olunmasına yönəlmiş Birgə Bəyannamə imzalandı. Yaponiya regionda davamlı sülh və sabitliyə doğru atılmış bu mühüm addımı alqışlayır".**



Xatırladaq ki, Yaponiya Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən olub. Son otuz ildə qarşılıqlı hörmət, beynəlxalq hüquqa sadiqlik və çoxtərəfli əməkdaşlıq prinsipləri üzərində qurulan münasibətlər ardıcıl şəkildə inkişaf edib. 2016–2026-cı illər mərhələsi isə əlaqələrin keyfiyyətcə yeni mərhələyə keçidi ilə səciyyələnir. Həmin dövrdə yüksək səviyyəli səfərlər, imzalanmış sənədlər, yaşıl enerji sahəsində təşəbbüslər, həmçinin humanitar mübadilənin genişlənməsi münasibətlərin daha dərin və çoxşaxəli xarakter aldığını göstərir. Siyasi münasibətlər isə müstəqilliyin ilk illərindən etibarən sistemli şəkildə qurulub. 1998-ci ildə ümummilli lider Heydər Əliyevin Yaponiyaya səfəri əlaqələrin strateji çərçivəsini müəyyənləşdirdi, 2006-cı ildə Prezident İlham Əliyevin Tokioda keçirdiyi rəsmi görüşlər siyasi dialoqu daha da möhkəmləndirdi. Həmin dövrdən etibarən iki ölkə arasında siyasi məsləhətləşmələr mexanizmi müntəzəm xarakter aldı və xarici işlər nazirlikləri səviyyəsində davamlı təmaslar quruldu.

Son illər aparılan siyasi məsləhətləşmələrdə təhlükəsizlik məsələləri xüsusi diqqət mərkəzindədir. Hələ İkinci Qarabağ müharibəsi zamanı Yaponiya Xarici İşlər Nazirliyi münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında sülh yolu ilə həllinə çağırış etmiş, tərəfləri atəşkəsə və dialoqa səsləmişdi. Rəsmi Tokionun bu mövqeyi regionda sabitliyin bərqərar olunmasına verdiyi önəmi əks etdirir. Postmünaqişə dövründə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri, infrastrukturun yenidən qurulması və minalardan təmizləmə sahəsində beynəlxalq əməkdaşlıq məsələləri siyasi gündəliyin əsas istiqamətlərindən birinə çevrilib. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən "yaşıl enerji zonası" konsepsiyası çərçivəsində Yaponiyanın texniki təcrübəsindən istifadə olunur.

Bakı–Tbilisi–Ceyhan neft kəməri regionun enerji xəritəsini dəyişdirən layihə kimi Tokio tərəfindən dəstəklənib. Ənənəvi neft-qaz əməkdaşlığı ilə yanaşı, enerji səmərəliliyi və rəqəmsallaşdırma sahələrinə də diqqət yetirilir. Bu çərçivədə "Yokogawa Electric" ilə imzalanmış sənədlər emissiyaların azaldılması və istehsal proseslərinin optimallaşdırılması istiqamətində yeni mərhələ açır. Rəqəmsal idarəetmə sistemlərinin tətbiqi və dekarbonizasiya layihələri Azərbaycanın enerji sektorunda modernləşməni sürətləndirir.

Yeri gəlmişkən, Yaponiyanın Türk Dövlətləri Təşkilatına (TDT) artan marağı da gözardı edilməməlidir. Şübhəsiz ki, bu maraq həm geosiyasi, həm iqtisadi, həm də nəqliyyat-logistika reallıqları ilə bağlıdır. Avrasiya məkanında yeni güc balansının formalaşması, Orta Dəhlizin strateji əhəmiyyətinin yüksəlməsi və enerji təhlükəsizliyi məsələləri Tokionun Mərkəzi Asiya və Cənubi Qafqaza yanaşmasını yenidən qiymətləndirməsinə səbəb olub. Bu kontekstdə TDT platforması Yaponiya üçün region ölkələri ilə sistemli və çoxtərəfli əməkdaşlıq imkanı yaradır. Azərbaycan bu kontekstdə xüsusi rol oynayır. Cənubi Qafqazda yerləşən və TDT-nin fəal üzvü olan ölkəmiz həm nəqliyyat-logistika qovşağı, həm enerji təchizatçısı, həm də diplomatik körpü funksiyasını yerinə yetirir. Bakı ilə Tokio arasında formalaşmış strateji dialoq Yaponiyanın TDT-yə marağının praktik ölçülərini artırır. Çünki Azərbaycan vasitəsilə Yaponiya təşkilatın digər üzvləri ilə koordinasiyalı layihələr həyata keçirmək imkanına malikdir. Tokio bu platformanı regionla əlaqələrin sistemləşdirilməsi üçün perspektivli mexanizm kimi də qiymətləndirir.

***Nəzrin ELDARQIZI***
***XQ***

*Ekspert rəyi*

**Yusif BAĞIRZADƏ,**
**politoloq**



Yaponiyanın Türk dövlətlərinə, xüsusilə də Azərbaycana olan marağının nəzərəçarpacaq dərəcədə artdığı faktdır. Bu inkişaf həm Azərbaycanın regional rolunu gücləndirir, həm də Yaponiyanın strateji və iqtisadi maraqlarını təmin edir. Azərbaycan üçün Yaponiya ilə münasibətlərin genişləndirilməsi bir neçə sahədə dividendlər vəd edir. Birincisi, enerji sektoru – Azərbaycan Yaponiya üçün etibarlı və strateji tərəfdaşdır. Xüsusilə neft və qaz resursları, habelə gələcəkdə bərpaolunan enerji sahələri üzrə birgə layihələr iki ölkə üçün həm iqtisadi, həm də geosiyasi əhəmiyyət kəsb edir. Yaponiya şirkətləri Azərbaycanın işğaldan azad olunmuş ərazilərində enerji və infrastruktur layihələrində iştirak etməklə yalnız investisiya yönümlü fəaliyyət göstərmir, həm də iqtisadiyyatın modernləşdirilməsi və dayanıqlı inkişafına töhfə verirlər.

İkinci sahə texnologiya və "ağıllı şəhər" layihələridir. Yaponiya dünyanın qabaqcıl texnologiya ölkəsi olaraq Azərbaycana "yaşıl enerji", ağıllı infrastruktur və urbanizasiya sahələrində praktik bilik və təcrübə gətirə bilər. Turizm və mədəni sahələr də əhəmiyyətlidir. Yapon turistlərinin Azərbaycana axını, mədəni tədbirlər və xalqlararası mübadilə proqramları iki ölkə arasındakı ictimai diplomatiyanı gücləndirir. Bu sahələrdə əməkdaşlıq həm Azərbaycan, həm də Yaponiya üçün uzunmüddətli qarşılıqlı fayda təmin edir.

Tokionun Türk Dövlətləri Təşkilatı ilə əlaqələri genişləndirməkdə maraqlı olduğu da ortadadır. Bu yaxınlaşma TDT-yə üzv dövlətlər üçün iqtisadi və texnoloji faydalar gətirə bilər. Yaponiya həm investisiya imkanlarını, həm də inkişaf etmiş texnologiyalarını regionla paylaşa bilər. Hətta gələcəkdə Yaponiyanın TDT-yə rəsmi tərəfdaş və ya dialoq tərəfdaşı statusunda qoşulması da mümkündür. Bu isə təbii olaraq təşkilatın qlobal inteqrasiya imkanlarını artıra, üzv dövlətlər üçün yeni əməkdaşlıq perspektivləri yarada bilər. Ümumiyyətlə, Yaponiya–TDT dialoqu və gələcək tərəfdaşlıq imkanları regional inteqrasiyanın yeni səviyyəsinə yol aça bilər. Bu Türk dövlətləri ilə yanaşı, Yaponiya üçün də yeni imkanlar deməkdir. Proses həm Azərbaycana, həm digər TDT üzv dövlətlərinə, həm də Yaponiyaya qarşılıqlı etimadı gücləndirmək və strateji tərəfdaşlığı daha dayanıqlı etmək baxımından böyük fayda gətirə bilər.

# Gözlənilməz ssenarilər



## III MƏQALƏ

### Strateji münasibətlər

Regional sabitlik, əməkdaşlıq və təhlükəsizlik arxitekturası elə bir sistemdir ki, məqsədyönlü fəaliyyət şəbəkəsinin yaradılmasını tələb edir. Bura ilk növbədə dövlətlərarası münasibətlərin əhatə dairəsinin regional miqyası aşaraq regionlararası səviyyədə güc parametrinə çevrilməsi daxildir. Bu miqyasda kompleks halda "Əliyev kriteriyaları"nın çox güclü səmərəverici faktor olduğu artıq təcrübədən keçmişdir.

Güc parametri kimi regionlararası mühitdə onun başlıca əlaməti və ya "kod"u dövlətlərarası münasibətlər platformalarının cəm halında ortaq strateji maraqlara xidmət etməsindən ibarətdir. 2003-cü ildən bu yana həmin istiqamətdə Azərbaycan Prezidentinin təşəbbüsü ilə formalaşan dövlətlərarası münasibətlər platformalarına baxaq.

Onların mərkəzində Şuşa Bəyannaməsi dayanır. Bu sənəd Avrasiya tarixində ilk dəfə olaraq etnik, mədəni, dini, dil eyniliyi olan və buna görə qardaş sayılan iki ölkənin müstəqil dövlət kimi münasibətlərinin beynəlxalq hüquq çərçivəsində tənzimlənməsi nümunəsidir. Azərbaycan və Türkiyə öz tarixlərində də ilk dəfə müstəqil dövlətlər kimi strateji müttəfiqliyin siyasi-hüquqi özəlliklərini ehtiva edən rəsmi sənəd imzalamışlar.

Onun əhəmiyyəti həm də ondan ibarətdir ki, iki qardaş dövlət bütün dünyaya konkret siyasi-diplomatik mesaj verir: qardaş dövlətlər öz aralarında münasibətləri beynəlxalq hüquq normaları və BMT Nizamnaməsinin müəyyən etdiyi şərtlərə uyğun inkişaf etdirməkdə qərarlıdırlar!

Buradan avtomatik olaraq çox önəmli nəticə çıxır: Azərbaycan və Türkiyə istənilən başqa dövlətlərlə münasibətlərini yalnız və yalnız hüquqilik, ədalətlilik və qarşılıqlı faydalı əməkdaşlıq fəlsəfəsi çərçivəsində quracaqlar. Əgər iki qardaş dövlət bir-birilərinə bundan kənarda münasibət göstərməmək öhdəliyini üzərlərinə götürür və ona tam əməl edirlərsə, başqa kimsənin ondan kənarda nələrsə tələb etməsi qəbuledilməzdir!

Bu, strateji müttəfiqliyin siyasi münasibətlər kontekstində qurulmasının "Əliyev kriteriyası"nın çox əhəmiyyətli özəlliyidir. Onun təbiiliyi, əsaslığı, ədalətliliyi və faydalılığı Azərbaycanın təşəbbüs etdiyi başqa strateji sənədlərdə də öz əksini tapmışdır. Rusiya ilə imzalanan strateji müttəfiqlik sənədi də bu qəbildəndir.

Həmin sənəddəki müddəalarla Şuşa Bəyannaməsinin ana tezisləri üst-üstə düşür. Əməkdaşlıq, təhlükəsizlik və əlaqələrin inkişafı xətti eyni dərəcədə həmin sənəddə ifadə edilmişdir. Buna görə də Rusiya tərəfinin o çərçivədən hər hansı formada kənara çıxmaq cəhdləri bəri başdan uğursuzluqdur. Bura digər məqamlarla yanaşı, dolayı da olsa, Azərbaycana birtərəfli qaydada hansısa şərti qəbul etdirmək cəhdlərinin perspektivsizliyi daxildir.

Məlum təyyarə qəzası məsələsi bunu bir daha təsdiq etdi. Rəsmi Moskva bütün cidd-cəhdlərinə baxmayaraq, strateji müttəfiqlikdə üzərinə götürdüyü öhdəlik çərçivəsində Azərbaycanın daxili işlərinə qarışmamaq, şəffaf olmaq və dövlətçiliyə hörmət etmək şərtlərinin yaratdığı "hüquqi divara çırpıldı".

Azərbaycan–İran münasibətlərinin konstruktiv məcraya yönəldilməsi rəsmi Bakının regional siyasətində ayrıca dinamikası olan prosesdir. Burada nə dərəcədə ziddiyyətlərin olduğu hamıya məlumdur. II Qarabağ müharibəsi zamanı rəsmi Tehranın Ermənistanı əməldə dəstəkləməsinin faktları vardır. Hətta bizim sərhədlər yaxınlığında keçirdikləri hərbi təlimləri unutmamışıq. Böyük Qələbədən sonra rəsmi Tehranın yenə də təcavüzkara yardımları və siyasi-diplomatik dəstəyini xatırlamağa dəyər. Səfirliyimizdə törədilən məlum terror aktı faktdır.

Lakin Azərbaycan rəhbərliyyinin təmkinli, əsl qonşu və qardaş mövqeyi bu istiqamətdə də tədricən öz müsbət bəhrəsini verməkdədir. Ədalət naminə deməliyik ki, İranın indiki prezidenti M.Pezeşkian da iki qardaş dövlət arasındakı münasibətlərə kifayət qədər həssaslıqla yanaşır. İndi proqnozlaşdırmaq olar ki, bu cür gedişat müəyyən zamandan sonra Azərbaycan Respublikası-İran münasibətlərini layiq olduğu səviyyəyə yüksəldəcək.

İranla münasibətlərin vurğulanan dinamikası Prezident İlham Əliyevin Türkiyə ilə yanaşı, başqa bir qonşu və qardaş dövlət istiqamətində həyata keçirdiyi siyasətdə strateji anlamı olan diplomatik addımlarının mahiyyətini açmağa imkan verir. Bu məqamın özəl siyasi anlamı vardır. Onun üzərində bir qədər geniş dayanaq.

### İki qardaş, bir strategiya

Azərbaycan Respublikası keçən əsrin 90-cı illərinin əvvəllərindən müstəqillik əldə edəndən bizim üçün iki qardaş dövlətlər olan Türkiyə və İranın Azərbaycan siyasəti kəskin fərqlənmişdir. Türkiyə siyasi-diplomatik və hərbi-müdafiə, iqtisadiyyat, energetik layihələr sferalarında Azərbaycanı yaxından dəstəkləmişdir. Müstəqil dövlətçiliyimizə hərtərəfli yardımlar etmişdir. Hərçənd qardaş Ankaranın müstəqil dövlətlərin qardaşlığınını siyasi, geosiyasi və hüquqi anlamlarında müəyyən düzəlişlərə ehtiyacı vardı. Ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" formulu məsələnin bu aspektinə də dəqiqlik və aydınlıq gətirdi. İndi Azərbaycan–Türkiyə münasibətlərinin qardaşlıq aspektində dünyada tayı-bərabəri yoxdur.

Təəssüf ki, İranla qardaşlıq və qonşuluq kontekstində münasibətlərimiz tamamilə fərqli məcrada olmuşdur. İran da Türkiyə qədər Azərbaycana qardaş cəmiyyət, dövlət və mədəniyyət məkanıdır. Hətta Səfəvi obrazında bu faktın daha dərin qatları vardır. Lakin rəsmi Tehran (İran cəmiyyəti demirik) uzun müddət inadkarcasına Azərbaycanın müstəqilliyinə əməldə tərs mövqe tutmuşdur. Azərbaycanı ölkə və dövlət kimi aşağılamaq cəhdləri, yuxarıdan aşağı baxmaqla "sizi əzərik" kimi əsassız bağırtıları, dini məzhəbçiliyi radikal formada Azərbaycan Respublikası cəmiyyətinə sırımaq addımları, müxtəlif gizli hücrələr yaradıb azərbaycanlılar arasında məzhəbçilik əsasında ayrı-seçkilik salmaq çalışmaları və digər mənfi hallar sirr deyildir.

Ancaq bütün bunlar Azərbaycan rəhbərliyinin yenilməz iradəsi, Azərbaycan xalqının İran cəmiyyətinə qardaş kimi sarsılmaz münasibəti və İslam dininin böyük birləşdirici potensialı qarşısında aciz oldu. İndi Azərbaycan cəmiyyəti daha böyük anlamda İran cəmiyyətini qardaş kimi hiss edir və bunun inkişaf edəcəyi şübhəsizdir. Prezidentlər İlham Əliyev və Məsud Pezeşkian əsrlərdir qardaş olan iki dövləti müasir beynəlxalq hüquq və mehriban qonşuluq müstəvilərində layiq olduqları səviyyəyə yüksəldəcəklər.

Buradan alınır ki, etnik-mədəni qardaşlıq özlüyündə hələ dövlət səviyyəsində "qardaşlığın" avtomatik təmini demək deyildir. Bunun üçün konkret siyasi kurs və onun reallaşmasının dəqiq prinsipləri olmalıdır. Məhz Azərbaycan həm Türkiyə, həm də İranla siyasi və dövləti aspektlərdə qardaşlığın hüquqi, ədalətli və perspektivli formullarının tapılmasını motivasiya etmişdir. Bu istiqamətdə "Əliyev kriteriyası" müasir siyasi-diplomatik təcrübədə unikal nümunədir!

### Təcavüzkarın ram edilməsi

"Əliyev kriteriyaları"nın siyasi və geosiyasi özəllikləri bunlarla məhdudlaşmır. Ermənistanın "ram edilməsi" prosesi real olaraq başqa bir möhtəşəm sülhyaratma aktıdır. Bu, mahiyyətcə, Azərbaycanın əsrlərlə regionda hakim olan və qərəzli məzmuna malik geosiyasi mühiti dəyişdirməsi hadisəsidir. Uzun sürən işğal prosesini Bakı həm dayandırdı, həm də onun "qurucu oyunçuları"nı hərb və informasiya meydanında məğlub etdi.

Təbii ki, burada siyasi-diplomatik və hərbi məharət əsas rol oynadı. Azərbaycan həm də elə bir nümunə göstərdi ki, hərbi qələbədən sonra da rəqiblər əldə etdiyimiz nailiyyətləri arxa plana ata bilmədilər. Bununla "Əliyev kriteriyaları" müharibə dövrü ilə postmüharibə mərhələsini vahid sülhyaratma məntiqində birləşdirə bildi. 2025-ci il Vaşinqton görüşü birbaşa bu faktorun məntiqi nəticəsidir. Onun təməlində Prezident İlham Əliyevin sülhyaratma fəlsəfəsi və onun siyasi-diplomatik proyeksiyası dayanır.

Çünki Prezident İlham Əliyev Ermənistanla münasibətlərin normallaşması prosesində əməkdaşlıq layihələrinə geniş yer verməyə hazır olduğunu bəyan etdi. O cümlədən dünya üçün əhəmiyyətli olan Orta Dəhliz layihəsi çərçivəsində Zəngəzur dəhlizinin işləməsi sayəsində Ermənistanın da böyük qazanclar əldə edəcəyinə hər kəsi inandırdı. ABŞ Prezidenti Donald Trampın Azərbaycanla Ermənistan arasında sülhün yaradılması məsələsinə münasibəti vurğuladığımız həmin tezisin əsaslı olduğunu göstərən faktorlardan biridir.

Ermənistanın ram edilməsinin geniş anlamda qlobal miqyasda sülh prosesinə konkret töhfə verməsinin əyani nümunəsi kimi Azərbaycan və Ermənistan rəhbərlərinin Sülh Şurasına qurucu üzvlər kimi qəbul edilməsini göstərə bilərik. Əgər Azərbaycan hərb meydanında qalib gəlib, postmüharibə mərhələsində qətiyyətlə sülhyaradıcı mövqe tutmasaydı, indi Ermənistan Sülh Şurasının qapısına yaxın düşə bilməzdi.

Qonşu dövlətin ərazisinin bir qismini işğal etmiş bir ölkəni ən qatı havadarı belə Sülh Şurasına daxil edə bilməzdi. Deməli, İlham Əliyevin münaqişəni həll etmək strategiyası hətta rəqibi Ermənistan üçün geniş imkanlar yaratmışdır. Bu faktı indi rəsmi İrəvan nəinki inkar etmir, hətta növbəti addımlar üçün əsas sayır. O sırada son zamanlar müəyyən rəsmi dairələrin və ekspertlərin Ermənistanın Azərbaycan-Türkiyə enerji sisteminin bir parçası olmaq şansının mövcudluğundan danışması diqqətləri çəkir.

### "C6": vahid əməkdaşlıq məkanı

Mərkəzi Asiya istiqamətində böyük geosiyasi güclərin və müəyyən dövlətlər qrupunun son zamanlar daha aktiv fəaliyyət göstərdiyi məlumdur. Burada ABŞ, Çin, Rusiya, Türkiyə, İran və Hindistan öz maraqlarını təmin etməyə çalışırlar. Bu, regionda geosiyasi vəziyyəti çox gərginləşdirir.

Bunların fonunda Azərbaycan üçün Mərkəzi Asiya region olaraq iki aspektdə çox önəmlidir.

Birincisi, Türk Dövlətləri Təşkilatını (TDT) gücləndirib qlobal geosiyasətin əsas güclərindən birinə çevirmək istiqaməti.

İkincisi, "Bir qurşaq, bir yol" qlobal layihəsinin reallaşdırılmasının nəqliyyat-loqistika aspektində konstruktiv motivəedici rol oynamaq.

Hər iki istiqamətdə Prezident İlham Əliyev ciddi uğurlar əldə etmişdir. Mərkəzi Asiya dövlətlərinin başçıları Azərbaycan Respublikasını Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına daxil etmişlər. Bununla bağlı Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə prezident Şavkat Mirziyoyev bəyan etmişdir: "Biz Azərbaycan Respublikasının tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərarlar qəbul edirik. Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq. Bu, sözsüz ki, hər iki regionun strateji qarşılıqlı əlaqəsini və dayanıqlılığını gücləndirəcək".

Nəhayət, "Əliyev kriteriyaları"nın Azərbaycan-ABŞ strateji tərəfdaşlığının konkret fəaliyyət proqramı səviyyəsinə yüksəlməsinin başlıca aparıcı faktoru olması nəticəsində geniş bir geosiyasi məkanda - Avropa İttifaqı (Aİ), Yaxın Şərq ölkələri və Asiya miqyasında böyük dövlətlərin regionumuza münasibətlərinin yeni qüvvələr balansı fonunda fərqli məzmun alması ayrıca vurğulanmalıdır. Burada Prezident İlham Əliyevin fəaliyyəti sayəsində müasir geosiyasətdə qüvvələr balansının dəyişməsi kontekstində prinsipial konseptual və feili dəyişikliyin baş verdiyini görürük.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Azərbaycan Mətbuat Şurası son dövrlər informasiya məkanımızda çox vacib olan məsələyə nəzər salan açıqlama yayıb. Söhbət media subyektlərinin və jurnalistlərin sosial şəbəkələrdə bir-birinə qarşı duran tərəflərin, bir növ, alətinə çevrilməsindən gedir.**

# Media əyri güzgüyə çevrilməməlidir

## *Jurnalist qeybətcil sosial şəbəkə istifadəçisindən fərqlənmirsə...*

Əvvəla, onu deyək ki, bir vaxtlar jurnalistlərin siyasi proseslərdə alətə çevrilməsinin yolverilməzliyi vurğulanırdısa, hazırda onların ayrı-ayrı müğənnilərin, özlərini yaradıcılıq adamı kimi təqdim edən şəxslərin açıq təhqir və böhtan yarışmasında vasitəçi obrazı canlanır. Əlbəttə, buna vasitəçilik demək mümkündürsə.

Həqiqətən, xoşagəlməz durum var və əslində, MŞ-nin açıqlaması həmin durumun əyani təsviridir. Qurum bildirir: "Jurnalist və media orqanları bir-birinə qarşı duran tərəflərin sosial şəbəkələr vasitəsilə açıqladıqları məqamları işıqlandırarkən, məsələni şəxsi həyatın toxunulmazlığı prizmasından qiymətləndirməlidirlər. Həssas yanaşma və peşəkarlıq bunu tələb edir. Peşəkarlıq onu da tələb edir ki, mübahisə tərəflərinin şəxsi həyatlarının nə dərəcədə ictimai məzmun daşıdığı, onların belə bir statusda olub-olmadıqları müəyyənləşdirilsin".

Mətbuat Şurasının açıqlaması onu deməyə əsas verir ki, müasir informasiya mühitində jurnalistika yalnız məlumat ötürən mexanizm deyil, ictimai münasibətləri formalaşdıran normativ institutdur. Bu baxımdan media təmsilçilərinin, habelə informasiya yayıcılığı ilə məşğul olan digər şəxslərin fəaliyyəti cəmiyyətin mənafelərinin qorunmasına xidmət etməli, fərdi ədavətlərin və şəxsi mübahisələrin yayım platformasına çevrilməməlidir. Halbuki bir çox hallarda bunun əksini görürük. Problemin aktuallığını artıran isə sosial şəbəkələrin informasiya istehsalında dominant rol alması və medianın onların yaydıqları məzmunu sürətli şəkildə tirajlamasıdır.



Qeyd edək ki, media ilə bağlı nəzəriyyələrdə jurnalistikanın azadlıqla yanaşı, həm də ictimai öhdəlik daşıdığı vurğulayır. Bu, sosial məsuliyyət konsepsiyasından qaynaqlanır. Nəzərə almaq lazımdır ki, məhz azadlıq və məsuliyyət arasında tarazlıq medianın legitimliyinin, başqa sözlə desək, cəmiyyət tərəfindən qəbul olunmasının əsas şərtidir. Əgər media və jurnalistlər bu legitimliyə zidd addımlar atırlarsa, deməli, peşə prinsiplərinə laqeyd yanaşır. Əlbəttə, söhbət təkcə peşə etikasına laqeydlikdə deyil. Çünki belə bir durumun, bir çox hallarda, qanun pozuntusu təmayülü var.

Mətbuat Şurasının açıqlamasının digər aspekti onu deməyə əsas verir ki, hüquqi müstəvidə ifadə azadlığı ilə şəxsi həyatın qorunması arasında balans prinsipi mövcuddur. İctimai maraq yalnız o zaman üstün hüquqi əsas qazanır ki, birincisi, ictimai təhlükəsizlik və sağlamlıq məsələləri, ikincisi, ağır cinayət və korrupsiya faktlarının qarşısını almaq əzmi, üçüncüsü, vəzifədən sui-istifadə hallarına yol verməmək, dördüncüsü isə cəmiyyətin ciddi şəkildə yanlış istiqamətləndirilməsi riskləri ön planda dayansın. Şəxsi həyatın qorunması hüququnun üstünlüyü isə yalnız ictimai maraq sübut olunduqda məhdudlaşdırıla bilər. Əlbəttə, bunu müəyyənləşdirən – sübuta yetirən jurnalist peşəkarlığı və peşəkarlıqdan qaynaqlanan həssaslıqdır.

Media subyekti sosial şəbəkə istifadəçisindən fərqli olaraq, peşəkar məsuliyyət daşıyır və onun yaydığı informasiyanın nəticələrinə görə hüquqi cavabdehlik riski ilə üzləşmə faizi daha böyük olur. İndiki durumda məişət xarakterli şəxsi mübahisələrin geniş ictimai diskursa daşınması hüquqi baxımdan əsaslandırılmış ictimai maraq kateqoriyasına daxil deyil. Halbuki ayrı-ayrı media vasitələri elə yol tuturlar ki, sanki, məsələn, hansısa blogerin nazirlik əməkdaşı ilə gizli sevgi münasibətlərində olmasına dair fakt böyük ictimai məzmun daşıyır.

Hazırda Azərbaycan mediasında, böyük ölçüdə, belə demək mümkünsə, reaktiv yayım fenomenliyi əsas götürülür. Yəni sosial şəbəkələrdə yayılan emosional və qərəzli paylaşımlar mediada tirajlanır. Nəticədə jurnalistikanın fakt-analiz modelindən uzaqlaşması və sahənin reaksion platformaya çevirməsi yaşanır. Bu isə, öz növbəsində, qərəzin institsionallaşması riskini doğurur. Başqa sözlə desək, jurnalist və ya media orqanı şəxsi ədavətə əsaslanan paylaşımı olduğu kimi yayırsa, üstəlik, tərəflərdən birinin hiddətini göstərən motivi gücləndirirsə, deməli, həmin hiddətin də alətinə çevrilir.

Məsələn, media subyektləri haqqında söz açdığımız blogerin nazirlik əməkdaşı ilə bağlı video görüntüsündə adını çəkdiyi şəxslərin hər birinin fotolarını yaydı. Halbuki peşəkar jurnalist həmin şəxslərin adlarının açıqlanmasının sırf blogerin qəzəbinin məhsulu olduğunu və onların mövzuya heç bir aidiyyatının olmadığını hiss eməli və duymalı idi. Bu hissiyyatsızlıq və duyumsuzluq şəraitində medianın neytrallığı itdi.

Jurnalist və media orqanının fəaliyyətində cəmiyyətin maraq və mənafelərini nəzərə alması onun özünün hadisə və proseslərə, ümumən istənilən duruma etik yanaşması ilə ölçülən haldır. Məhz etik yanaşma ictimai motivin olub-olmadığını ortaya çıxaran vasitədir. Yəni jurnalist hər bilginin, yaxud paylaşımın arxasındakı ictimai məzmunu dəqiq bilməli, proporsionallığı qorumalıdır. Bu zaman isə bilginin, yaxun məlumatın təqdimat forması onun ictimai əhəmiyyəti ilə mütənasib olmalıdır. Tutalım, məişət söhbətləri və ya konfliktlərinin sensasiya olaraq təqdim edilməsi yersizdir. Buna riayət edilməməsi medianın, belə demək mümkünsə, reputasiya kapitalını zəiflədir və ictimai etimad böhranı yaradır.

Ümumən, media ilə sosial şəbəkə profili arasında fərqin itməsi jurnalistikanın ictimai legitimliyinin zəifləməsinə gətirib çıxarır. Nəzərə alaq ki, etimadın özü də medianın əsas institusional kapitalıdır. Əgər jurnalistikaya etimad azalırsa, cəmiyyət dezinformasiya riski ilə üzləşir, ictimai qütbləşmə dərinləşir, informasiya xaosu yaranır. Deməli, jurnalistlərin etik davranış qaydalarına riayət etmələri yalnız peşəkar öhdəlik deyil, həm də ictimai təhlükəsizlik faktorudur.

Məşhur amerikalı jurnalist, yazıçı və publisist Uolter Lipman deyirdi ki, "xəbər və həqiqət eyni şey deyil. Xəbər hadisəni bildirir, həqiqət isə hadisənin arxasındakı mənanı açıqlayır". Müəllifin başqa bir fikri odur ki, jurnalistikanın ilk öhdəliyi həqiqətə, ilk sədaqəti isə vətəndaşlara olmalıdır. Arzu edərdik ki, həmkarlarımız Mətbuat Şurasının çağırışından nəticə çıxarsınlar. Nəticə çıxarsınlar ki, mütərəqqi dəyərlərə sadiqliklərinə şübhə olmasın. Nəticə çıxarsınlar ki, həqiqətlər və doğrular öz yerini yalanlara və digər nadürüstlüklərə verməsin.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Naxçıvan “yaşıl inkişaf”ın ön sırasında

## *Azərbaycanın təmiz enerji coğrafiyası genişlənir*

**Azərbaycan enerji tarixinin yeni mərhələsinə qədəm qoyur. Bu mərhələ neft və qazın yaratdığı iqtisadi gücün alternativ mənbələrlə tamamlandığı, ölkənin enerji xəritəsinin “yaşıl” çalarlarla zənginləşdiyi bir dövrü ifadə edir. Energetika Nazirliyində keçirilən son görüş də məhz bu strateji xəttin davamı kimi diqqət çəkir. Dövlət qurumları və özəl sektor nümayəndələrinin iştirak etdikləri müzakirələr Naxçıvanın “yaşıl enerji zonası” kimi formalaşdırılması istiqamətində atılan addımların artıq real layihələr mərhələsinə keçdiyini göstərir.**



Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji baxışa uyğun olaraq Naxçıvan Muxtar Respublikası alternativ enerji istehsalının əsas mərkəzlərindən birinə çevrilir. Bu gün artıq Muxtar Respublikada bərpaolunan enerji mənbələrinin payı quraşdırılmış gücdə 44 faiz, faktiki istehsalda isə 36,4 faiz təşkil edir. Bu göstəricilər region üçün mühüm nailiyyət olmaqla yanaşı, Azərbaycanın ümumi enerji keçidi strategiyasının praktik nəticəsidir.

Xüsusilə 50 meqavat gücündə iki Günəş elektrik stansiyasının – “Şəms 1” və “Qərbi Üfüq” layihələrinin icrası “yaşıl inkişaf” modelinin institusional əsaslarını gücləndirir. Ümumi investisiya dəyəri 60 milyon manatdan artıq olan bu layihələr dövlət və özəl sektor tərəfdaşlığının uğurlu nümunəsi kimi dəyərləndirilir. İmzalanmış investisiya, enerji alqı-satqı və şəbəkəyə qoşulma müqavilələri göstərir ki, Azərbaycan “yaşıl enerji”ni sadəcə ekoloji təşəbbüs kimi deyil, iqtisadi və geosiyasi alət kimi nəzərdən keçirir.



Layihələrin reallaşması nəticəsində illik 122 milyon kilovat-saat elektrik enerjisi istehsalı gözlənilir. Bu isə 26 milyon kubmetr təbii qaza qənaət deməkdir. Daha da əhəmiyyətlisi, 57 min ton karbon emissiyasının azalması Azərbaycanın iqlim öhdəliklərinə sadiqliyinin praktik təsdiqidir. Qlobal enerji keçidinin sürətləndiyi bir dövrdə bu rəqəmlər ölkənin beynəlxalq enerji gündəliyində mövqeyini möhkəmləndirir. Bununla yanaşı, Zəngəzur dəhlizinin enerji komponenti üzrə aparılan işlər, sistemlərin birləşdirilməsi və gələcəkdə elektrik enerjisinin qonşu ölkələrə, perspektivdə isə Avropaya ötürülməsi imkanları Azərbaycanın regional enerji xəritəsində rolunu genişləndirir.

“Yaşıl enerji” siyasəti artıq ölkənin beynəlxalq əməkdaşlıq gündəliyinin mühüm istiqamətinə çevrilib. Müxtəlif xarici şirkətlərin, o cümlədən enerji sahəsində təcrübəyə malik investorların Naxçıvan layihələrinə cəlb olunması Azərbaycanın açıq və şəffaf investisiya mühitinin göstəricisidir. Dövlət və özəl sektorun sinerjisi nəticəsində formalaşan bu model gələcəkdə külək, hidro və digər alternativ enerji layihələrinin də genişlənməsinə zəmin yaradır.

Azərbaycanın “yaşıl enerji” potensialı artıq statistik rəqəmlərdən ibarət deyil. Bu potensial müqavilələrdə, inşa olunan stansiyalarda, azalan emissiyalarda və qənaət edilən qaz həcmlərində öz əksini tapır. Naxçıvan isə bu yeni enerji fəlsəfəsinin laboratoriyasına çevrilir. Burada atılan addımlar gələcəkdə ölkənin digər regionlarında da tətbiq olunacaq modelin əsasını formalaşdırır.

Yeri gəlmişkən, 2027-ci ilədək ümumi gücü 2 qiqavatdan çox olan “yaşıl enerji” layihələrinin reallaşdırılması nəzərdə tutulur. Bu layihələr arasında yerli və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən külək və günəş stansiyaları xüsusi əhəmiyyət daşıyır. 230 MVt gücündə “Qaradağ” GES 2023-cü ilin 26 oktyabr tarixində BƏƏ-nin “Masdar” şirkəti ilə əməkdaşlıq çərçivəsində pilot layhə kimi istismara verilib. 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilmiş stansiyada hər il təqribi 500 milyon kVt/st elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət edilir. 200 min ton həcmində karbon emissiyasının atmosferə atılmasının qarşısı alınır.

100 MVt gücündə “Qobustan” GES layihəsi 2024-cü ildə təşkil edilmiş hərracda qalib gələn Çinin “Universal International Holdings Limited” şirkəti tərəfindən reallaşdırılır. Stansiyada hər il təxminən 260 milyon kVt/st elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 57 milyon $m^3$ həcmində təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 124 min ton azaltmağa imkan verəcəkdir.

Masdar şirkəti tərəfindən icra olunan “Meqa” layihə çərçivəsində 445 MVt gücündə GES Biləsuvar rayonunda, 315 MVt gücündə GES Neftçala rayonunda, 240 MVt gücündə KES Abşeron və Qaradağ rayonlarında tikilir. 2025-ci ilin 2 oktyabr tarixində “Biləsuvar” GES-də ilk günəş paneli quraşdırılıb.

2024-cü ilin 29 iyul tarixində Asiya İnkişaf Bankının dəstəyi ilə həyata keçirilən “Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi” pilot layihəsi çərçivəsində Böyükşor gölündə 100 kVt gücə malik fotovoltaik sistemin açılış mərasimi keçirilib. Eksperimental qurğu ölkədə su hövzəsi üzərində istismara verilən ilk günəş elektrik stansiyasıdır.

İşğaldan azad edilmiş ərazilərdə 1500-dən çox fərdi yaşayış evində, ictimai və sosial binalarda ümumi gücü 5 MVt-dan çox olan günəş panelləri quraşdırılıb və proses məskunlaşma planlarına uyğun davam etdirilir. Bu ərazilərdə 307 MVt gücündə 38 su elektrik stansiyası istismar olunur. “Şəfəq” GES, “Üfüq” GES və “Şəms” GES layihələri Cəbrayıl rayonunda həyata keçirilir.

Qeyd edək ki, bu ilin yanvar ayında Azərbaycanda külək elektrik stansiyalarında 56,1 milyon kVt/saat elektrik enerjisi istehsal edilib. Bu, ötən ilin yanvar ilə müqayisədə 21,6 dəfə çoxdur. Azərbaycanda 2 milyard 257 milyon kVt/saat elektrik enerjisi istehsal edilib ki, bu da 1 il əvvələ nisbətən 3,8 faiz azdır. Bunun 2 milyard 186,6 milyon kVt/saatı əmtəəlik elektrik enerjisi olub ki, bu da illik müqayisədə 3,5 faiz azdır. Aylıq istehsalın 133,4 milyon kVt/saatı su elektrik stansiyalarının, 1 milyard 978,6 milyon kVt/saatı isə istilik elektrik stansiyalarının, 22,1 milyon kVt/saat tullantıların yandırılmasından alınan elektrik enerjisinin payına düşüb. Günəş elektrik stansiyalarında da 18,5 milyon kVt/saat elektrik enerjisi istehsal edilib ki, bu da 2025-ci ilin yanvar ayının göstəriciləri ilə müqayisədə 15,6 faiz çoxdur.

Göründüyü kimi, ölkəmizin bərpaolunan enerji sahəsindəki potensialı real iqtisadi dividend gətirir. Müxtəlif ölkələrlə əməkdaşlıq, beynəlxalq maliyyə qurumlarının dəstəyi buna əyani sübutdur.

***N.ABDALOV***
***XQ***

# BTC kəməri ilə yanvarda 2,7 milyon ton neft nəql edilib

**Bu ilin yanvar ayında Azərbaycanın magistral neft kəmərləri ilə 2 milyon 731,4 min ton neft nəql edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, 2025-ci ilin ilk ayının göstəricisinə nisbətən 14,9 faiz azdır.**

Ötən dövr ərzində nəqletmənin 77,3 faizi Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri ilə həyata keçirilib. Bu kəmər vasitəsilə ötən il 2 milyon 112 min ton neft ötürülüb. Bu, 2025-ci ilin eyni ayı ilə müqayisədə 8,9 faiz azdır. Dövr ərzində BTC kəməri ilə nəql edilmiş neftin 82,8 faizini və ya 1 milyon 748,4 min tonunu Azərbaycanda hasil edilən neft, 17,2 faizini və ya 363,6 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil edib. BTC kəməri ilə nəql edilmiş Azərbaycan neftinin həcmi 9,2 faiz, Türkmənistan və Qazaxıstandan daxil olan neftin həcmi isə 7,4 faiz azalıb.



Xatırladaq ki, hazırda BTC boru kəməri əsasən Azərbaycandan “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan hasil edilən nefti və “Şahdəniz” yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə digər xam neft və kondensat həcmləri də, o cümlədən Türkmənistan və Qazaxıstan nefti nəql olunur.

AÇG-də bp (30,37 faiz), SOCAR (31,65 faiz), “MOL Group” (9,57 faiz) INPEX (9,31 faiz), “ExxonMobil” (6,79 faiz), TPAO (5,73 faiz), ITOCHU (3,65 faiz), “ONGC Videsh Limited” (OVL) (2,92 faiz) pay sahibidir.

# Qeyri-neft büdcə gəlirləri artacaq

**2026-cı ildə Azərbaycanın fiskal siyasəti neft gəlirlərindən asılılığın tədricən azaldılmasına yönəlmiş mühafizəkar yanaşma əsasında həyata keçiriləcək. Bu barədə “Fitch Solutions” agentliyinin ölkəmizlə bağlı proqnozunda bildirilib.**

Qurumun məlumatına əsasən, bu il Azərbaycanda qeyri-neft büdcə gəlirləri iki rəqəmli templə artacaq və ümumi büdcə gəlirlərinin 57 faizindən çoxunu təşkil edəcək. Bu, fiskal strukturun şaxələndirilməsi və uzunmüddətli dayanıqlılığın gücləndirilməsi istiqamətində mühüm addım kimi qiymətləndirilir. Eyni zamanda, Dövlət Neft Fondundan büdcəyə transfertlərin 11 faiz azaldılması nəzərdə tutulur ki, bu da neft gəlirlərindən asılılığın tədricən azaldılmasına xidmət edir.

Agentliyin hesabatında, həmçinin qeyd olunur ki, 2026-cı ildə büdcə kəsiri ÜDM-in, təxminən, 1,9 faizi səviyyəsində proqnozlaşdırılır və bu göstərici əvvəlki ilin səviyyəsinə yaxın olacaq. Gəlir və xərclərin illik artımı isə, təxminən, 0,7 faiz səviyyəsində məhdudlaşdırılacaq ki, bu da qeyri-müəyyən qlobal enerji bazarı şəraitində fiskal intizamın qorunmasına yönəlib.

Bununla yanaşı, müdafiə xərclərinin yüksək səviyyədə qalacağı bildirilir. Qurumun qiymətləndirməsinə görə, 2026-cı ildə müdafiə xərcləri artım tempini qoruyacaq və büdcədə əhəmiyyətli paya malik olacaq. Bütövlükdə isə, “Fitch Solutions” hesab edir ki, qeyri-neft gəlirlərinin artması və transfertlərin azalması uzunmüddətli fiskal sabitliyin gücləndirilməsi baxımından müsbət siqnaldır.

Qeyd edək ki, “Fitch Solutions” agentliyi 1913-cü ildə ABŞ-ın Nyu-York şəhərində yaradılmış “Fitch Group”un bölməsi kimi formalaşdırılıb. 2008-ci ildə fəaliyyətə başlamış qurum, əsasən, maliyyə bazarları üçün analitik məlumatlar, kredit riski həlləri və makroiqtisadi proqnozlar təqdim edir.

***XQ***

# Dəniz suyunun şirinləşdirilməsi layihəsi gerçəkləşir

**Xəzər dənizində duzsuzlaşdırma zavodu layihəsi ilə bağlı mühəndis-texniki tədqiqat işləri davam edir. Səudiyyə Ərəbistanın “ACWA Power” şirkətinin Türkiyə və Azərbaycan üzrə müdiri Səlim Güvən bildirib ki, ötən müddətdə layihənin beynəlxalq standartlara və Xəzər dənizində qüvvədə olan bütün ekoloji və sosial tələblərə uyğun şəkildə həyata keçirilməsi məqsədilə batimetriya, diffuziya və digər mühəndis-texniki araşdırmalar icra olunub.**

“ACWA Power” şirkəti ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi arasında imzalanmış razılaşmaya əsasən, inşa ediləcək duzsuzlaşdırma zavodu ilə bağlı tədqiqatlar başa çatdıqdan sonra hazırlanmış hesabatların banklara təqdim olunacağını bildirən şirkət rəsmisinin sözlərinə görə, onların təsdiqi aldındıqdan sonra, təxminən, bu ilin üçüncü rübündə layihənin maliyyələşdirilməsinə dair müqavilənin bağlanması gözlənilir.

Bundan dərhal sonra isə zavodun təməlqoyma mərasimi keçiriləcək və layihə tikinti mərhələsinə qədəm qoyacaq: “Planımıza uyğun olaraq, tikintinin başlanmasından 24 ay sonra ilk suyun verilməsi nəzərdə tutulur. 30-cu ayda, yəni əlavə 6 ay sonra stansiya tam gücü ilə istismara veriləcək. Birinci mərhələ çərçivəsində inşa ediləcək yarımstansiya 2028-ci ilin iyun ayında istismara veriləcək. Tam gücdə fəaliyyət isə 6 ay sonra, hənin ilin dekabr ayında planlaşdırılır. Beləliklə, layihə 2028-ci ildə tam istismara veriləcək və Azərbaycan dövlətinə təqdim olunacaq”.

Xatırladaq ki, Azərbaycanda içməli su istehsalı üçün dəniz suyunun duzsuzlaşdırılması zavodunun tikintisi layihəsi Sumqayıt Kimya Sənaye Parkının ərazisində gündəlik gücü 300 min kubmetr olan dəniz suyunun duzsuzlaşdırılması zavodunun inşasını nəzərdə tutur. Layihənin “ACWA Power” və Türkiyənin “IC İçtaş İnşaat” şirkətinin daxil olduğu konsorsium tərəfindən həyata keçirilməsi planlaşdırılır. Sazişin şərtlərinə görə, layihənin icra müddəti 27,5 il təşkil edəcək, Həmin müddət bitdikdən sonra obyektin idarəçiliyi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə veriləcək. Tikinti işlərinin 2,5 il ərzində başa çatdırılması planlaşdırılır.

Xatırladaq ki, dünyada dəniz suyunun duzsuzlaşdırılması uzun müddətdir ki, tətbiq olunur. Bu üsuldan, əsasən, su ehtiyatlarının həddindən artıq az olduğu Səudiyyə Ərəbistanında, Omanda, Birləşmiş Ərəb Əmirliklərində, Qətərdə, İsraildə, Avstraliyada, İspaniyada və Afrikanın bir sıra ölkələrində istifadə edilir. Həmin ölkələrdə su qıtlığını aradan qaldırmaq üçün dəniz suyu duzsuzlaşdıraraq həm içməli su kimi, həm də kənd təsərrüfatında geniş istifadə olunur. Məsələn, Qətər Dövləti özünün su ehtiyatının 96 faizini duzsuzlaşdırılmış mənbələrdən istifadə ilə ödəyir. Ümumilikdə isə, hazırda dünyanın 177 ölkəsində 16 mindən artıq dəniz suyunu təmizləmə qurğusu fəaliyyət göstərir. Dəniz suyundan şirin su istehsal edən qur-



ğu Xəzərdə də var. Bu, Qazaxıstanın Aktau limanında qurulub və gündəlik gücü 74 min kubmetrdir.

Ümumilkdə isə, hazırda dünya əhalisinin 4 faizi şirinləşdirici qurğularla alınan sudan istifadə edir. Bu sahə yeni inkişaf mərhələsində olmasına baxmayaraq, böyük inkişaf potensialına malikdir. Təkcə onu qeyd etmək kifayətdir ki, 1995-ci ildə dünya üzrə gündə 20 milyon kubmetr duzsuzlaşdırılmış su istehsal olunduğu halda, hazırda bu rəqəm 120 milyon kubmetri ötüb. Belə qurğuların sayı isə 3 mindən 16 minədək yüksəlib. 2025-ci ildə bu sahədə 10 faizə yaxın artım qeydə alınıb.

Yeri gəlmişkən, ölkəmizdə də dəniz suyunun duzsuzlaşdırılması sahəsində müəyyən təcrübə qazanılıb. Belə ki, gələcəkdə yarana biləcək su qıtlığı probleminin səmərəli həllinə nail olmaq məqsədilə 2013-cü ildə Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunu içməli su səviyyəsinə qədər təmizləməyə imkan verən tərs-osmos membranları ilə təchiz olunmuş və yüksək texnologiyaya əsaslanan zavod inşa edilib. İlkin mərhələdə zavodda dəniz suyundan sutkada min kubmetr şirin su istehsal etmək üçün avadanlıq quraşdırılıb. Bu sahədə artan ehtiyaclar nəzərə alınaraq 2016-cı ildə zavodun gücü əlavə tikinti-quraşdırma işləri aparılmadan iki dəfə artırılaraq sutkada 2 min kubmetrə çatdırılıb.

Zavodda gələcəkdə az məsrəfli əlavə işlər görməklə alınan təmiz suyun həcmini 20 min kubmetrə çatdırılmasına imkan verəcək müvafiq infrastruktur da yaradılıb. Eyni zamanda, dənizdən suyun götürülməsi üçün uzunluğu 200 metr, eni 8 metr, dəniz səviyyəsindən hündürlüyü 5 metr olan damba inşa edilib, xüsusi örtüklə izolyasiya olunmuş 3 ədəd dəmir su çəni, 5 yeraltı dəmir-beton su anbarı, geotekstil membran örtüyü ilə izolyasiya olunmuş 1 şirin su anbarı və dənizdən qəbul edilən duzlu su üçün torpaq su anbarları, eləcə də inzibati bina inşa edilib.

Bundan əlavə, 2012-ci ildə Şirvan kollektorunun suyunun duzsuzlaşdırılaraq suvarılmaya yararlı vəziyyətə gətirilməsi üçün sutkalıq gücü 2500 kubmetr olan qurğu inşa edilib. 2016-cı ildə isə ərazidə inşa edilən 2-ci qurğunun köməyilə istehsal gücü 5 min kubmetrə çatdırılıb. Hazırda Xıdırlı dəniz suyunun duzsuzlaşdırılması zavodu və Şirvan kollektorunun suyunun duzsuzlaşdırılması qurğularında gündə 7 min kubmetr su istehsal olunur. Bunun da hesabına 1750 hektar ərazidə salınmış bağları suvarmaq, eləcə də 50-70 min əhalisi olan bir şəhəri içməli su ilə təmin etmək mümkündür. Hazırda isə bu sulardan ətraf ərazilərdə salınmış 700 hektar yaşıllıqların, o cümlədən zeytun plantasiyalarının və ildə 1 milyondan artıq əkin materialı yetişdirilən tinglik sahələrinin suvarılmasında istifadə olunur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Struktur islahatları*

# İdarəetmədə çağdaş tələblər və aydın hədəflər

**Azərbaycan Respublikasında son illər həyata keçirilən təşkilati və struktur islahatları dövlət idarəetməsinin modernləşdirilməsi, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və cəmiyyətin dəyişən tələblərinə uyğunlaşdırılması baxımından strateji önəm daşıyır. Prezident İlham Əliyevin bu ilin əvvəlindən etibarən imzaladığı müvafiq fərmanlarla bir sıra dövlət qurumlarının yenidən təşkil olunması, eləcə də fəaliyyətinin təkmilləşdirilməsi bu prosesin ardıcıl və sistemli xarakter aldığını bir daha nümayiş etdirir. Bu qərarlar yalnız struktur dəyişiklikləri ilə məhdudlaşmır, eyni zamanda, dövlət idarəçiliyində yeni keyfiyyət mərhələsinin formalaşdırılmasını şərtləndirir.**

## Struktur islahatlarının strateji fəlsəfəsi

Hazırda ölkədə həyata keçirilən struktur islahatlarının əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, dövlət aparatını müasir çağırışlara uyğunlaşdırmaq və sosial-iqtisadi sahələrdə yaranan yeni şəraitə uyğun institusional cavab verməkdir. Bu yanaşma dövlət başçısının müəyyənləşdirdiyi yeni iqtisadi modelin mühüm komponenti kimi çıxış edir və iqtisadi inkişafın idarəetmə əsaslarını daha da möhkəmləndirir.

Struktur dəyişiklikləri nəticəsində paralel funksiyaların aradan qaldırılması, səlahiyyət bölgüsünün dəqiqləşdirilməsi və idarəetmə mexanizmlərinin sadələşdirilməsi dövlət aparatının daha yığcam və funksional formaya keçməsinə şərait yaradır. Bu isə qərarların qəbulunda operativliyin artması, resurslardan səmərəli istifadə və institusional məsuliyyətin güclənməsi deməkdir.

Dövlət idarəçiliyinin optimallaşdırılmasını və iqtisadi təsirləri özündə ifadə edən bu islahatların iqtisadi mühitə təsiri çoxşaxəlidir. İlk növbədə, dövlət aparatının yığcamlaşdırılması və səlahiyyətlərin müəyyən məhdudiyyətlər çərçivəsində mövcud variantlar içərisindən ən yaxşısının seçilməsi büdcə xərclərinin azaldılması ilə nəticələnir. Paralel strukturların saxlanmasına yönələn maliyyə vəsaitlərinin azalması isə dövlət resurslarının prioritet sahələrə yönəldilməsinə imkan yaradır.

Digər tərəfdən, institusional optimallaşdırma biznes mühitinə müsbət təsir göstərir. Daha səmərəli dövlət aparatı özəl sektorun fəaliyyətinə inzibati müdaxiləni minimuma endirməklə bazar mexanizmlərinin güclənməsinə şərait yaradır. Beləliklə, dövlət və bazar tənzimlənməsi arasında optimal balans formalaşır ki, bu da özəl sektorun iqtisadi inkişafın aparıcı qüvvəsinə çevrilməsini stimullaşdırır. Bu baxımdan struktur islahatları investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və yeni iş yerlərinin yaradılması baxımından mühüm rol oynayır.

Struktur islahatlarının digər mühüm istiqaməti isə yaxşı idarəetmə və açıq hökumət prinsiplərinin gücləndirilməsidir. Dövlət qurumlarının fəaliyyət istiqamətlərinə yenidən baxılması, funksional yanaşmanın tətbiqi və rəqəmsallaşmanın genişləndirilməsi dövlət-vətəndaş münasibətlərinin daha şəffaf və əlçatan olmasına xidmət edir. Beynəlxalq qiymətləndirmələr də bu tendensiyanı təsdiqləyir. Qlobal rəqabətlilik indeksinin "dövlət tənzimlənməsinin yükü" göstəricisi üzrə Azərbaycanın yüksək mövqe tutması da dövlət idarəçiliyində aparılan optimallaşdırma siyasətinin nəticəsi kimi dəyərləndirilə bilər. Bu fakt, eyni zamanda, dövlət idarəetmə sistemində səmərəliliyin artırılması istiqamətində görülən işlərin beynəlxalq müstəvidə tanındığını göstərir.

Prezident İlham Əliyevin 20 fevral 2026-cı il tarixdə imzaladığı müvafiq fərmanlarla media, beynəlxalq münasibətlər və su təsərrüfatı sahələrində fəaliyyət göstərən qurumların yenidən təşkili dövlət idarəetməsində sektorlararası uğurlu əməkdaşlığın, innovasiya və səmərəliliyin gücləndirilməsi məqsədi daşıyır. Bu dəyişikliklər, eyni zamanda, müxtəlif sahələrdə fəaliyyət göstərən institutların funksional koordinasiyasını artırmaqla dövlət siyasətinin icrasında vahid yanaşmanın formalaşmasına imkan verir.

Xüsusilə su ehtiyatlarının idarə olunması sahəsində struktur dəyişiklikləri resursların səmərəli istifadəsi, infrastrukturun modernləşdirilməsi və regional xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm perspektivlər açır. Media və analitik institutların yenidən təşkili isə informasiya siyasətinin səmərəliliyinin artırılmasına və strateji kommunikasiya imkanlarının genişləndirilməsinə əlverişli



şərait yaradır. "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" və "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi" publik hüquqi şəxslərin yenidən təşkili haqqında dövlət başçısının müvafiq Fərmanı bu fikrin bariz ifadəsidir.

Ümumiyyətlə, media və analitik institutların yenidən təşkili dövlətin informasiya siyasəti və strateji kommunikasiya imkanlarının gücləndirilməsi baxımından xüsusi diqqət çəkir. Onu da qeyd edək ki, son illər informasiya mühitinə milli təhlükəsizliyin komponentlərindən biri kimi xüsusi əhəmiyyət verilir. Çünki media və analitik institutların koordinasiyalı fəaliyyəti dövlətin beynəlxalq aləmdə mövqelərinin güclənməsinə şərait yaradır.

Beynəlxalq münasibətlər və geosiyasi proseslərlə bağlı qərarların elmi-analitik əsaslarla qəbul edilməsi isə dövlət siyasətinin keyfiyyətini artırır. Bu baxımdan analitik mərkəzlərin funksional imkanlarının genişləndirilməsi strateji qərarvermə prosesini gücləndirir. Beləliklə, bu və ya digər struktur dəyişiklikləri Azərbaycanın yeni iqtisadi modelinin institusional dayaqlarını gücləndirməklə yanaşı, dövlət idarəçiliyinin keyfiyyətinin yüksəldilməsinə və uzunmüddətli inkişaf strategiyasının həyata keçirilməsinə xidmət edir.

Bu gün respublikada həyata keçirilən islahatlar çərçivəsində dövlət maliyyəsinin idarə olunmasında rəqəmsallaşmanın genişləndirilməsi, büdcə vəsaitlərinin ünvanlı və səmərəli istifadəsinin gerçəkləşdirilməsi də qarşıda mühüm vəzifə kimi durur. Yenidən təşkil olunan maliyyə strukturlarında isə əməkdaşların hüquq və əmək münasibətlərinin normativ hüquqi aktlara uyğun tənzimlənəcəyi mühüm şərtlərdən biridir. Dövlət Xəzinədarlıq Agentliyinin regional idarələrinin ləğv edilməsinə və onun fəaliyyətinin mərkəzləşdirilməsi, daha çevik idarəetmə modeli çərçivəsində davam etdirilməsinə start verilməsi də vurğulanan fikrin bariz ifadəsidir.

Azərbaycan Respublikasında dövlət idarəçiliyinin modernləşdirilməsi istiqamətində həyata keçirilən struktur islahatları dövlət başçısının son fərmanları ilə yeni mərhələyə qədəm qoyur. Bu sənədlər dövlət aparatının funksional optimallaşdırılması, paralel strukturların aradan qaldırılması və sektorlar üzrə institusional koordinasiyanın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Aparılan dəyişikliklər təkcə inzibati yenilənmə deyil, həm də dövlət idarəçiliyinin səmərəliliyinə və iqtisadi inkişafın keyfiyyətinə təsir edən sistemli transformasiya kimi qiymətləndirilir.

## İdarəetmədə kəmiyyətdən keyfiyyətə

Azərbaycanda dövlət aparatının və idarəetmə mexanizminin səmərəliliyini yüksəltmək uzun müddətdir ki, ictimai müzakirə mövzusudur. Bu baxımdan struktur islahatları təkcə iqtisadi deyil, həm də sosial əhəmiyyət daşıyır. Vətəndaşların uzun və mürəkkəb inzibati prosedurlarla üzləşməsi idarəetmə sisteminin təkmilləşdirilməsini zəruri edən əsas amillərdən biri kimi diqqət çəkir. Dövlət qurumlarının funksional strukturunun yenilənməsi, xidmətlərin rəqəmsallaşdırılması və prosedurların sadələşdirilməsi vətəndaş məmnunluğunu artırmaqla yanaşı, dövlətə olan institusional etimadı da gücləndirir. Bu isə sosial kapitalın formalaşması və dövlətin legitimlik səviyyəsinin yüksəlməsi baxımından mühüm nəticədir.

**İqtisad elmləri doktoru Yaqub Rəhimovun** sözlərinə görə, struktur islahatlarının daha geniş strateji çərçivəsi insan kapitalının inkişafı və elmi əsaslı idarəetmə modelinin formalaşdırılması ilə bağlıdır. Müasir dövrdə dövlətlərin rəqabət qabiliyyəti yalnız təbii resurslarla deyil, eyni zamanda, insan kapitalının keyfiyyəti və institusional səmərəliliklə müəyyənləşir. Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının elm, təhsil və innovasiya üzərində qurulması da bu yanaşmanın praktik təzahürüdür.

Bu baxımdan "keyfiyyət əmsalı" prinsipinin tətbiqi elmi fəaliyyətin nəticəyönümlüyünü artırmaq, tədqiqatların real sektorla əlaqəsini gücləndirmək və Azərbaycan elmini qlobal elm məkana inteqrasiya etdirmək məqsədi daşıyır. Elmin sosial məşğulluq vasitəsi deyil, inkişafın aparıcı mexanizmi kimi qiymətləndirilməsi isə struktur islahatlarının ideoloji əsasını tamamlayır.

### *Ekspert rəyi*

**Elşan ƏHMƏDOV,**
**Dövlət İdarəçilik Akademiyasının dosenti**

Struktur islahatları yüksək idarəetmə və açıq hökumət prinsiplərinə uyğun olmaqla, eləcə də dövlət idarəetməsinin dünya standartlarına əsaslanılmaqla həyata keçirilməsini təmin edir. Davos İqtisadi Forumunun qlobal rəqabətliliklə bağlı müvafiq hesabatına görə, Azərbaycanın 140 ölkə arasında "Dövlət tənzimlənməsinin yükü" alt-indikatoru üzrə 12-ci yerdə qərarlaşaraq Avstriya, Belçika və Danimarka kimi ölkələri geridə qoyması da bunun bariz ifadəsidir. Bu fakt, eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda ölkədə səmərəli dövlət idarəetmə aparatının formalaşmasının təsdiqidir.

Dövlət başçısı biznes mühitini təkmilləşdirmək, davamlı iqtisadi inkişafa nail olmaq, infrastrukturu və insan kapitalını inkişaf etdirmək, Azərbaycanın dünya iqtisadiyyatında mövqelərini gücləndirmək və struktur islahatları aparmaqla respublikamızın tarazlı inkişafını reallaşdırır. Bu struktur islahatları həm də nəticə etibarilə məhsuldarlığın artırılması, ölkəyə daha çox investisiya cəlb olunması və yeni iş yerlərinin yaradılması deməkdir.

Azərbaycanda dövlət aparatının böyüməsi və idarəetmə mexanizminin səmərəliliyi son illərdə ən çox müzakirə edilən məsələlərdəndir. Dövlət idarəçiliyinin yenilənməsi və müasirləşdirilməsi artıq dövrün obyektiv tələbidir. Ötən illərdə bu istiqamətdə xeyli işlər həyata keçirilib və optimallaşdırma nəticəsində həm dövlətin yükü azalıb, həm də lazımsız xərclərdən qənaət edilib.

Qlobal təcrübə də göstərir ki, dövlət aparatının yığcamlaşdırılması, paralel funksiyaların optimallaşdırılması və strukturun sadələşdirilməsi idarəçiliyin daha çevik olmasına, qərarların daha operativ şəkildə icrasına şərait yaradır.



Azərbaycanın struktur islahatları qlobal idarəetmə transformasiyası tendensiyaları ilə məntiqi uyğunluq təşkil edir. Müxtəlif ölkələrin təcrübəsi dövlət aparatının optimallaşdırılmasının iqtisadi və sosial effektlərini aydın şəkildə nümayiş etdirir. Məsələn, Böyük Britaniyada həyata keçirilən "Next Steps" və sonrakı idarəetmə islahatları dövlət funksiyalarının agentliklərə ötürülməsi və nəticəyönümlü idarəetmə modelinin tətbiqi ilə xarakterizə olunur. Bu yanaşma dövlət siyasətinin hazırlanması ilə icrası arasında institusional fərqləndirmə yaradaraq xidmətlərin səmərəliliyini və keyfiyyətini artırıb.

Azərbaycanın publik hüquqi şəxslər modelindən istifadəsi isə bu təcrübə ilə müəyyən oxşarlıq təşkil edir. Dövlət siyasətinin mərkəzləşdirilmiş şəkildə formalaşdırılması və icra funksiyalarının daha çevik qurumlara verilməsi institusional çevikliyi artıran amildir. Estoniya dövlət idarəçiliyinin rəqəmsallaşdırılması və struktur sadələşdirilməsi sahəsində qabaqcıl nümunələrdən biridir. Elektron hökumət platformalarının tətbiqi isə dövlət aparatı fəaliyyətinin optimallaşdırılmasını və xidmətlərin əlçatanlığının artmasını sürətləndirir. Azərbaycanın struktur islahatları ilə paralel şəkildə aparılan rəqəmsal transformasiya proqramları da bu modelə yaxınlaşmanı nümayiş etdirir və vətəndaşyönümlü idarəetmə konsepsiyasını gücləndirir.

Y.Rəhimovun sözlərinə görə, beynəlxalq təcrübə göstərir ki, dövlət aparatının optimallaşdırılması və strukturun sadələşdirilməsi iqtisadi transformasiya proseslərinin ayrılmaz elementidir. Bir çox ölkələrdə hazırda aparılan idarəetmə islahatları bürokratik maneələrin azaldılması, qərarların qəbulunda operativliyin artırılması və dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi ilə nəticələnir.

Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi siyasət isə milli xüsusiyyətlər və strateji prioritetlər nəzərə alınmaqla formalaşan model kimi dəyərləndirilir. Dövlətin koordinasiyaedici rolunu qorumaqla bazar mexanizmlərinin gücləndirilməsi, sosial məsuliyyət və iqtisadi səmərəliliyin uzlaşdırılması bu modelin əsas xüsusiyyətlərindən biri kimi qiymətləndirilir.

Beləliklə, dövlətimizin başçısının müvafiq fərmanları ilə davam etdirilən struktur islahatları Azərbaycanda dövlət idarəçiliyinin modernləşdirilməsi prosesinin yeni mərhələyə keçdiyini göstərir. Bu islahatlar idarəetmədə çevikliyin və səmərəliliyin artırılması, büdcə resurslarının optimallaşdırılması, biznes mühitinin yaxşılaşdırılması və vətəndaş məmnunluğunun yüksəldilməsi kimi çoxşaxəli məqsədlərə xidmət edir. Eyni zamanda, aparılan dəyişikliklər ölkənin yeni iqtisadi modelinin institusional əsaslarını formalaşdırmaqla davamlı inkişaf strategiyasının həyata keçirilməsinə önəmli töhfə verir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Hörmüz boğazı böhranının qlobal təhdidləri

**İran və ABŞ arasında artan qarşıdurma fonunda Hörmüz boğazının bağlanması ehtimalı gündəmin əsas mövzularından birinə çevrilib. Qlobal nəqliyyat sistemində mühüm yer tutan Hörmüz boğazında mümkün fasilə enerji resurslarının daşınmasına və dünya bazarlarına ciddi təsir göstərə bilər.**




Coğrafi mövqeyinə görə Hörmüz boğazı Yaxın Şərqdə, Fars körfəzi ilə Oman körfəzi arasında yerləşir. Şimaldan İran, cənubdan isə Oman və Birləşmiş Ərəb Əmirlikləri əhatə olunub. Bu boğaz həm regional, həm də qlobal enerji ticarəti üçün həyati önəm daşıyır. Hörmüz boğazı qlobal xam neft axınının mühüm hissəsinin daşınmasında strateji əhəmiyyət daşıyır. Əsas enerji ixracatçıları olan Səudiyyə Ərəbistanı, İraq, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri və İran neft və qaz ehtiyatlarını beynəlxalq bazarlara çıxarmaq üçün bu su yolundan istifadə edirlər.

Eyni zamanda, mayeləşdirilmiş təbii qazın (LNG) daşınmasında da boğaz əsas tranzit marşrutu rolunu oynayır. Hörmüz boğazında hər hansı bağlanma və ya silahlı qarşıdurma enerji qiymətlərinə təsir etməklə yanaşı, qlobal ticarət axınlarını və iqtisadi sabitliyi də risk altına sala bilər. Belə bir vəziyyət neft bazarında kəskin qiymət artımı və təchizat zəncirlərində genişmiqyaslı pozuntular ehtimalını gücləndirir.

Qeyd edək ki, dünyanın ən böyük nüvə enerjili təyyarədaşıyan gəmisi olan ABŞ Hərbi Dəniz Qüvvələrinə məxsus Gerald R. Ford aviadaşıyıcısı ABŞ-ın hərbi mövcudluğunu gücləndirmək məqsədilə Körfəz istiqamətində hərəkətə keçib. Bu addım 2003-cü ildə İraqa müdaxilədən sonra Vaşinqtonun bölgədə həyata keçirdiyi ən genişmiqyaslı hərbi yerləşdirmələrdən biri kimi qiymətləndirilir. Sözsüz ki, ABŞ-ın burada əsas hədəfi İrandır. ABŞ hazırda İran ətrafında, xüsusən də Şərqi Aralıq dənizi, Qırmızı dəniz və Fars körfəzində əhəmiyyətli dərəcədə dəniz və hava qüvvələrinə malikdir.

Rəsmi Tehran isə mümkün ssenarilərə hazır olduğunu nümayiş etdirmək istəyir. Ötən günlərdə İran Fars körfəzini açıq dənizlərlə birləşdirən Hörmüz boğazının bəzi hissələrinin müvəqqəti bağlandığını elan etmiş, döyüş atışlı hərbi təlimlər keçirmişdi. Məlumata görə, İslam İnqilabı Keşikçiləri Korpusunun Hərbi Dəniz Qüvvələri "Hörmüz boğazının ağıllı idarə olunması" adlı təlim çərçivəsində ilk dəfə "Sayyad 3-G" raketini buraxıb. Bu barədə İranın Mehr xəbər agentliyi məlumat yayıb.

Ekspertlər hesab edirlər ki, bu addımlar Vaşinqtonun təzyiqlərinin davam edəcəyi təqdirdə iqtisadi rıçaqlardan istifadə olunacağına dair açıq mesajdır. Baş verənlər regionda mümkün eskalasiyanın qlobal enerji bazarlarına və maliyyə sisteminə sürətlə təsir göstərə biləcəyini bir daha gündəmə gətirir.

Beynəlxalq hüquqa görə, dövlətlər sahil xəttindən 12 dəniz mili (22 km) məsafədə suverenlik hüququnu həyata keçirə bilirlər. Boğazın ən ensiz nöqtəsində Hörmüz boğazı və müəyyən edilmiş gəmiçilik zolaqları İran və Omanın ərazi sularına düşür. Bu amil Tehrana mühüm geosiyasi üstünlük verir. Hər ay təxminən 3 min gəmi bu marşrutdan keçir və mümkün gərginlik ssenarilərində İranın sürətli hücum qayıqları, sualtı vasitələr və dəniz minalarından istifadə edə biləcəyi istisna edilmir.

Coğrafi baxımdan Hörmüz boğazı İranın şimal sahilləri ilə Omanın və BƏƏ-nin cənub sahilləri arasında yerləşir və körfəzi Ərəbistan dənizi ilə birləşdirən yeganə dəniz keçididir. Giriş və çıxış hissəsində eni təxminən 50 kilometr, ən dar nöqtəsində isə 33 kilometrdir. Buna baxmayaraq, bu su yolu dünyanın ən iri neft tankerlərini qəbul edir və regionun əsas enerji ixracatçıları ilə idxalçı ölkələri üçün həyati əhəmiyyət daşıyır.

ABŞ Enerji İnformasiya Administrasiyasının məlumatına görə, 2024-cü ildə boğazdan gündəlik təxminən 20 milyon barel neft daşınıb. Bu göstərici illik enerji ticarətində təxminən 500 milyard dollarlıq dövriyyəyə bərabərdir. Xam neft əsasən İran, İraq, Küveyt, Qətər, Səudiyyə Ərəbistanı və BƏƏ-dən ixrac olunur. Uzunmüddətli fasilə həm istehsalçı, həm də idxalçı iqtisadiyyatlara ciddi zərbə vura bilər.

Boğaz mayeləşdirilmiş təbii qaz daşımalarında da mühüm rol oynayır. 2024-cü ildə qlobal LNG ticarətinin təxminən 20 faizi bu marşrutun payına düşüb və əsas həcmi Qətər təmin edib. Hesablamalara görə, boğazdan keçən xam neft və kondensatın 84 faizi, LNG həcmlərinin isə 83 faizi Asiya bazarlarına yönəlib. Çin, Hindistan, Yaponiya və Cənubi Koreya ümumi axının 69 faizini təşkil edir və onların enerji təhlükəsizliyi bu marşrutdan yüksək dərəcədə asılıdır.

Mütəxəssislər qeyd edirlər ki, Hörmüz boğazının uzunmüddətli şəkildə bağlanarsa praktik və geosiyasi baxımdan ciddi çətinliklər yaradar. Bu keçidi tam şəkildə dayandırmağa cəhd edən hər hansı tərəf beynəlxalq ictimaiyyətin geniş təzyiqi ilə üzləşə bilər. Qlobal mayeləşdirilmiş qaz ticarətinin təxminən 20 faizi, dünya üzrə neft axınının isə 18–20 faizi bu marşrutdan keçir. Boğazın bağlanması enerji bazarlarında kəskin dalğalanmalara və təchizat zəncirində genişmiqyaslı disbalansa səbəb ola bilər.

***Musa BAĞIRLI***
***XQ***

# Boz ayın torpaq qayğıları

**Kiçik çillə bir neçə gündür ki, öz acı külək, qar, çovğun püskürən taxtından düşərək yerini Boz aya verib. El inanclarına görə, fevralın 20-dən Novruz bayramı başlayana qədər, yəni martın 20-nə kimi düz bir ay Boz ay davam edəcək. Bu, elə bir vaxtdır ki, artıq ana torpaq qış yuxusundan oyanır, dağlardan axıb gələn çaylarda suluq artır, tarla və bağlarda isə becərmə mexanizmlərinin tanış səsi eşidilir.**



Təbiət necə də gözəldir! Kol dibində, yamaclarda torpağın bağrını deşib rəngarəng ləçəklərilə mehribancasına Günəşə boylanan Novruzçiçəyinin xoş rahiyyəsi ətrafa yayılır. Tarlaların üzərindən qalxan yaz dumanı isə yaxınlıqdakı meşələrə tərəf hərəkət edərək hündür ağacların başı üzərində gözdən itir. Günəşin al şəfəqləri insanı torpaqla ünsiyyətə səsləyir. Gecikməz, vaxtı fövtə vermək olmaz. Torpaqda izin olmalıdır ki, süfrədə üzün olsun!

Bəli, bu gün Azərbaycan adlı bu gözəl məmləkətin hər guşəsində yazın ılıq nəfəsi duyulur. Vətənin quzeyindən – Qubadan, Qusardan tutmuş Cənuba doğru – Lerik, Astara, Lənkərana qədər, Abşerondan qərbə – Qazax, Tovuz bölgələrinə kimi fermer və torpaq pay mülkiyyətçiləri böyük arzu və ümidlərlə yaz-tarla işlərinə başlayıblar. Göyçayın, Ağdaşın, Kürdəmirin nar bağlarında da canlanma duyulur. Mil-Muğanın zəhmət ətirli taxıl zəmiləri indi yaşıl xalı kimi göz oxşayır.

Əkinçi tarlaya çıxanda, torpaqla bərabər insanın gözü də, qəlbi də sevinir. Xoşbəxtlikdən Azərbaycan kəndi son illər özünün sürətli inkişaf dönəmini yaşayır. Əsas səbəb isə budur ki, dövlət kəndə qayğısını əsirgəmir, torpaqda çalışan fədakar insanların əməyinə lazımınca qiymət, dəyər verir. XQ-nin aqrar sahə üzrə eksperti, KTN-nin Qubada yerləşən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri, biologiya üzrə fəlsəfə doktoru Mədət Qurbanov bizimlə telefon söhbəti zamanı dedi ki, son illər dövlətin maddi və texniki dəstəyini hiss edən fermerlərin torpağa bağlılığı daha da artıb. Aqrar sektorda çalışan alim və mütəxəssislər də öz öhdəsinə düşən vəzifələrin fərqindədirlər. Ümumi məqsəd ölkə əhalisini zəruri və keyfiyyətli ərzaq məhsulları ilə təmin etməkdir. Nə yaxşı ki, bu missiya birgə səylərlə uğurla yerinə yetirilir!

Hörmətli oxucu, biz XQ redaksiyası olaraq vaxtaşırı "Regionlar" səhifəsi hazırlamaqla, sizi ölkəmizin bölgələrində gedən müsbət dəyişikliklərlə tanış etməyə çalışırıq. Bugünkü nömrəmizdə Azərbaycanın ən gözəl guşələrindən biri olan Masallıda son illər kartofçuluğun inkişafı istiqamətində əldə olunan uğurlar və onların sirri, işğaldan azad edilmiş Cəbrayıl rayonunun Horovlu kəndində ting əkini, eləcə də ölkə əhalisinin yerli taxıl məhsulları ilə təmin etməyin vacibliyi və mümkünlüyü barədə nüfuzlu alimlərin tövsiyə və təklifləri ilə tanış etmək fikrindəyik.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Masallıda kartofçuluğa maraq artır

## *Lakin aradan qaldırılmalı maneələr də var*

**Kartof gündəlik qida rasionumuzda xüsusi yer tutur. Təsadüfi deyil ki, el arasında onu "ikinci çörək" də adlandırırlar. Vətəni əsasən İspaniya sayılır. Kartof XVII əsrin sonlarında Rusiyada, XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Azərbaycanda yetişdirilməyə başlanılıb.**

Aqrar sahədə böyük potensiala malik rayonlardan olan Masallıda kartofçuluğun inkişafına xüsusi diqqət yetirilir. Kartof əkinləri ilbəil genişləndirilir, əhali nəinki özünü istehsal etdiyi kartofla təmin edir, məhsulun müəyyən hissəsini xarici bazarlara çıxarır. Masallı kartofu Moskvada, Sankt-Peterburqda, Rusiyanın digər mərkəzi şəhərlərində, hətta uzaq Surqutda alıcı məmnunluğu qazanıb.

Son illər kartofçuluqda əldə olunmuş nəticələr sevindiricidir. Müqayisə üçün deyək ki, 2021-ci ildə rayonda 894 hektar, 2022-ci ildə 900 hektar, 2023-cü ildə 903 hektar, 2024-cü ildə 911 hektar, ötən il isə 922 hektar sahədə kartof əkilib. 2021-ci ildə rayonda 15 min 530,76 ton, 2025-ci ildə isə 16 min 319 ton kartof istehsal olunub. Bu, 5,1 faizə yaxın artım deməkdir. Hektardan orta məhsuldarlıq 17-18 ton olub, lakin bəzi fermerlər hər hektardan 30-35 ton məhsul götürüblər. Bundan əlavə, 559 hektarda təkrar əkin keçirilərək 9 min 776, 3 ton əlavə məhsul istehsal edilib.

Rayonda kartofçuluğun intensiv inkişafı üçün əlverişli şərait mövcuddur. Daxili tələbatı ödəməklə ixrac potensialını xeyli artırmaq mümkündür. Bu isə, öz növbəsində, kənd əməkçilərinin gəlirlərinin çoxalmasına, onların sosial rifah halının yüksəlməsinə səbəb olur.

Qeyd edək ki, Masallıda kartof əsasən Təklə, Təzə Alvadı, Köhnə Alvadı, Banbaşı, Çaxırlı və Öncəqala inzibati ərazilərində əkilir. Son illər rayonun digər kəndlərində də kartofçuluğa diqqət artıb. Fermerlər daha çox "arizona", "razarya", "udaçi", "qırmızıgöz" kartof sortlarına üstünlük verirlər.

Təklə inzibati ərazi vahidliyi 5 kəndi birləşdirir. Keçən il ərazidə 279 hektarda kartof yetişdirilib, 4 min 743 ton məhsul yığılıb. Hektarın orta məhsuldarlığı 20-25 ton olub. **Təcrübəli təsərrüfatçı Hakim Bayramov** kartofçuluğun gəlirli sahə olduğunu, 1993-cü ildən kartof becərdiyini bildirdi:

– Əvvəllər toxumu Gədəbəydən alırdıq. Sonralar Rusiya, Ukrayna, Türkiyə və İrandan gətirilən kartof toxumlarını yerli şəraitə uyğunlaşdırıb əkməyə başladıq. Rusiyanın "udaçi" sortu daha məhsuldardır, keyfiyyətli və şaxtaya dözümlüdür. Keçən il ailə təsərrüfatımız 5 hektarda "udaçi" sortundan əkib, 125 ton məhsul götürüb. Hektarın məhsuldarlığı 25 ton olub.

Bu sahə gəlirli olsa da, çoxlu zəhmət tələb edir. Bir hektarın əkilib-becərilməsinə 8-10 min manat vəsait xərclənir. Hektarda 4 tona yaxın toxum əkilir. Əkin və yığım zamanı 150 nəfər işçi qüvvəsi tələb olunur. Fəhləyə gündəlik 20-25 manat zəhmət haqqı ödənilir. Dərman və gübrələrin qiymətləri, nəqliyyat xərcləri ilbəil qalxır. Kartofun kilosu ən yaxşı halda 50-60, bəzən 20-30 qəpiyə satılır. Məhsulu yerindəcə alıb əsasən Rusiyanın şəhərlərinə aparırlar.

Ailəmizin ruzisi torpaqdan çıxır. Bu günlər 2,5 hektar sahədə kartof əkinini başa çatdırdıq. Əlavə olaraq avqust ayının əvvəllərində təkrar əkin keçirəcəyik. Bir hektar sahədə taxıl, 1 hektar çiyələk və 1 hektarda da göy-göyərti əkmişik. Havalar əlverişli keçsə, yaxşı məhsulumuz olacaq.

**Əli Məmmədov** artıq 30 ildir ki, kartofçuluqla məşğuldur. Təklə kəndində 30 hektar məhsuldar torpağı icarəyə götürüb. Ailə üzvləri ilə kartof, taxıl, paxlalı bitkilər əkib-becərir. Keçən il hektardan 25-30 ton olmaqla, 140 tona yaxın kartof istehsal edib. Cari ilin məhsulu üçün 5 hektarda kartof əkib.

– Kartof gübrəyə tələbkar bitkidir, –deyə təcrübəli fermer Əli Məmmədov söhbətə başladı. Eyni sahədə hər il təkrar kartof əkdikdə bitki xəstəliyə tez tutulur, yumru toxumlar məftil qurdları və başqa zərərvericilər tərəfindən zədələnir. Üzvi və mineral gübrələr verməklə məhsuldarlığı artırmaq mümkündür. Fosfor və kalium gübrəsi əsasən şum altına, azot və fosforun bir hissəsi səpin zamanı verilir. Dərman və gübrələrin qiymətləri isə çox bahadır. Bəzən hektara normaya uyğun gübrə verməyə maddi cəhətdən imkan olmur. Problemi aradan qaldırmaq üçün növbəli əkin sisteminin tətbiqinə üstünlük veririk.

Ləngan kəndində kartofçuluq təsərrüfatın əsas sahəsi hesab olunur. **Füzuli Məmmədovun** başçılıq etdiyi ailə fermer təsərrüfatının 2 hektar məhsuldar sahəsi vardır. Torpağın 1,6 hektarında "arizona" sortlu kartof əkib. Deyir ki, bu sort tez yetişir və bazarda təzə kartofa ehtiyac olur. Düzgün aqrotexniki qulluq göstərəndə hektardan 25-30 ton məhsul götürmək mümkündür. Lakin son illər kartofçuluqda xərclər iki dəfəyə yaxın qalxıb. Əvvəllər bir hektarın əkilib-becərilməsi 5 min manata başa gəlirdisə, indi 10 min manata yaxın vəsait lazım gəlir.



**Masallı Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru (DAİM) Seymur Nuriyev** məhsul istehsalçılarına göstərilən dövlət dəstəyinin aqrar bölmənin digər sahələri kimi, kartofçuluğun da inkişafı üçün geniş imkanlar açdığını vurğuladı:

– Kartof kənd təsərrüfatında strateji məhsullardan sayılır. Məhsul istehsalçılarının texnika ilə təminatının yaxşılaşdırılması, fermerlərə güzəştli şərtlərlə aqrotexniki xidmətlərin göstərilməsi, kənd təsərrüfatı texnikasının, texnoloji və suvarma sistemləri avadanlıqlarının güzəştli şərtlərlə satışı, subsidiyaların verilməsi, həmçinin fermerlərin sertifikatlı, keyfiyyətli və məhsuldar toxumlarla təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədovun keçən yay Təzə Alvadı kəndində keçirdiyi müşavirədə kartofçuluqda mövcud vəziyyət, yığımın nəticələri və qarşıda duran vəzifələr geniş müzakirə edilib.

Masallı DAİM-in mütəxəssisləri məhsul istehsalçıları və fermerlərlə müntəzəm görüşlər keçirərək yerli istehsalın artırılması, emal sahələrinin yaradılması ilə bağlı müzakirələr aparır, müasir texnologiyaların tətbiqi ilə bağlı kartofçuluqla məşğul olan fermerlərə lazımi köməklik göstərirlər. Məhsul istehsalçılarına subsidiya hesabına ammofos, ammonium nitrat, karbamid gübrələri verilib.

Tədarük olunmuş kartof əsasən Rusiya bazarlarına ixrac olunur. Rayonda saxlama kameralarının və emal müəssisələrinin olmaması məhsulun qiymətinin aşağı düşməsinə gətirib çıxarır.

Kartofçuluqda vacib məsələlərdən biri də fermerlərin yüksək reproduksiyalı toxumla təchiz edilməsidir. Artıq bu məsələdə irəliləyiş nəzərə çarpır. Xaricdən gətirilən toxumluq kartofa gömrük rüsumları alınmır. Lakin tələbatın böyük hissəsi idxal hesabına ödənildiyindən milli kartof toxumçuluq sisteminin qurulmasına ehtiyac vardır.

Kartof əkinlərinə aqrotexniki qulluq göstərilməsi üçün müasir tələblərə cavab verən texnikalar çatışmır. "Aqroservis" ASC-nin Masallı-Yardımlı bölməsində şum və becərmə üçün texnika və aqreqatlar olsa da, kartof çıxaran və kartof yığan aqreqatlar yoxdur. Bu yığım zamanı əl əməyindən istifadəni artırmaqla məhsulun maya dəyərinin yüksəlməsinə səbəb olur.

Kartofçuluq məhsuldar və gəlirli sahədir. Fermerlərin əkin vasitələrinə, saxlanma kameralarına ehtiyacları, məhsulun satışı ilə bağlı məsələlər həll olunsa, rayonda kartof əkinlərini genişləndirmək, Masallı brendli ixracyönümlü keyfiyyətli kartof istehsalını artırmaq mümkündür.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Alim sözü*

**Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması bu gün dövlət siyasətinin ən vacib prioritetlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü ilin aprel ayında Hacıqabul rayonunda yerləşən Aqroparkın fəaliyyəti ilə tanış olarkən bu məsələyə bir daha xüsusi diqqət çəkmişdir. Dövlət başçımıza verilən məlumatda bildirildi ki, aqroparkda 4 min hektar sahədə buğda əkilib və hər hektardan orta hesabla 7 ton məhsul əldə olunub.**



# Taxılçılıqda yüksək məhsuldarlığa elmin dəstəyi

Bu yüksək göstərici barədə ölkə rəhbəri qeyd etdi ki, hər hektardan 7 ton taxıl məhsuldarlığı inkişaf etmiş ölkələrin səviyyəsidir. Lakin belə nəticələrə baxmayaraq, Azərbaycan hələ də ərzaq buğdası üzrə idxaldan asılıdır.

Bu fakt xüsusilə düşündürücüdür. Çünki hazırda ölkəmizin illik ərzaq buğdasına olan tələbatı təxminən 3 milyon ton təşkil edir və bunun 1 milyon 300 min tonu xaricdən idxal olunur. Halbuki hər il 800 min hektardan çox sahədə taxıl əkilir. Bəs onda niyə özümüzü tam təmin edə bilmirik? Prezidentin haqlı sualı da məhz bundan ibarətdir: illərlə əkilməyən, o qədər də münbit olmayan torpaqlardan 7 ton məhsul almaq mümkündürsə, nə üçün ölkənin ən yaxşı – keçmiş kolxoz və sovxozlara məxsus münbit torpaqlarında orta məhsuldarlıq cəmi 3–3,5 ton təşkil edir?

Bu çağırış aqrar sahədə çalışan alimləri də ciddi şəkildə düşündürdü. Məhz bu səbəbdən 2024-cü ildə Azərbaycan Dövlət Aqrar Universitetinin bir qrup yüksəkixtisaslı alimi tərəfindən Tərtər rayonunda geniş elmi-tədqiqat işlərinə başlanıldı.

Tərtər rayonu bunun üçün kifayət qədər əlverişli şəraitə malikdir. Rayonun 24 min 285 hektar əkin sahəsi var. Hər il 9 min hektardan çox sahədə dənli və paxlalı bitkilər əkilir. Su təminatı da qənaətbəxşdir. Əgər 2015-ci ildə rayona 134 milyon kubmetr su verilirdisə, Suqovuşanın azad edilməsindən sonra bu göstərici 232,7 milyon kubmetrə yüksəlib. Yəni torpaq da var, su da var.

Pilot layihə kimi rayonun ən böyük təsərrüfatlarından biri olan Bəyimsarov kəndi seçildi. Kənd əhalisi əsasən bitkiçilik və heyvandarlıqla məşğuldur. 2024-cü ildə kənddə 240 hektar buğda, 328 hektar arpa, 801 hektar yonca və 231 hektar pambıq əkilmiş, lakin buğdanın məhsuldarlığı cəmi 25,6 sentner olmuşdur.

2025-ci ildə isə müəyyən irəliləyiş müşahidə edildi. Buğdanın məhsuldarlığı 41 sentnerə, arpanın 35 sentnerə, pambığın isə 41,7 sentnerə yüksəldi. Bununla belə, suvarılan münbit torpaq üçün bu göstəricilər hələ də qənaətbəxş hesab edilə bilməz.

Aparılan araşdırmalar göstərdi ki, əsas problemlərdən biri torpaq sahələrinin həddən artıq xırda olmasıdır. Kənddə hər ailəyə düşən pay torpaqları 3–5 hektardan artıq deyil. Bu ölçüdə sahələrdə müasir texnika və innovativ suvarma texnologiyalarından səmərəli istifadə faktiki olaraq mümkün deyil. İlkin hesablamalar göstərir ki, bu cür texnologiyaların effektiv tətbiqi üçün minimum 50 hektar sahə lazımdır.

Maraqlıdır ki, kənddə 100–150 hektar sahəni icarə əsasında becərən fermerlər yüksək məhsul əldə edə bilirlər. Onlardan biri də Fazil Vəliyevdir. Onun təsərrüfatı təkcə Bəyimsarov kəndi üçün deyil, bütün rayon üçün nümunə hesab edilə bilər. Fermer ənənəvi iki tarlalı növbəli əkin sistemindən istifadə edir və pambıq, taxıl, günəbaxan becərir. 2025-ci ildə hər hektardan 70 sentner buğda, 45,8 sentner pambıq əldə etmişdir. Təsadüfi deyil ki, Fazil Vəliyev 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "I dərəcəli Əmək ordeni" ilə təltif edilmişdir. Onun təcrübəsi bütün respublika üzrə yayılmalıdır.

Araşdırmalar bir daha göstərir ki, pay torpaqlarının könüllü şəkildə birləşdirilməsi, müasir suvarma sistemlərinin tətbiqi ilə ən azı 50 hektarlıq sahələrin birgə becərilməsi mümkündür. Bu, həm məhsuldarlığı artırar, həm də suya 2–3 dəfə qənaət etməyə imkan verər.

Tərtər rayonunda artıq bu istiqamətdə potensialı olan özəl təsərrüfatlar mövcuddur: "Tərtər Aqropark" (170 ha), Hüsənli və Mamırlı kəndlərində fəaliyyət göstərən 45 hektarlıq ərazilər. Bu təsərrüfatlar yeni iş yerləri yaradır, texnologiyaları tətbiq edir, lakin burada da suvarma suyundan səmərəsiz istifadə halları müşahidə olunur.

Məqsədimiz Azərbaycan Dövlət Aqrar Universitetinin elmi potensialından, Azərbaycan İnnovasiya Mərkəzinin imkanlarından və su analizi laboratoriyalarından istifadə edərək məhsuldarlığın aşağı olmasının real səbəblərini üzə çıxarmaq və ərzaq təhlükəsizliyinə praktiki töhfə verməkdir. Bu təkliflər artıq Tərtər Rayon İcra Hakimiyyətində fermerlərin iştirakı ilə müzakirə olunmuşdur. Hesab edirik ki, bank sistemində islahatlar aparılmadan, qısamüddətli və faizsiz kreditlər təqdim olunmadan bu proses sürətlənə bilməz.

ABŞ təcrübəsi göstərir ki, bu mümkündür. "John Deere" və "Exim Bank" modeli buna yaxşı nümunədir: texnika və texnologiya verilir, 3 il ərzində ödəniş tələb olunmur, sərmayə məhsul satışı ilə geri qaytarılır. Eyni yanaşma ölkəmiz üçün də tətbiq oluna bilər.

Tərtər layihəsi Prezident İlham Əliyevin Hacıqabul çağırışına Azərbaycan Dövlət Aqrar Universitetinin əməli cavabıdır. Bu layihə gələcəkdə kəndlərdə sosial rifahın yüksəlməsinə, gənclərin kəndlərə qayıdışına və ölkənin ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə real töhfə verəcəkdir.

***Ziyad ABBASOV,***
***ADAU-nun məsləhətçi professoru,***
***Nizami SEYİDƏLİYEV,***
***professor,***
***Mirnaib MİRSALAHOV,***
***elmi işçi***

*Fəal həyata*

# Sosial dəstək sınıq könüllərin məlhəmidir

*Gerçəkləşdirilən layihələr qollara güc, dizlərə taqət, köməksiz ailələrə rifah gətirir*

**Prezident İlham Əliyevin sosial müdafiə sahəsinə diqqət və qayğısı əlilliyi olan şəxslərin sosial təminatı, tibbi-sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində dövlət siyasətinin ildən-ilə güclənməsinə imkan verir. Ölkəmizdə BMT-nin "Əlilliyi olan şəxslərin hüquqlarına dair Konvensiya"sından irəli gələn öhdəliklərin icrası sahəsində müvafiq işlər aparılır. Bu kateqoriyadan olan şəxslər dövlətin xüsusi diqqət və qayğısı ilə əhatə olunublar.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi olan şəxslər aylıq pensiya və ya sosial müavinət alırlar. **Nazirlik yanında İctimai şuranın üzvü Rey Qasımov** XQ-yə bildirdi ki, ölkəmizdə orta aylıq pensiya hazırda 593 manat, əlilliyə görə aylıq müavinət dərəcələr üzrə müvafiq olaraq 300, 250 və 180 manatdır. Müharibə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olan şəxslər aylıq pensiya və ya aylıq sosial müavinətlə yanaşı, Prezidentin aylıq təqaüdü (I dərəcə üzrə 600 manat, II dərəcə üzrə 500 manat, III dərəcə üzrə 400 manat) ilə də təmin edilirlər. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə əlillik dərəcələrinə uyğun olaraq sığorta ödənişi (I dərəcə 8800 manat, II dərəcə 6600 manat, III dərəcə 4400 manat) də verilir.

Eyni zamanda, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər aylıq pensiya və ya aylıq sosial müavinətlə yanaşı, Prezidentin aylıq təqaüdü (250 manat, onlardan I dərəcə gözdən əlilliyi olanlar 30 manat) ilə də təmin edilirlər. Belə əlilliyi olan şəxslərə və əlilliyi olan uşaqlara qulluq edənlərə də Prezidentin aylıq təqaüdü (120 manat) verilir. Son 7 ildə icra olunan 5 sosial islahat paketi nəticəsində minimum pensiyada 3 dəfəyə yaxın, orta aylıq pensiyada 2,6 dəfə, müavinət və təqaüd ödənişlərində 5 dəfə artım olub. Şəhid ailələri ilə yanaşı, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər də dövlət tərəfindən mənzillə təmin edilirlər.

Ötən dövrdə şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 16 min mənzil, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 7,7 min avtomobil verilib.





Əlilliyi olan şəxslərin və digər həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsi daim diqqətdə saxlanılır. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi bu sahədə mühüm rola malikdir. 2021-ci ildə açılmış mərkəzdə və sonralar İsmayıllı və Bərdədə yaradılan filiallarında ötən dövrdə həssas qruplara aid 920 nəfərdən çox şəxsə xidmət göstərilib.

Bu müəssisə Cənubi Qafqazda ilk və ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır. Mərkəz və filiallarında həssas qruplara aid şəxslərin təlimlər vasitəsilə yaradıcı potensialı, bacarıqları inkişaf etdirilir, həmçinin onların cəmiyyətə inteqrasiyasına dəstək göstərilir. Hazırda mərkəz və filiallarında 274 benefisiar 14 müxtəlif fəaliyyət istiqaməti üzrə təlimlərdə iştirak edərək bacarıqlarını inkişaf etdirir.

Heydər Əliyev Fondunun sosial layihələrindən biri kimi ötən dövrdə Naxçıvan, Gəncə və Yevlaxda əlilliyi olan şəxslərin İKT vasitəsilə məlumat əldə etmək və biliklərini artırmaq üçün regional informasiya mərkəzləri də yaradılıb. Əlilliyi olan şəxslərin və uşaqların yaradıcılıq nümunələrindən ibarət satış-sərgi tədbirləri də mütəmadi təşkil olunur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzi də fəaliyyət göstərir ki, burada əlilliyi olan gənclər müxtəlif peşələr üzrə hazırlıq kurslarında bilik və bacarıqlara yiyələnirlər. Həmçinin mərkəzdə sosial reabilitasiya xidmətlərinə, müxtəlif təlimlərə, boccia və digər idman növləri üzrə məşqlərə cəlb edilirlər. Mərkəzə qəbul olunanlar burada dövlət hesabına yataqxana və yeməklə də təmin olunurlar.

Son illər ölkəmizdə müasir reabilitasiya mərkəzləri istifadəyə verilib, həmçinin bu sahədə qabaqcıl dünya təcrübəsinə uyğun yeni xidmətlər tətbiq olunur. 2018-2025-ci illərdə reabilitasiya xidməti göstərilən əlilliyi olan şəxslərin illik sayı 12 dəfəyədək artaraq 142 minə çatıb. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələri növlərinin sayı da son illərdə 4 dəfəyə yaxın artırılaraq 130-a çatdırılıb. Dövlət büdcəsi hesabına bu kateqoriyaya aid şəxslərə təqdim edilən reabilitasiya vasitələrinin illik sayı 2018-ci ilə nisbətən 6 dəfə artaraq ötən il 212 minə çatıb.

Ölkəmizdə əlilliyi olan şəxslərin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı da həyata keçirilir. Aprel döyüşlərində yaralanmış hərbçilərimiz Heydər Əliyev Fondunun layihəsi çərçivəsində qısa zaman ərzində Almaniya, İslandiya, İngiltərənin müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin olunublar. Möhtəşəm Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 500-dən çox hərbçimizin 621 yüksək texnologiyalı protezlə təminatı həyata keçirilib.

Rey Qasımov daha sonra qeyd etdi ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələrində son illər



geniş elektronlaşma proqramı icra olunub. O cümlədən əlilliyin qiymətləndirilməsi mexanizmi də son illər elektron texnologiyalar əsasında qurulub. Yəni şəxsin əlilliyini qiymətləndirilməsi onunla bağlı "Əlillik" altsisteminə daxil edilmiş göndərişdəki məlumatlar əsasında aparılır.

Ötən il bu altsistemdə tətbiq edilmiş süni intellekt əsaslı funksionallıq tibbi göndərişlərdə mətn analizinin aparılmasına, qərarvermə üçün əhəmiyyətli göstəricilərin avtomatik müəyyənləşdirilməsinə və s. imkan yaradıb. Bu texnoloji həll həmçinin sui-istifadə hallarına səbəb ola bilən həssas və riskli məlumatların avtomatik aşkarlanmasını təmin edərək nəzarət mexanizmlərini gücləndirib. Nəticədə, subyektiv yanaşmaların və potensial yanlışlıqların minimuma endirilməsi istiqamətində mühüm addım atılıb.

Hazırda isə əlilliyin qiymətləndirilməsi sistemində süni intellekt texnologiyalarının tətbiqi çərçivəsində tibbi-sosial məlumatların dərin təhlili, çoxmənbəli informasiya bazalarının inteqrasiyası, sənədlərin avtomatlaşdırılmış emalı və risk əsaslı qiymətləndirmə mexanizmlərinin daha da təkmilləşdirilməsi nəzərdə tutulub. Nəticədə, qiymətləndirmə zamanı qərarvermə prosesində həm sürət, həm də dəqiqlik əhəmiyyətli dərəcədə artacaq. Eyni zamanda, süni intellekt alətlərinin tətbiqi bu prosesdə vahid standartları formalaşdıracaq və məlumatların sistemli şəkildə analizinə, mümkün uyğunsuzluqların operativ aşkarlanmasına imkan verəcək.

Onu da qeyd edək ki, 2022-ci il iyulun 1-dən ölkəmizdə əlillik sahəsində qabaqcıl dünya təcrübəsinə uyğun fundamental islahat olan yeni "Əlilliyin müəyyən olunması meyarları" tətbiq olunur. Həmin vaxtdan əlilliyinin qiymətləndirilməsi insanın həyat fəaliyyətinin 7 əsas kateqoriya (özünəqulluq, sərbəst hərəkətetmə, istiqamətseçmə, ünsiyyət, davranışına nəzarətetmə, öyrənmə, əmək fəaliyyəti) üzrə məhdudlaşma faizlərinin müəyyən olunması əsasında həyata keçirilir.

Əlilliyi olan şəxslərin sosial müdafiəsi, reabilitasiyası və cəmiyyətə inteqrasiyası tədbirləri ilə yanaşı, onların məşğulluğunun təminatı istiqamətində də işlər aparılır. Bu işlərin davamı olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi 2025-ci ildə əlilliyi olan daha 5800 şəxsi işlə təmin edib. Özünüməşğulluq proqramının icrasında digər həssas qruplar kimi, əlilliyi olan şəxslərə də üstünlük verilir.

2025-ci ildə agentlik tərəfindən əlilliyi olan 1300-ə yaxın şəxs üçün proqram çərçivəsində kiçik ailə təsərrüfatları yaradılıb. Agentlik tərəfindən Azərbaycan Karlar Cəmiyyəti, Gözdən Əlilliyi olan Şəxslər Cəmiyyəti, digər müxtəlif təşkilatlar, ictimai birliklər və işəgötürənlərlə əməkdaşlıq edilməklə əlilliyi olan şəxslər üçün peşə hazırlığı kursları təşkil olunur. Ötən il bu kateqoriyadan olan 500-dək şəxs peşə kurslarına cəlb olunub. Kursları uğurla başa vurmuş şəxslərin işlə təminatına da dəstək göstərilib.

***Mustafa KAMAL***
***XQ***

*Sağlamlıq*

**Milli Məclisin "Onkoloji yardım haqqında" qanuna etdiyi son düzəlişə əsasən, onkoloji yardım yalnız ixtisaslaşmış dövlət tibb müəssisələrində deyil, eyni zamanda, özəl klinikalarda da həyata keçiriləcək.**

# Özəl klinikalarda da onkoloji müalicə aparılacaq

*Xəstələrdən ödəniş tələb ediləcəkmi?*

Bu yeni qanunla onkoloji xəstələrin müalicəsində nə dəyişəcək? Müayinə və müalicə xərcləri necə olacaq? Bu xidmət hansı özəl klinikalarda göstəriləcək?

"Onkoloji yardım haqqında" qanuna görə, bu xidmət yalnız dövlət tibb müəssisələrində onkoloq həkim tərəfindən aparıla bilərdi. Hətta diaqnoz xəstənin başqa problemlə bağlı müayinə zamanı təsadüfən dövlət xəstəxanasında aşkarlansa belə, müalicə üçün xüsusi ixtisaslaşmış müəssisələrə göndərilməli idi. Bundan kənara çıxmaq qanuna zidd hesab olunurdu.

Müalicə, dərman vasitələri ilə təminat, kimyaterapiya və s. icbari tibbi sığortadan əvvəl də dövlət proqramları hesabına həyata keçirilirdi. İTS tətbiq olunduqdan sonra onkoloji müalicənin sığorta hesabına qarşılanması mümkün olmadı, çünki fondun vəsaiti onkoloji xəstələri əhatə etməyə imkan vermir.

Son 1 ildə bəzi müayinələr İTS hesabına daxil edilib. Dövlət müəssisələrində onkoloji xəstələrin artımı, xəstəxanaların əsasən Bakıda cəmləşməsi bir çox hallarda xəstə sıxlığı və tibbi yardımın ləngiməsi ilə müşahidə olunur. Buna görə də insanlara alternativ tibbi xidmət təklif edilməsi labüd oldu.

**Milli Onkologiya Mərkəzinin onkoloqu, Əməkdar həkim Elçin Mansurov xərçəng xəstələri üçün yeni dəyişikliyin mahiyyətini açıqladı:**

– Qanuna yeni dəyişiklik ondan ibarətdir ki, onkoloji müalicə əvvəlki qaydada dövlət tibb müəssisələrində dövlət proqramları hesabına aparılacaq. Təcili tibbi yardım istər özəl, istər dövlət müəssisələrində ödənişsiz göstərilir. Özəl klinikalarda onkoloji müalicə isə vətəndaşın öz maddi vəsaiti hesabına aparılacaq. Yenilik ondadır ki, özəl sektorun bu sahəyə çıxışı qanuniləşdi. Bundan sonra xidmətdə rəqabət güclənəcək.

Özəl xəstəxanalarda lisenziya ilə hansı tibbi xidmətlərin göstəriləcəyi, hansı şöbələrin olacağı qeyd edilir. Onkoloji xidmət də bu siyahıya daxil ediləcək. Ola bilər ki, sırf onkoloji xəstəliklərlə məşğul olan özəl klinikalar açılsın. Amma bu müəssisələr müasir standartlara cavab verməlidir.

Bəziləri düşünür ki, onkoloji xidmətlə hər kəs istədiyi kimi məşğul ola bilər. Bu, qətiyyən belə deyil. Onkoloji xidmət yüksək kadr potensialı, elmi baza və ciddi maddi-texniki imkanlar tələb edir.

**Elçin Mansurov özəl klinikalarda çalışacaq kadrlardan da söz açdı:**



– Milli Onkologiya Mərkəzi dünyanın aparıcı onkoloji mərkəzlərindən geri qalmır, əksinə, öndədir. Sadəcə, xəstə sayı çoxdur, bəzən fiziki olaraq çatdırmırıq, növbələr yaranır. Amma xəstələr əvvəllər də özəl klinikalara və ya xarici ölkələrə gedirdilər.

Robotik əməliyyat Qafqazda ilk dəfə Milli Onkologiya Mərkəzində həyata keçirilib. Kimyaterapiyada tətbiq etmədiyimiz protokol yoxdur. Problem ağıllı dərmanlarla təminatdır, o da həll olunacaq.

Bəzən xəstələr pullarını xaricdə və ya özəl klinikalarda xərcləyir, imkanları tükənəndə Milli Onkologiyaya gəlirlər. Bir problemin üstünə başqa problem əlavə olunur. Ümid edirəm, bu qanun xəstələr üçün faydalı olacaq.

Elçin Mansurov hesab edir ki, dəyişikliklər ciddi çevriliş yaratmayacaq. Özəl klinikalar mütəxəssis seçimində diqqətli olmalıdır və Milli Onkologiya Mərkəzi onlar üçün təcrübə bazası ola bilər.

O, baş-boyun şöbəsində professor Əziz Əliyev, neyrocərrah Rasim Babayev, süd vəzi onkologiyası üzrə Tahir Nəcəfov və Cavid Qəribov, həmçinin Şəmistan Alıyev kimi mütəxəssislərin fəaliyyətini xüsusi qeyd etdi. Vurğuladı ki, PET müayinələrinin nəticələri beynəlxalq səviyyədə qəbul olunur, şüa aparatları Amerika istehsalıdır və MDB ölkələrindən mütəxəssislər burada təcrübə keçirlər.

"Onkologiya sözü bizdə qorxu yaradır. Qətərdə onkoloji xəstəxananın adını "Ümid xəstəxanası" qoyublar", – deyən həkim əlavə etdi ki, "mən 40 ildən çoxdur bu sahədəyəm. Akademik Cəmil Əliyevin rəhbərliyi ilə Qafqazda analoqu olmayan mərkəz yaradılıb. Hesab edirəm ki, özəl klinikalar buradan çox şey öyrənməlidir".

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Aqrar elmin Horovluya yaşıl himayəsi

**Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) birgə təşkilatçılığı ilə Cəbrayıl rayonunun Horovlu kəndində ağacəkmə aksiyası keçirilib.**



Ağacəkmə aksiyasında iştirak edən ADAU-nun professor-müəllim heyəti və tələbələr əvvəlcə kəndin infrastrukturu ilə tanış olublar. Aksiya çərçivəsində çıxış edən ADAU-nun rektoru Zəfər Qurbanov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa, quruculuq və yaşıllaşdırma işləri ölkənin davamlı inkişafına mühüm töhfə verir. Bu proseslərdə elm və təhsil müəssisələrinin fəal iştirakı həm böyük qürur mənbəyi, həm də mühüm sosial məsuliyyətdir.

Rektorun sözlərinə görə, həyata keçirilən belə ekoloji aksiyalar ətraf mühitin qorunmasına, yaşıllıq sahələrinin genişləndirilməsinə və gələcək nəsillər üçün sağlam yaşayış mühitinin formalaşdırılmasına xidmət edir.

Aksiya çərçivəsində ADAU-nun təmsilçiləri kəndin park ərazisində 400 kvadratmetrlik sahədə 600 ədəd lavanda və 400 rozmarin, 1200 qızılgül əkiblər. Bundan əlavə, Horovlu kənd sakinlərinə 100 ədəd şaftalı və 300 ədəd gilas tingləri paylanılıb.

***XQ***

*I Ümumittifaq Türkoloji Qurultay*

# 100 il sonra "danışan" məxfi sənədlər

## *Arxiv materiallarının xronoloji transkripsiyası, seçmə tərcümələr və şərhlər*

***(əvvəli 18, 20 fevral 2026-cı il tarixli saylarımızda)***

Türkologiya sahəsindəki fəaliyyət göstərən ayrı-ayrı şəxslərin öz işlərinin nəticələri və əldə olunan yeni nailiyyətlər, eləcə də ayrı-ayrı Sovet respublikalarında türkologiya üzrə görülmüş işlərin ümumi yekunları ilə bağlı xüsusi məruzələrin gündəliyə daxil edilməsinə etiraz edilməsin.

Yuxarıda göstərilən təşkilatlardan və onların təklif etdiyi şəxslərdən dəyişiklikləri, əlavələri, məruzələri və həmməruzələri bu protokolun alınmasından sonra iki həftə ərzində müvafiq təşkilat və komissiyalara bildirmələri xahiş olunsun.

Beləliklə, Türkoloji Qurultayın çağırılması ilə bağlı Komissiya qərarının ümumi nəticələri:

**I siyasi və elmi kontekstdə**

Bu qərar SSRİ-də yaşayan türk-tatar xalqlarının mədəni-maarifləndirilməsi, dil və kimlik məsələlərinin elmi əsaslarla öyrənilməsi, tənzimlənməsi üçün böyük əhəmiyyət daşıyır.

**Qurultayın çağırılması:**

SSRİ rəhbərliyinin türk dillərinin tədqiqinə verdiyi strateji əhəmiyyəti, elmi dairələrin, xüsusilə etnoqrafların türkologiyaya olan yüksək marağını, bu sahədə koordinasiyalı dövlət siyasəti aparmaq niyyətini əks etdirir.

SSRİ bu vasitə ilə həm öz türk-müsəlman vətəndaşlarının mədəni ehtiyaclarını "tənzimləmək", həm də türkologiya sahəsində beynəlxalq elmi mühitdə aparıcı rol oynamaq istəyir.

**II Qurultayın keçirilməsi ilə bağlı əsas qərarlar. Elmi və praktiki əhəmiyyəti yüksək olan məsələlərin müzakirəsi üçün qurultayın çağırılmasının zəruriliyi və təxirəsalınmazlığı**

*1. Keçirilmə yeri: Bakı şəhəri türk-tatar respublikalarının mərkəzində yerləşdiyi və mədəni-coğrafi baxımdan əlverişli olduğu üçün toplantılara ideal yerdir.*

*2. Keçirilmə vaxtı: 1925-ci ilin sonu – dekabrın əvvəlində.*

*3. Tərəfdaşlıq prinsipi: SSRİ daxilində respublikalar və qurumların maraqlı rəyi sorğulanır. Bu da göstərir ki, tədbir "mərkəzdən idarə olunan" olsa da, formaca kollegial və çoxtərəfli müzakirəyə açıqdır.*

**III. Qurultayın gündəliyi və məqsədləri**

Qurultayın gündəliyi elmi və təşkilati baxımdan olduqca genişdir və aşağıdakı əsas sahələri əhatə edir:

*a) türk dillərinin təsnifatı, mənşəyi və tarixi inkişafı;*

*b) fonetika, morfologiya və terminologiya məsələləri;*

*c) yazı sistemləri: ərəb, latın, rus, monqol, akademik və s.;*

*ç) qohumluq əlaqələri: fin-uqor, monqol dilləri və etnik nəzəriyyə;*

*d) ibtidai dinlər və tarix;*

*e) orfoqrafiya və tədris metodikası.*

Təşkilati məsələlər və elmi koordinasiyası göstərir ki, qurultay vahid dil siyasəti, ortaq terminologiyanın formalaşdırılması üçün də siyasi və mədəni bir platforma rolunu oynayır.

**IV. Təşkilati mexanizmlər**

1. Gündəliyin geniş müzakirəyə verilməsi, dəyişikliklərin təklif edilə bilməsi, tədbirin elmi-ictimai xarakter daşıdığını göstərir.

2. Təkcə dövlət orqanları deyil, akademiyalar, şərqşünaslıq assosiasiyaları, regional bürolar, xalq maarif komissarlıqları və fərdi mütəxəssislər də prosesə cəlb edilir.

3. Bu struktur SSRİ-də türkologiyanın planlı şəkildə mərkəzləşdirilmiş formada qurulmasının ilkin nümunəsidir.

**V. Simvolik və geosiyasi mahiyyəti**

Qurultayın keçirilməsində Bakı şəhərinin seçilməsi həm coğrafi mərkəz, həm də 1920-ci illərdə Sovet türkologiyasının paytaxtı kimi tanıtmaq istəyindən irəli gəlir.

Bu sənəd bir daha göstərir ki, 1926-cı il Türkoloji Qurultayı bütün türkdilli xalqlar arasında mədəni-siyasi inteqrasiya vasitəsi olaraq SSRİ-nin türkologiya sahəsində dövlət səviyyəsində ideoloji idarəetmə mexanizmi qurmaq cəhdi ilə yanaşı, elmi müzakirələr vasitəsilə vahid yazı, dili, əlifba, terminologiya və tədris üsullarının formalaşdırılması məqsədini güdür.

1 saylı protokolun davamı qurultayın təşkilati məsələləri – nümayəndələrin sayı, bölgüsü, dillər, gündəliyə əlavə məsələlər və iştirakçı institutlar – əhatə edir.



Eşidildi:

6. Məruzələrin və qurultay işinin dili barədə

Qəbul edildi:

Qurultayın işi və bütün məruzələr türk və rus dilində aparılsın. Eyni zamanda, türkdilli nümayəndələrin doğma dillərində və ya beynəlxalq dillərdən birində öz məruzələrini və çıxışlarını təqdim etmələrinə icazə verilsin, onlara maneə törədilməsin.

Eşidildi:

7. Gündəliyə əlavə məsələlərlə bağlı məruzələr barədə

Qəbul edildi:

Hazırda gündəlik məsələlər üzrə məruzəçiləri təyin etməmək. Bütün təşkilatlara və şəxslərə gündəlik plan layihəsi və bu protokol göndəriləcək, onlardan hansı məsələlər üzrə məruzə hazırlaya biləcəklərini bildirmələri xahiş olunacaq. Onlardan bu haqda 1 oktyabra qədər cavab vermələri xahiş olunacaq.

Eşidildi:

8. Nümayəndələrin sayı barədə

Qəbul edildi:

İttifaq respublikaları və muxtar respublikalar, eləcə də SSRİ və xaricdən xüsusi dəvətlə gələcək şəxslər üçün qurultaya göndəriləcək nümayəndələrin ümumi sayı 120 nəfər olaraq müəyyən edilsin.

Eşidildi:

9. Yerlərin bölgüsü barədə

10. Qəbul edildi:

I. Aşağıdakı respublikaların və vilayətlərin Elmi Maarif Komissarları tərəfindən Qurultaya göndəriləcək nümayəndə sayı:

1. Azərbaycan – 6 nümayəndə
2. Gürcüstan (yerli türklər üçün) – 1 nümayəndə
3. Ermənistan – 1 nümayəndə
4. Dağıstan – 4 nümayəndə
5. Türkmənistan – 2 nümayəndə
6. Naxçıvan – 1 nümayəndə
7. Qaraçay vilayəti – 1 nümayəndə
8. Balqar vilayəti – 1 nümayəndə
9. Krım Respublikası – 1 nümayəndə
10. Tatarıstan – 2 nümayəndə
11. Başqırdıstan – 2 nümayəndə
12. Qırğızıstan – 1 nümayəndə
13. Özbəkistan – 3 nümayəndə
14. Qara Qırğız vilayəti – 1 nümayəndə
15. Türkmənistan – 3 nümayəndə
16. Orta vilayətlər – 2 nümayəndə
17. Yakut Respublikası – 1 nümayəndə
18. RSFSR Maarif Komissarlığının Türkdilli bölməsi tərəfindən – 2 nümayəndə

(Avtonom respublika və vilayətlərdə yaşayan türkdilli xalqlar üçün)

Çeçen, İnquş, Şimali Osetiya, Kabardin, Adıgey, Çərkəz, Kalmık Respublikası nümayəndələrinin də Qurultayda əlifba islahatı və latın əlifbasının qəbulu məsələlərinin müzakirəsində iştirak etmələri olduqca arzuolunandır.

II. Sovet Respublikasının türkologiya və şərqşünaslıqla məşğul olan ali elmi və tədris müəssisələri:

1. Ümumittifaq Şərqşünaslıq Elmi Assosiasiyası – 3 yer
2. SSRİ Elmlər Akademiyası – 2 yer
3. Moskva Şərqşünaslıq İnstitutu – 1 yer
4. Leninqrad Şərqşünaslıq İnstitutu – 1 yer
5. Kazan Universiteti – 1 yer
6. Daşkənd – 1 yer
7. Bakı Dövlət Universiteti – 1 yer
8. Leninqrad Dövlət Universiteti – 1 yer
9. Krım Dövlət Universiteti – 1 yer

III. SSRİ-dən xüsusi dəvət edilən elm və mədəniyyət xadimlərinin ümumi sayı – 30 nəfər. Bu şəxslərin adları dəyişikliklə protokola əlavə ediləcək və yerləri bölgü ilə veriləcək.



IV. Qurultayda iştirak edəcək tanınmış türkoloqların, xüsusilə Türkiyə və digər xarici ölkə mütəxəssislərinin iştirak etməsi arzuolunandır. Onların siyahısı tərtib ediləcək və dəvət olunmaları üçün tədbirlər görüləcək.

Bu sənəd də 1 saylı potokolun davamıdır və əsasən təşkilati məsələlər ilə bağlı qərarları əhatə edir.

Eşidildi:

10. Türkoloji Qurultayın çağırılması üzrə Təşkilat Komissiyasının tərkibi haqqında.

Qərara alındı:

Komissiyanın tərkibinə həlledici səs hüququ ilə aşağıdakı şəxslər daxil edilsin:

Alimcan İbrahimov (Kazan), Zinətulla Novşirvanva, Türakulova, Odabaş, Baytursun.

Təşkilat Komissiyasının tərkibi aşağıdakı şəkildə müəyyən edilsin:

Başqan – Ağamalıoğlu (sədr), sədr müavinləri – Mixail Pavloviç və Həbib Cəbiyev.

Üzvlər: Q.İ.Braydo, professor Samoyloviç, professor Çobanzadə, akademik Bartold, professor Aşmarin, A. Qorxmasov, Zifeld, Fikrət Odabaş, Türakulova, Zinətulla Novşirvanva, Alimcan İbrahimov, Peninov, Baytursun və Əli Yusifzadə (məsul katib).

Eşidildi:

11. Sovet respublikalarında yardım komitələri haqqında.

Qəbul edildi:

SSRİ-nin bir sıra ittifaq və muxtar respublikalarının paytaxtlarında qurultaya kömək üzrə komitələrin yaradılması zəruri hesab edilsin.

Leninqradda yaradılacaq komitənin tərkibinə professor Samoyloviç, akademiklər Marr və Bartold daxil edilsin.

Moskvada belə komitə Sovet Elmi Şərqşünaslıq Assosiasiyası nəzdində fəaliyyət göstərsin.

A) Kazanda yardım komitəsinin təşkili Alimjan İbrahimova tapşırılsın;

B) Samara şəhərində yardım komitəsinin təşkili Fikrətə tapşırılsın;

C) Simferopolda yardım komitəsinin təşkili Odabaşa tapşırılsın.

Bütün yardım komitələri ilə vaxtaşırı əlaqə yaradılması, onların qurultayın hazırlığı və gedişi barədə hesabatlarının alınması təmin edilsin.

Eşidildi:

12. Qurultayın xərcləri:

Peninov, Əli Yusif və Cəbiyev Bakıya səfərə dəvət edilən rəsmi şəxslərin qarşılanması, yerləşdirilməsi və geri yola salınması ilə bağlı xərcləri hesablayaraq smeta tərtib etsinlər.

Qurultay dövründə iştirakçıların yemək, məskunlaşma və digər ehtiyacları təşkilat komissiyası tərəfindən təmin edilsin.

Eşidildi:

13. Elmi və hesabat nəşrləri

Qərara alındı:

Qurultay zamanı SSRİ respublikalarının əlifba islahatı və xüsusi mədəni məsələlərinə dair ən əhəmiyyətli və aktual materialların nəşri zəruri hesab edilsin.

Təşkilat Komissiyasının fəaliyyətini və hazırlıq prosesini əks etdirən dövri "Bülleten" nəşr edilsin.

Redaksiya heyətinin tərkibi: Mixail Pavlov (məsul redaktor), prof. Çobanzadə, Fikrət, prof. Samoyloviç və Cəbiyev

Prof. Çobanzadə və Cəbiyevə "Bülleten"in birinci buraxılışı üçün smeta hazırlamaq və materialların toplanması tapşırılsın.

Eşidildi:

1. Kitab sərgisi

Qərara alındı:

Qurultay zamanı Bakıda türk-tatar dillərində nəşr olunmuş materiallardan ibarət sərgi keçirilsin. Sərgidə ədəbiyyat əlifbalara görə (ərəb, latın və s.) və respublikalara görə təsnifləşdirilsin (bədii ədəbiyyat, terminologiya və s.).

Katibliyə tapşırılsın ki, Komissiya adından bütün nəşriyyatlara müraciət etsin və onlardan istər türk-tatar dillərində, istərsə də Sovet Şərqində işlədilən bütün əlifbalarda öz nəşrlərini təqdim etmələri xahiş olunsun.

*Sədr:*

*Katib: Əli Yusif*

* * *

Beləliklə, Qurultayın əsas dilləri: türk və rus; türkdilli nümayəndələrə doğma və beynəlxalq dillərdə çıxış etmək imkanı verilir: bu qərar həm elmi ünsiyyət, həm də mədəni inklüzivlik baxımından önəmli addımdır. Məruzəçilər könüllü şəkildə çıxış edə bilirlər, bunun üçün bütün təşkilatlara gündəlik plan layihəsi və protokol göndərilir, hətta onlara 1 oktyabra qədər cavab üçün vaxt verilir.

Qurultayda iştirakçıların sayı: 120 nəfər nəzərdə tutulur və bu say 4 istiqamətdə paylanır:

1. İttifaq və muxtar respublikalar (məsələn, Azərbaycan, Dağıstan və s.);
2. Ali elmi-tədris qurumları (məs., Ümumittifaq Şərqşünaslıq Elmi Assosiasiyası, Bakı Dövlət Universiteti və s.);
3. SSRİ-dən xüsusi dəvətlilər;
4. Xarici ölkələrdən türkoloqlar.

Təşkilat Komissiyasının tərkibi (məsələn, sədr S.Ağamalıoğlu, sədr müavinləri: Mixail Pavlov və Həbib Cəbiyev, üzvlər Çobanzadə, Bartold, Samoyloviç, Aşmarin, Qorxmasov, Zifeld və b) SSRİ-nin həm türk, həm də rus intellektualları ilə balanslaşdırılmışdır. Qurultaya hazırlıq məqsədilə Moskva, Leninqrad, Kazan, Samara, Simferopol kimi iri şəhərlərdə yerli yardım komitələri yaradılmış, bunlar müntəzəm əlaqədə qalmalı və hesabat verməlidirlər.

Səfər, yerləşmə, yemək və digər xərclərlə bağlı Peninov, Əli Yusif və Cəbiyev smeta hazırlayır. Bu, maliyyənin planlı şəkildə təşkil olunması qərarının texniki peşəkarlığını göstərir.

Qurultay materiallarının və əlifba islahatına dair sənədlərin nəşri nəzərdə tutulur, "Bülleten" adlı dövri nəşrə hazırlıq görülür, redaksiya heyətinə Pavlov, Samoyloviç, Çobanzadə, Fikrət, Cəbiyev kimi ciddi alim və təşkilatçılar daxil edilir.

Bakı şəhərində keçiriləcək sərgidə ərəb, rus, latın qrafikaları ilə türk-tatar dillərində nəşrlər nümayiş etdiriləcək. Kitab sərgisi həm elmi, həm də ideoloji baxımdan SSRİ-nin çoxdilli siyasətini – türkdilli ziyalıların və sovet nəşriyyat sisteminin sinxronizasiyasını nəzərdə tutur.

Göründüyü kimi, rus dilinin rəsmi statusu, hegemonluğu qorunmaqla türkdilli çıxışlara şərait yaradılması, əslində, elmi və siyasi balansda SSRİ-nin türk xalqları arasında "bərabər təmsilçilik görüntüsü yaratmaq" istəyindən xəbər verir. Həm respublikalar, həm də elmi qurumlar təmsil olunur – bu, sosial və ideoloji elitanın sintezidir. Açıq-aydın nəzərə çarpır ki, qurultayın əsas məqsədlərindən biri latın əlifbasına keçidi sistemləşdirməkdir, "Bülleten"lər də ideoloji nəzarət və təşviqat məqsədi daşıyır.

Kadr seçiminə gəldikdə, komissiya üzvləri arasında həm SSRİ elmi elitasının nümayəndələri (Bartold, Samoyloviç), həm də milli ziyalılar (Çobanzadə, İbrahimov, Baytursun və s.) yer alırlar. Şübhəsiz ki, bu balanslı kadr siyasəti etimad yaratmaqla yanaşı, nəzarət mexanizmi də təmin edir.

1926-cı il Bakı Türkoloji Qurultayı elmi konfransdan çox, planlaşdırılmış ideoloji-siyasi proqramdır: Sovet rəhbərliyi bu tədbirdən türk xalqlarının yeni ortaq mədəni kodunu yaratmaq, latınlaşma siyasətini legitimləşdirmək və elmi ictimaiyyəti siyasi layihəyə inteqrasiya etmək məqsədilə alət kimi istifadə etmişdir.

T.Menzel də yazırdı ki, başlanğıcda İstanbul və Ankaradakı türk alimlərinin qurultayda iştirakı planlaşdırılmışdı. Lakin əlifba məsələsindəki qeyri-müəyyənlik və bəzi xoşagəlməz hadisələr səbəbindən bütün alimlər qatılmaqdan imtina etdilər. Leninqrad akademiyasının nümayəndələri, türkoloqlar bəzi narahatlıqları səbəb göstərərək iştiraklarını təxirə salmışdılar. Dəvətnamələrin vaxtında çatmaması səbəbindən 1926-cı il yanvarın 3-dən 6-dək qurultaya hazırlıq xarakterli görüşlər keçirilir. 30 dekabr 2025-ci ildə göndərilən dəvətnamələrin gecikmə səbəblərinin nəzərə alınmaması reallığı göstərir. İlk xarici qonaq T.Menzel 03 yanvar 2026-cı il tarixində Tiflis üzərindən Bakıya gəlir, məhz burada qurultayın təxirə salındığını eşidir. Həmin gün təşkilat komissiyası I Türkoloji Qurultaydan öncə gündəmin və iştirakçıların yekun formalaşdırılması məqsədilə ümumi iclas çağırır. İclasda qərar alınır ki, gündəm və proqram yenidən işlənsin, dəvət olunan türk xalqlarının coğrafi spektri genişləndirilsin, 3-6 yanvar tarixlərində sessiyada çıxış edəcək şəxslərin siyahısı müəyyən edilsin. T.Menzelin qeydlərindən:

3 yanvar 1926-cı il tarixli iclasda Yardım Komitəsinin 12 əsas üzvü iştirak edirdi:

**S.Ağamalıoğlu, Pavloviç, Məmmədzadə, Zifeld, Samoyloviç, Qorkmasov, Baytursun, Aşmarin, Çobanzadə, Odabaş, Peninov, Əli Yusifzadə.**

Əlavə olaraq aşağıdakı nümayəndələr iclasa qatılmışdılar:

Leninqraddan: Oldenburq, Tomasovski (Leninqrad Universitetinin keçmiş rektoru)

Moskvadan: Veltman, Peskovski

Azərbaycandan: H.Zeynallı, İsmayıl Hikmət (ədəbiyyat tarixçisi, müəllim), dörd cildlik "Türk ədəbiyyatı tarixi" müəllifi

Kazandan: Əziz Ubeydulin

Türkmənistandan: Berdıyev

Özbəkistandan: Əbdülcabbarov

Almaniyadan: Menzel (yəni mən)

T.Şahbazi və H.Rəfiq – nümayəndəlikdən

* * *

Elə ilk gündən Bakıda keçirilən Türkoloji Qurultayla bağlı ziddiyyətli fikirlər irəli sürülür. Fransız türkoloqu Jozef Castagne Rusiyanın Türkoloji Qurultayı toplamaqla Bakını "Türkcə danışan dünyanın baş kəndi", yəni intellektual paytaxtı etməyi hədəflədiyini, başqa birisi Sovetlərin pantürkist düşüncəni zərərsizləşdirmək məqsədilə əks-hücumu kimi qiymətləndirir. İlber Ortaylı isə Bakını "Sovetlər Birliyi və Türkiyə türkolojisinin qarşılaşdığı bir məkan olaraq" dəyərləndirir.

Qurultayda iştirak edən alman türkoloqu Teodor Menzel tədbirin Bakıda keçirilməsinin əsas səbəbini Orta Asiyada həmin dövrdə sabitliyin olmaması kimi izah edir və Bakını türkdilli icmaların ən intellektual şəhəri kimi dəyərləndirir. "Azərbaycanlı siyasi mühacirlərin yaxından əməkdaşlıq etdiyi "Prometey" jurnalı isə əksinə, Türkoloji Qurultaya ümumən skeptik yanaşaraq bütün qərarların Moskvada verildiyini göstərir, alimlərin çıxış və mübahisələrini isə əvvəlcədən hazırlanmış siyasi şou kimi dəyərləndirir".

3 yanvar 1926-cı il Türkoloji Qurultayın Çağırılması üzrə Təşkilat Komissiyasının I Ümumittifaq Türkoloji Qurultayla əlaqədar yerli komitə nümayəndələrinin



I Plenum iclasının protokolu:

Təşkilat Komissiyasının üzvləri: S.Ağamalıoğlu (Azərbaycan), H.Cəbiyev (Azərbaycan), M.Pavloviç (Moskva), C.Məmmədzadə (Azərbaycan), A.Zifeld (Azərbaycan) prof. Samoyloviç (Leninqrad), Qorxmasov (Dağıstan), Baytursun (Qazaxıstan), Aşmarin (Azərbaycan), prof. Çobanzadə (Azərbaycan), Odabaş (Krım), Peninov (Azərbaycan), Əli Yusifzadə (Azərbaycan), yerli yardım komitələrinin nümayəndələri: S.Oldenburq (Leninqrad), V.Berdıyev (Türkmənistan), Abdul Cabbarov (Özbəkistan), prof. Tomaşevskiy (Leninqrad), Veltman (Moskva), H.Zeynallı (Azərbaycan), İsmayıl Hikmət (Türkiyə); qonaqlar: T.Menzel (Almaniya), T.Şahbazi (Azərbaycan), Qubaydulin (Tatarıstan), Rafiqov (Tatarıstan).

*Sədr: S.Ağamalıoğlu*

*Katib: A.Zifeld*

* * *

Təşkilat Komissiyasının üzvləri: S.Ağamalıoğlu (Azərbaycan), H.Cəbiyev (Azərbaycan), M.Pavloviç (Moskva), C.Məmmədzadə (Azərbaycan), A.Zifeld (Azərbaycan) prof. Samoyloviç (Leninqrad), Qorxmasov (Dağıstan), Baytursun (Qazaxıstan), Aşmarin (Azərbaycan), prof. Çobanzadə (Azərbaycan), Odabaş (Krım), Peninov (Azərbaycan), Əli Yusifzadə (Azərbaycan), yerli yardım komitələrinin nümayəndələri: S.Oldenburq (Leninqrad), V.Berdıyev (Türkmənistan), Abdul Cabbarov (Özbəkistan), prof. Tomaşevskiy (Leninqrad), Veltman (Moskva), H.Zeynallı (Azərbaycan), İsmayıl Hikmət (Türkiyə); qonaqlar: T.Menzel (Almaniya), T.Şahbazi (Azərbaycan), Qubaydulin (Tatarıstan), Rafiqov (Tatarıstan).

*Sədr: S.Ağamalıoğlu*

*Katib: A.Zifeld*

* * *

Dinlənildi:

Sədr S.Ağamalıoğlu, iclası açaraq Təşkilat Komissiyasının plenum iclasının əhəmiyyətinə toxundu. O bildirdi ki, Qurultayın çağırılması fikri təkcə elmi dairələrdə deyil, türk xalqları arasında da böyük ruh yüksəkliyi ilə qarşılanmış, ictimai-siyasi marağa səbəb olmuşdur. Bu toplantı yalnız elmi məqsəd daşımır, eyni zamanda, türk-tatar xalqlarının ortaq mədəni və siyasi problemlərinin müzakirəsi üçün mühüm platforma olacaqdır. Ağamalıoğlu qeyd etdi ki, bu Qurultay Şərqlə Qərbin elmi əməkdaşlığında körpü rolu oynayacaq və ümumtürk elminin formalaşmasında əlamətdar hadisə olacaqdır.

Katib Zifeld iclasın gündəliyini elan edir.

Gündəlik üzrə məsələlər:

1. Qurultayın çağırılma tarixi və əsaslandırılması
2. Qurultay iştirakçılarının tərkibi
3. Qurultayın keçirilməsi haqqında proqram və nizamnamə
4. Yerli komitələrin qurultayda çıxışı
5. Əlişir Nəvainin yubileyi
6. Qurultayın seksiyaları və reqlament
7. Mətbuatla əlaqə və nəşr işləri, ədəbiyyat sərgisi, teatr incəsənətinin nümayişi, ekskursiyalar

Qurultayın çağırılma tarixi və əsaslandırılması.

C.Məmmədzadə qurultayın çağırılması tarixçəsi və təşkilatlandırılma səbəbləri haqqında qısa məlumat verdi. O, Təşkilat Komissiyasının apardığı işləri qeyd edərək qurultayın keçirilmə tarixinin 1926-cı il 20 fevral tarixi üzərində dayanmağı təklif edir və məqsədəuyğun bilir.

Qurultayın keçirilmə tarixi 1926-cı il 20 fevral yox, qəti olaraq son vaxt 2 fevral təyin edildi. Qorxmasov məlumat verdi ki, həmin ilin 10 fevral tarixində Moskvada SSRİ Mərkəzi Komitəsinin sessiyası başlayır, yəqin ki, 20-dək uzanacaq və qurultay iştirakçılarının bir qismi orada iştirak edəcəklər.

Qurultayın keçirilmə tarixi təsdiqlənmir, bu məsələ açıq qalır.

II Qurultayın tərkibi

Cəbiyev qurultaya dəvət olunacaq nümayəndələrin siyahısı üzərində aparılmış ilkin işlər barədə məlumat verdi və bəzi əlavələrin edilməsinin zəruri olduğunu bildirdi. O qeyd etdi:

– Çuvaş, Xakas vilayətlərindən, xüsusilə türk mənşəli əhali yaşayan bölgələrdən nümayəndələr cəlb edilməlidir; Qazaxıstanın Kuznrtskiy rayonu kimi mərkəzlərdən, habelə Türkmənistan və Qırğızıstandan nüfuzlu elm və ictimai xadimlərin iştirakı təmin olunmalıdır; Qaraqalpaq bölgəsindən 2 nəfər, Dağlılar bölgəsindən isə 1 nəfər nümayəndə ayrılması məqsədəuyğundur; əgər dəvət məktubları artıq göndərilibsə belə, əlavə dəvətlər üçün tədbirlər görülməlidir. Qurultayda xarici iştirakçıların siyahısı genişləndirilsin, ümumi nümayəndə sayı 15 nəfər müəyyən edilsin.

İclas davam edir...

***(ardı var)***

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

Xocalı soyqırımı–34

# Erməni millətçilərinin insanlığa qarşı vəhşilik aksiyası

**Azərbaycan xalqına qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi XVIII yüzilliyin 20-ci illərindən başlayır. Həmin dövrdən etibarən Cənubi Qafqazda öz mövqeyini möhkəmləndirməyə çalışan çar Rusiyası ermənilərdən bir vasitə kimi istifadə etmək üçün onlara Qafqazda erməni dövləti yaradacağı vədi verirdi. Həmçinin 1724-cü il noyabrın 10-da Pyotrun adından verilmiş fərmanda çar Rusiyasının zəbt etdiyi torpaqlarda, o cümlədən Azərbaycan torpaqlarında ermənilərin məskunlaşdırılması nəzərdə tutulurdu.**



Son 200 ildən artıq bir müddətdə Azərbaycan tarixində bir çox şanlı səhifələrlə yanaşı, faciə və soyqırımları, müsibətlərlə dolu səhifələr də yer alıb. Belə ki, xalqımız erməni millətçi- şovinistlərin etnik təmizləmə, soyqırım siyasətinə, dəhşətli vəhşiliklərə məruz qalıb, öz ata-baba torpaqlarından qovulub, qaçqın, məcburi köçkünə çevrilib. 1992-ci ilin fevralında törədilmiş Xocalı soyqırımı təkcə Azərbaycan xalqına deyil, insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

1918-ci il mart soyqırımından (31 mart – 2 aprel və sonrakı aylarda) 74 il sonra Azərbaycan xalqına qarşı törədilən Xocalı faciəsi İkinci Dünya müharibəsində faşizmin dəhşətli qırğınlarından sonra müasir dövrdə Ermənistan hərbi qüvvələrinin erməni separatçı terrorçuları və Rusiyanın 366-cı motoatıcı alayının əsgərləri ilə birlikdə həyata keçirdikləri ən kütləvi, ən dəhşətli soyqırımıdır. Belə ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi (Stepanakert) şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etdilər.

### Nə üçün Xocalı əsas hədəf kimi seçilmişdi?

Erməni silahlı dəstələrinin Xocalıya hücumunu şəhərin coğrafi mövqeyi şərtləndirdi. 7 mindən çox əhalisi olan Xocalı şəhəri Xankəndidən 10 kilometr cənub-şərqdə, Qarabağ dağ silsiləsində və Ağdam-Şuşa, Əskəran-Xankəndi, yollarının üstündə yerləşir. Həmçinin Qarabağdakı yeganə hava limanı da Xocalı şəhərindədir.

Xocalı soyqırımı 1988-ci ildən başlamış və Azərbaycanın tarixi torpağı olan Qarabağın Ermənistana birləşdirilməsi iddiasının gerçəkləşdirilməsi əsasında yaranmış keçmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dəhşətli, qanlı faciəsi idi.

Xocalı faciəsi planlaşdırılmış hadisə idi. 1991-ci il oktyabrın ortalarından şəhər blokadaya alınmış, avtomobil əlaqəsi kəsilmişdi. Yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və 40 nəfərin həlakından sonra isə Xocalı ilə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən elektrik verilişi dayanmışdı. Sanki şəhər Azərbaycan rəhbərliyinin diqqətindən kənarda qalmışdı, lazımi və vaxtında kömək edilmirdi, yalnız yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun döyüşçüləri tərəfindən müdafiə olunurdu. 1992-ci il fevralın 16-dan etibarən erməni silahlı dəstələri Xocalı mühasirəyə alaraq, müntəzəm şəkildə hər gün, müxtəlif saatlarda artilleriya və ağır texnikadan atəşə tuturdu.

Xocalıya hücum fevralın 25-dən 26-na keçən gecə 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması və tanklardan, "Alazan" tipli zenit toplardan 2 saatlıq atəşdən sonra başladı. Həmin alayın tərkibində "Klukin erməni cəbhəsi" adlanan "rota" da yaradılmışdı. Onun özəyini xaricdəki erməni icmalarını təmsil edən quldur birləşmələri təşkil edirdi. Fevralın 17-də isə həmin rotaya qızlardan ibarət "Şuşanik" adlı erməni snayperçiləri dəstəsi də qoşulmuşdu. Xocalıya 3 istiqamətdən hücum təşkil edildiyindən şəhər əhalisi Əskəran istiqamətində qaçmağa məcbur olmuşdu. Bu isə düşmənin məkrli hiylləsi idi. Belə ki, Naxçıvanik kəndi yaxınlığında düşmən əhalinin qarşısını kəsmiş və vəhşicəsinə güllləbaran edilmişdi. Beləliklə, Erməni silahlı qüvvələri və Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhəri işğal edilərək etnik azərbaycanlılara qarşı soyqırımı törədildi, dinc əhaliyə vəhşicəsinə divan tutuldu. Sağ qalan mülki əhali deportasiya olundu və əksəriyyəti Xankəndi şəhərində saxlanıldı.

Şəhər sakinlərinə qarşı vəhşilik, zorakılıq edilmiş, qanunsuz olaraq onların əmlakını Xankəndidə və ətraf məntəqələrdə məskunlaşan ermənilər mənimsəmişdilər.

Erməni silahlı qüvvələri və 366-cı motoatıcı alay tərəfindən şəhər dağıdılmış, yandırılmış, dinc əhaliyə divan tutulmuşdur. Dəhşətli qırğın nəticəsində 613 nəfər həlak olmuşdur, onlardan 63 nəfəri uşaq, 106 nəfər qadın, 70 nəfəri qocadır. Həmçinin 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Düşmən gülləsindən 76-sı uşaq olmaqla 487 nəfər yaralanmış, 1275 nəfər girov götürülmüşdür. Onlardan 150 nəfərini, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil.

Qəhrəman ordumuz tərəfindən azad edildikdən sonra şəhərin mərkəzində aşkar olunan kütləvi insan qalıqları erməni vandalizmini, vəhşiliklərini açıq-aydın göstərir.

Faciə haqqında həqiqətlərin dünyaya çatdırılması və xalqımıza qarşı soyqırımı kimi tanınması üçün ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə gəlməsindən sonra qətiyyətli addım atıldı, ilk dəfə hüquqi-siyasi qiymət verildi. Ulu öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayıb, beynəlxalq ictimaiyyəti erməni terrorizminə, qarşı təsirli tədbirlər görməyə çağırdı. Hazırda artıq dünyanın mütərəqqi dövlətlərində erməni millətçilərinin törətdikləri vəhşiliklər, soyqırımı aktı kimi tanınır.

Ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırımı siyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərpa olunmasına nail olmaq, soyqırımı siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü maddəsində nəzərdə tutulur ki, soyqırımı hər hansı milli,etnik,irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərərvurma və ya onların əqli qabiliyyətlərinə ciddi zərərvurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları başqa qrupa keçirmədə ifadə olunan sülh və bəşəriyyət əleyhinə olan cinayətlərin bir növüdür.

2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası soyqırımının təkcə xalqımıza deyil, bütövlükdə insanlığa, bəşəriyyətə qarşı yönələn ən ağır cinayətlərdən biri kimi tanıdılması baxımından mühüm işlər həyata keçirilir. Xocalı faciəsini soyqırımı kimi tanıyan dövlətlərin, beynəlxalq təşkilatların sayı, xüsusilə 44 günlük Vətən müharibəsində, böyük Qələbədən sonra getdikcə artır. Türkiyə, Pakistan, Sudan, Meksika, Kolumbiya, Çexiya, Bosniya, Herseqovina, Cibuti, Peru, Honduras, Panama, İordaniya, Rumıniya, Şotlandiya və ABŞ-ın 27 ştatı Xocalını qətliam kimi tanıyan sənəd qəbul edib.

20 noyabr 2012-ci il tarixində Cibutidə keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında Xocalıda törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qətnamə qəbul edilmişdir. Artıq təbliğat kampaniyası Amerikadan Avropaya, Mərkəzi Asiya, Yaxın və Uzaq Şərq ölkələri, Avstraliya, hətta Afrikaya qədər geniş bir coğrafiyanı əhatə edir.

Bəşəriyyət XX əsrdə bir çox müdhiş soyqırımı və etnik təmizləmə cinayətlərinin şahidi olmuşdur. Xocalı onların ən dəhşətlisidir. Xocalı soyqırımı təşkilatçıları və icraçıları bəşəriyyətə qarşı ən ağır cinayətlər törətmiş canilər kimi beynəlxalq qanun əsasında mühakimə olunmalıdırlar. Ümummilli lider Heydər Əliyev bu faciəni belə qiymətləndirmişdir: "...Bu qəddar soyqırımı aktı bəşəriyyət tarixinə ən qorxulu kütləvi terror aktı kimi daxil olub". Prezident İlham Əliyev demişdir: "Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu 200 ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi". Azərbaycan xalqı 1918-ci ilin mart-aprel aylarında dinc əhalinin qanlı soyqırımı hadisələrini heç vaxt unutmayacaq.

Azərbaycan Milli Məclisi hər il fevralın 26-nı "Xocalı soyqırımı günü" elan etmişdir. Hər il fevralın 26-da saat 17:00 da Azərbaycan xalqı Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edir. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli ordusunun canı-qanı bahasına Ermənistanın işğalçı ordusu məhv edildi və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olundu.

Hazırda işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Xocalıda Prezident İlham Əliyevin rəhbərliyi və tapşırığı ilə böyük miqyaslı quruculuq işləri gedir.

*İbrahim ZEYNALOV,*
*Bakı Dövlət Universiteti tarix fakültəsinin dekanı, professor*

# Xankəndidə Xocalı qurbanları anıldı






**Xankəndidə Qarabağ Universitetinin inzibati binasında 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə qanunsuz erməni silahlı birləşmələri tərəfindən Xocalının dinc sakinlərinə qarşı törədilmiş insanlığa sığmayan qanlı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım mərasim keçirildi.**

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə keçirilən mərasimdə sözügedən ali təhsil ocağının pedoqoji kollektivi və tələbələri, Xocalı sakinləri, media nümayəndələri iştirak edirdilər.

Açılış nitqi ilə çıxış edən Qarabağ Universitetinin rektoru Şahin Bayramov Xocalı soyqırımının milli yaddaşımızda və dövlətçilik şüurumuzda dərin iz buraxan faciə olduğunu bildirdi. O, qeyd etdi ki, erməni millətçilərinin törətdikləri qanlı soyqırımı aktının 34-cü ildönümünün Xankəndidə fəaliyyət göstərən Qarabağ Universitetində anılması xüsusi rəmzi məna daşıyır. Bu gün işğaldan azad olunmuş torpaqlarımıza, o cümlədən Xocalıya həyatın yenidən qayıtması, bu ərazilərdə aparılan bərpa-quruculuq işləri şəhidlərimizin ruhuna ən böyük təsəllidir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva çıxışında Xocalı faciəsi zamanı beynəlxalq humanitar hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğunu, bu soyqırımının təkcə xalqımıza qarşı deyil, bütün insanlığa qarşı ağır cinayət olduğunu qeyd etdi. Xatırlatdı ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə vəhşiləşmiş erməni silahlı quldurları 613 dinc sakini, o cümlədən qadın və uşaqları amansızcasına qətlə yetiriblər. Minlərlə insan doğma yurd-yuvasından didərgin salınıb.

Bu faciənin azərbaycanlılara qarşı həyata keçirilmiş sistemli etnik təmizləmə siyasətinin tərkib hissəsi olduğunu vurğulayan Ombudsman bildirdi ki, Xocalı soyqırımına ilk siyasi-hüquqi qiymət ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə verilib, sonrakı dövrdə isə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl addımlar atılıb. Bu addımlar sırasında Heydər Əliyev Fondunun həyata keçirdiyi "Xocalıya ədalət!" kampaniyası xüsusi yer tutur.

Sonra Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmovun bacısı, Xocalı hadisələrinin şahidi Füqurə Rüstəmova çıxış edərək faciə gecəsi yaşadığı dəhşətlər, erməni vəhşilərinin xocalılıların başlarına gətirdikləri ağlasığmaz cinayətlər haqqında danışdı. Gəncləri tarixi unutmamağa və həqiqətləri gələcək nəsillərə çatdırmağa çağıran F.Rüstəmova soyqırımının ildönümünün bu gün azad Qarabağımızda qeyd olunmasının şəhid ailələri üçün də qürurverici olduğunu qeyd etdi.

Anım tədbirində qanlı faciəyə həsr olunmuş videoçarx nümayiş etdirildi və sonda Ombudsmanın Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı bəyanatı səsləndirildi.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

# Ombudsmanın beynəlxalq ictimaiyyətə Xocalı soyqırımı çağırışı

**Azərbaycanın insan hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva Xocalı soyqırımının ildönümü ilə əlaqədar beynəlxalq təşkilatlara bəyanat ünvanlayıb.**

Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

Bəyanatda qeyd edilir ki, 1992-ci ilin 26 fevralında Xocalı şəhərində 106-sı qadın, 63-ü uşaq və 70-i ahıl olmaqla, ümumilikdə, 613 nəfər dinc və silahsız mülki əhalinin etnik mənsubiyyətinə görə məqsədli şəkildə, ağır işgəncələrə məruz qalaraq qətlə yetirilməsindən 34 il ötür: "Ermənistan silahlı qüvvələrinin keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının bilavasitə iştirakı ilə Xocalı şəhərində məhz etnik azərbaycanlı olduqlarına görə mülki əhalinin amansızcasına qətlə yetirilməsi Ermənistan tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş sistemli və məqsədyönlü soyqırımı siyasətinin tərkib hissəsi olmuşdur".

Bəyanatda daha sonra deyilir ki, Xocalı soyqırımı nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 130 uşaq bir valideynini, 25 uşaq isə hər iki valideynini itirmiş, habelə 68-i qadın, 26-sı uşaq olmaqla 1275 nəfər girov götürülmüş, ağır müharibə cinayətləri törədilmişdir: "Əvvəlcədən planlaşdırılmış bu cinayətlər etnik azərbaycanlıları milli əlamətlərinə görə qətlə yetirmək, onları tarixən yaşadıqları torpaqlardan zorla didərgin salmaq, əhali arasında qorxu və vahimə yaratmaq məqsədi daşımışdır".

Azərbaycan Ombudsmanı dünya ictimaiyyətinə bəyan edir ki, Xocalı soyqırımı törədilən zaman beynəlxalq insan hüquqları, beynəlxalq humanitar hüquq normaları, o cümlədən "Mülki və siyasi hüquqlar haqqında", "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktların, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə", "Uşaq hüquqları haqqında", "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında", həmçinin "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə konvensiyalarının müddəaları, xüsusilə insanların yaşamaq, şəxsi toxunulmazlıq, mülkiyyət, işgəncəyə məruz qalmamaq və digər fundamental hüquqları kobud şəkildə pozulmuşdur.

Ombudsmanın BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan hüquqları üzrə ali komissarına, BMT-nin Qaçqınlar üzrə ali komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına və bir sıra digər siyasi-diplomatik qurumlara ünvanladığı çağırış bu sözlərlə bitir: "Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini dərin ehtiramla yad edir, beynəlxalq təşkilatları və dünya ictimaiyyətini XX əsrin ən qanlı qətliamlarından biri sayılan bu soyqırımı cinayətinə hüquqi qiymət verilməsi, dəhşətli cinayət əməlinin törədilməsində təqsirkar şəxslərin hamısının ədalət mühakiməsinə cəlb edilməsi istiqamətində qətiyyətli addımlar atmağa dəvət edirəm".

***XQ***

*Səməd Vurğun-120*

# Xalqımızın ilk Xalq şairi

## *Prezident İlham Əliyev Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb*

**“Demə, Səməd Vurğun gəldi-gedərdi, unutmaz bu oba, bu mahal məni”. Dillər əzbəri olan bu misralar zamanın fövqünə yüksəlmiş, milli istiqbalı öncədən görmüş Xalq şairi Səməd Vurğunun mənəviyyat zirvəsində tutduğu ali mövqenin əks-sədasıdır.**



Şairin illər öncə tarixə həkk etdiyi bu inam bu gün də öz təsdiqini tapır. Prezident İlham Əliyev Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında Sərəncamı sənətkarın ruhuna ehtiram, eyni zamanda, xalqın mənəvi mirasına, mədəni irsinə sadiqliyin təcəssümüdür.

Səməd Vurğun şəxsiyyətinin mayası vətən eşqi ilə yoğrulmuşdu. Gənc yaşlarından xalqına, vətəninin hər qarışına, doğma torpağının əsrarəngiz təbiətinə sonsuz bağlılığı ona “Vurğun” təxəllüsünü qazandırmışdı. Şair öz daxili dünyasını belə təsvir etmişdi:

***Aşiqəm insana və təbiətə,***
***Əlim qələm tutub yazandan bəri.***

Səməd Vurğun məktəbinin təməli 1925-ci ildə, Qori müəllimlər seminariyasını bitirərkən yazdığı “Cavanlara xitab” şeiri ilə qoyuldu. Sonralar Azərbaycanın müxtəlif guşələrində – Qazaxda, Qubada və qədim Gəncədə dil və ədəbiyyat dərslərini tədris etsə də, həyatın axarı onu sözün sehrinə saldı. Poeziya gənc müəllimin daxili dünyasına hakim kəsilərək Azərbaycanın əbədiyaşar Xalq şairinə çevirdi.

Ötən əsrin 30-40-cı illəri Vurğun yaradıcılığının ən parlaq təcəllası, poeziyamızın çiçəklənmə dövrü kimi tarixə düşdü. 1934-cü ildə yazılmış “Azərbaycan” şeiri milli ədəbiyyatın incilərindəndir. Bu şeirdə ölkəmizin qədim tarixi, təbii gözəlliyi, nemətləri, xalqımızın xeyirxahlığı, qonaqpərvərliyi öz əksini tapıb. Elə həmin il işıq üzü görən “Könül dəftəri” və bir il sonra nəşr olunan “Şeirlər” kitabları Azərbaycan ədəbiyyatında yeni mərhələnin təməlini qoydu. Ustad şair ana dilimizi yad ünsürlərdən və əcnəbi sözlərin ağırlığından təmizləyərək poeziyamızın söz xəzinəsini milli ruhun saflığı ilə zənginləşdirdi.

Lakin bu fitri istedad bəzi bədxah dairələrdə qısqanclıq və həsəd doğurmaya bilməzdi. Şairi mənəvi sarsıntılara məruz qoymaq, onu millətçilik böhtanları ilə ləkələyib ədəbi mühitdən kənarlaşdırmaq istəyənlər dəfələrlə onu mühakimə kürsüsünə çəkməyə nail oldular. Amma bütün mənəvi basqılara rəğmən, o, əyilməz iradəsi, cəsarəti və dərin məntiqi ilə əleyhdarlarının məkrli planlarını alt-üst etdi.

1956-cı ilin martında – şairin 50 illik yubileyi ərəfəsində ədalət zəfər çaldı. Azərbaycan SSR rəhbərliyinin göstərişi ilə təsis edilən “Azərbaycanın xalq şairi” adına ilk dəfə məhz Səməd Vurğun layiq görüldü.

Bu gün respublikanın, demək olar ki, hər rayonunda şairin adına parklar, mədəniyyət ocaqları, məktəblər var. Hətta şairin adını yaşadan nəhəng neft tankeri də fəaliyyət göstərir.

Xalq şairinin vəfatından sonra onun adı ölkə hüdudlarından kənarda da böyük ehtiramla əbədiləşdirilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli 211 nömrəli Qərarı ilə Səməd Vurğun Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

***Fidan ƏLİYEVA***
***XQ***

*Şəmsi Bədəlbəyli - 115*

# Milli səhnəmizin unudulmaz rejissoru

**Azərbaycanın maarif, mədəniyyət və elm tarixinə silinməz səhifələr yazmış Bədəlbəylilər nəslinin çox görkəmli nümayəndələri olub. Dahi Üzeyir bəy Hacıbəylinin xalası oğlanları Bədəl Bədəlbəyli və qardaşı Əhməd bəy Ağdamski, Əfrasiyab Bədəlbəyli və başqaları. Onlardan biri də tanınmış rejissor, Əməkdar incəsənət xadimi, Xalq artisti Şəmsi Bədəlbəyli idi.**

1911-ci il fevralın 23-də Şuşada dünyaya gələn Şəmsi bəyin ömür yolu öz sələflərinin şöhrətinə şöhrət qatması ilə əlamətdardır. O, əvvəlcə Bakıda pedaqoji texnikumda, ardınca isə Azərbaycan Dövlət Konservatoriyasında oxuyub, dahi Üzeyir bəydən dərs alıb. Həmin illərdə Dövlət Dram Teatrında böyük qardaşı, bəstəkar və dirijor Əfrasiyab Bədəlbəylinin rəhbərlik etdiyi orkestrdə tarzənlik edib. Özündən 12 yaş böyük olan dramaturq Cəfər Cabbarlı ilə dostlaşaraq, ona səhnə ilə bağlı fəaliyyətində köməklik göstərib. Elə gənc Şəmsidə rejissorluq sənətinə hədsiz marağı da C.Cabbarlı yaradıb. Dramaturqun əsərləri onu bu sahəyə ömürlük bağlayıb.

Şəmsi Bədəlbəyli bir müddət “Gənc işçi” qəzeti redaksiyasında şöbə müdiri, Dövlət Dram Teatrında rejissor assistenti kimi fəaliyyət göstərib. 3 il Moskvada kurs keçəndən sonra Bakının baş teatrında müstəqil rejissorluq edib və bir çox səhnə əsərlərinə quruluş verib.

Onun ilk özəl işi Cəlil Məmmədquluzadənin 1939-cu ildə tamaşaya qoyulan “Ölülər” əsəri olub. Sonra həmin teatrda 10 illik əmək fəaliyyəti ərzində həm milli, həm də rus və Qərb ədəbiyyatının ən gözəl nümunələrinə səhnə həyatı verib. Xüsusilə rejissor Məcid Zeynalovla birgə Mirzə Fətəli Axundzadənin “Müsyo Jordan və dərviş Məstəli şah” komediyasının səhnələşdirilməsi üzrə işi Şəmsi Bədəlbəylinin komediya janrında istedadını üzə çıxarıb.

Zahirən çox ciddi, qaraqabaq təsir bağışlasa da, əslində, nikbin ruhlu idi. Yumoru çox sevərdi. Elə buna görə də quruluş verdiyi əsərlərdə duzlu gülüş, düşündürücü yumor vardı. İkinci Dünya müharibəsi ərəfəsində müxbir kimi İrana göndərilən Şəmsi Bədəlbəyli Təbrizdə “Qırmızı Şərq”, “Vətən uğrunda” qəzetlərinin redaksiyasında işləməklə bərabər, həvəskar aktyorların iştirakı ilə Üzeyir bəy Hacıbəylinin “Arşın mal alan”, Zülfüqar bəy Hacıbəylinin “Evliykən subay”, “Əlli yaşında cavan” operettalarını tamaşaya qoyub və cənublu soydaşlarımıza bol gülüş bəxş edib.

1943-cü ildə Bakıya qayıdan Şəmsi bəy Musiqili Komediya Teatrının bədii rəhbəri olub. Onun rejissorluğu ilə bu sənət ocağında bir sıra bəstəkarların musiqili komediyaları orijinal quruluşda səhnə həllini tapıb. Ü.Hacıbəylinin “O olmasın, bu olsun”, “Arşın mal alan”, V.Dolidzenin “Keto və Kote”, S.Rüstəmovun “Durna”, “Rəisin arvadı”, F.Əmirovun “Gözün aydın”, A.Məlikovun “Ləpələr”, S.Ələsgərovun “Ulduz”, “Sevindik qız axtarır”, “Həmişəxanım”, V.Adıgözəlovun “Nənəmin şahlıq quşu”, 



E.Sabitoğlunun “Hicran” musiqili komediyalarına yeni quruluşlar verilib. Şəmsi bəy bir rejissor kimi dramaturqun ideyasını, bəstəkarın musiqisini, aktyorun ifasını səhnədə təcəssüm etdirə bilirdi.

Filarmoniyanın direktoru və bədii rəhbəri, Akademik Opera və Balet Teatrının direktoru və baş rejissoru vəzifələrini tutan Şəmsi Bədəlbəyli 1976-cı ildə Azərbaycan Teatr Cəmiyyəti İdarə Heyətinin sədri seçilib. Onun təşəbbüsü ilə Teatr Cəmiyyətinin nəzdində “Dostluq” teatrı yaradılıb.

Sənətkarın oğlu, məşhur pianoçu, Xalq artisti Fərhad Bədəlbəylinin dediyinə görə, 60-cı illərin əvvəllərində Şəmsi Bədəlbəyliyə Xalq artisti adı vermək istəyiblər, amma qardaşı Əfrasiyaba yox. Gedib Mərkəzi Komitədə dövlət xadimi Süleyman Vəzirova deyib ki, “o mənim böyük qardaşımdır, müsəlman Şərqində ilk balet olan “Qız qalası”nın müəllifidir. Fəxri adı mənə yox, ona verin”. Hansı qardaş bunu edərdi? Beləliklə, əvvəl qardaşı, sonra da özü Xalq artisti adını alıb.

**Belə xatirələr çoxdur. Birini də Xalq artisti Afaq Bəşirqızı danışdı:**

– Şəmsi Bədəlbəyli hər bir aktyorla fərdi iş aparır, istedadlara xüsusi qayğı göstərir, onların inkişafını diqqətdə saxlayırdı. Yaradıcılıq məsələləri ilə yanaşı, teatrda çalışan aktyorların məişət və sosial problemlərinin həllinə də çalışırdı. O zaman aktyorların mənzillə təmin edilməsi çox çətin idi. Musiqili Komediya Teatrına lap yaxın ərazidə 2 doqquzmərtəbəli binanın tikilməsinə Şəmsi müəllim uzun müddət razılıq vermirdi. Xeyli mübahisədən sonra, nəhayət, o şərtlə razılıq verdi ki, aşağı mərtəbələrdə teatrın bir sıra sexlərinə yer və 4 aparıcı aktyora həmin binalarda mənzil verilsin və buna nail oldu.

O illərdə Şəmsi Bədəlbəyli teatrda çalışan görkəmli aktyorların yaradıcılığı barədə televiziya filmləri də çəkdirib. Az maaş alan aktyorlara, xəstələrə haradan olur-olsun, vəsait tapıb kömək edirdi. Onun rəhbərliyi dövründə teatrın rus bölməsi hər il Rusiyanın ən azı 3 şəhərinə qastrola gedir və Musiqili Komediya Teatrını Azərbaycanın hüdudlarından kənarda tanıtdırırdı.

Bu arada Şəmsi Bədəlbəyli ilə bağlı bir epizodu danışmasam, olmaz. Atam – o illərin ən sevilən aktyorlarından olan Bəşir Səfəroğlu ağır xəstəliklə bağlı cərrahiyyə əməliyyatı olunduqdan sonra Şəmsi müəllimə zəng vurur və aralarında belə bir dialoq olur:

– Badalıç (aktyorlar Şəmsi Bədəlbəyliyə belə müraciət edirdilər), darıxmışam, oynamaq istəyirəm.

– Ürəyin hansı tamaşanı istəyirsə, de.

– Mən “Bizə bir xal lazımdır” və “Milyonçunun dilənçi oğlu” tamaşalarını oynamaq istərdim. Özü də Yaşıl Teatrda. Ordan yaman xoşum gəlir.

Atamın ümidsiz xəstə olduğunu yaxşı bilən Şəmsi Bədəlbəyli Mərkəzi Komitəyə zəng vurur, ona “Xalq artisti” fəxri adı verilməsini xahiş edir və “Mən afişada “Xalq artisti” yazacağam, siz özünüz bilərsiniz” deyib, dəstəyi yerə qoyur.

Görülən təşkilati işlərin nəticəsində Yaşıl Teatrda böyük tamaşaçı kütləsinin qatıldığı tamaşa yüksək səviyyədə keçir. Oradaca Bəşir Səfəroğluna “Xalq artisti” adı verilməsi barədə sərəncam təqdim olunur. Bu, atamın pərəstişkarları ilə vida tamaşası idi. Yaddaşlara yazılan tamaşanın, irimiqyaslı teatr aksiyasının müəllifi böyük şəxsiyyət, sənətə, sənətkara qiymət verməyi hamıdan yaxşı bacaran Şəmsi Bədəlbəyli idi…

Bütün varlığı ilə Azərbaycan mədəniyyətinə xidmət etmiş Şəmsi Bədəlbəyli kino sənətinin də inkişafında öz əməyini əsirgəməyib. Hətta bir sıra bədii və sənədli filmlərdə aktyor kimi iştirak edib. “O qızı tapın”, “Axırıncı aşırım”, “Xatirələr sahili” “Ömrün səhifələri” və sair filmlərdə onun həyat verdiyi Zeynalov, Raykom katibi, epizodik Əli Kərimoviç, Telefon gözləyən kişi rolları diqqət çəkir.

Şəmsi Bədəlbəyli 1987-ci ildə dünyasını dəyişib və Bakıda Fəxri xiyabanda dəfn olunub. Böyük nəslin milli mədəniyyətimizə xidmət missiyasını bu gün Şəmsi bəyin oğlu – Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli layiqincə davam etdirir.

***Ə.DOSTƏLİ***
***XQ***

*Təqvimi şərəfləndirənlər*

# Maarifçiliyin nurlu siması

*Gördükcə dərdini əriyir cismi-natəvan,*
*Neytək sızıldayır dili-pürqəm, vətən, vətən!*

**Bu misraların müəllifi Azərbaycan maarifçilik tarixinin görkəmli nümayəndəsi Abdulla Şaiq (Talıbzadə) cəmiyyətin gələcəyini savadlı, düşünən və milli kimliyini anlayan nəsildə görən ziyalılardan olub.**



1881-ci il fevralın 24-də anadan olan şair ilk təhsilini Tiflisdə, müsəlman uşaqları üçün fəaliyyət göstərən altısinifli ruhani məktəbində alıb. XIX əsrin ortalarından etibarən Qafqazda, o cümlədən Azərbaycanda maarifçilik ideyalarının güclənməsi gənc Abdullanın dünyagörüşünə də təsir edib. 1889–1893-cü illərdə Tiflisdə təhsil alan Abdulla Şaiq daha sonra ailəsiylə birgə Xorasana köçüb və təxminən yeddi il burada yaşayıb. Tarix, psixologiya kimi elmlərlə yanaşı, Şərq ədəbiyyatını, Azərbaycan və rus ədəbiyyatını dərindən öyrənib.

Təhsilini başa vurduqdan sonra Bakıya gələrək Tiflisdən tanıdığı Nəriman Nərimanovla görüşməsi onun həyatında əhəmiyyətli rol oynayıb. Abdulla Şaiq ona müəllim olmaq arzusu ilə Bakıya gəldiyini deyib, Nəriman Nərimanov isə bildirib ki, bunun üçün rəsmi imtahan vermək lazımdır. Nəriman Nərimanovun ona verdiyi “Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi” adlı kitabın köməyilə Azərbaycan dilinin qrammatikasını, ədəbiyyatı, eyni zamanda, tədris metodikasını öyrənib. Şaiq şəriət dərslərinin yerinə ana dilini, dünyəvi elmləri tədris etməyə üstünlük verib. Abdulla Şaiq publisist, pedaqoq, yazıçı kimi maarifçilik ideyalarını cəmiyyətə sadə, anlaşılan və təsirli dillə çatdırıb.

Ömrünün 34 ilini Azərbaycan maarifinin inkişafına həsr edən şairin 1906-cı ildə Bakıda keçirilən I Müəllimlər Qurultayının təşkilində böyük zəhməti olub. Burada Abdulla Şaiq ana dilinin və ədəbiyyatın tədrisi ilə bağlı təşəbbüslərlə çıxış edərək təhsilin milli əsaslar üzərində qurulmasının vacibliyini önə çəkib. Qurultayın qərarı ilə Həsən bəy Zərdabi, Firidun bəy Köçərli, Mahmudbəy Mahmudbəyov, Süleyman Sani Axundov və Abdulla Şaiq kimi ziyalılardan ibarət xüsusi komissiya seçilib və Azərbaycan dilində dərs proqramlarının hazırlanması məhz onlara tapşırılıb.

Onun hazırladığı “Əlifba”, “Uşaq çeşməyi”, “İkinci il”, “Gülzar” kimi dərsliklərdə Abdulla Şaiqin öz əsərləri ilə yanaşı, dünya ədəbiyyatından seçilmiş nümunələr də yer alıb. Sonrakı dövrlərdə “Milli qiraət”, “Müntəxabat”, “Türk çələngi”, “Ədəbiyyat”, “Türk ədəbiyyatı”, “Gülşəni-ədəbiyyat” kimi dərslik və proqramlarda o, qadınlar üçün jurnal nəşr etmək, uşaq bağçası açmaq, kitabxana yaratmaq, imkansız uşaqları pulsuz oxutmaq kimi dövrü üçün son dərəcə qabaqcıl təşəbbüslər irəli sürüb.

Abdulla Şaiq “Laylay” adlı şeiri ilə uşaq poeziyasının əsasını qoyub. Bir çox şeirləri “Dəbistan”, “Məktəb” kimi uşaq və gənclər üçün nəzərdə tutulan nəşrlərdə çap edilib. Həmin illərdə “Nicat” cəmiyyətinin idarə heyətinə üzv seçilən Abdulla Şaiq maarif, məktəb və ədəbi problemlərlə məşğul olub.

Xalq ədəbiyyatına xüsusi maraq göstərən şair topladığı folklor nümunələri əsasında “Tıq-tıq xanım”, “Tülkü həccə gedir”, “Yaxşı arxa” kimi mənzum nağıllar yazıb. “Ədhəm”, “Tapdıq dədə”, “Qoçpolad” poemalarından əlavə, 1910-cu ildə qələmə aldığı “Gözəl bahar” pyesi ilə o, milli uşaq teatrının təməlini qoyub. 1919-cu ildə Bakı Dövlət Universitetinin açılması münasibətilə yazdığı “Tələbə həyatı” pyesi, eləcə də müharibə və işğal mövzularına həsr etdiyi “İki mücahid” şeiri dövrün ağrılarını əks etdirir. 1923-cü ildə Abdulla Şaiqin ədəbi-pedaqoji fəaliyyətinin 20 illiyi təntənə ilə qeyd olunub, çalışdığı gimnaziya “Şaiq nümunə məktəbi” adlandırılıb. 2001-ci ildə Abdulla Şaiqin 120 illik yubileyinin qeyd edilməsi haqqında ulu öndər Heydər Əliyev Sərəncam imzalayıb.

Abdulla Şaiqin “Xasay”, “Eloğlu”, “Vətən”, “Fitnə”, “Qaraca qız” kimi pyesləri Azərbaycan Gənc Tamaşaçılar Teatrının repertuarını formalaşdırıb. O, ömrünün sonunadək uşaqlar üçün yazmaqdan, maarif işinə xidmət etməkdən usanmayıb.

# “Qırmızı tabor”un əfsanəvi komandiri



*Çat haraya, bəyim, nicat günüdür,*
*Vedinin davası, qeyrət günüdür!*

**Bu misralar isə erməni daşnaklarına layiqli dərs vermiş el qəhrəmanından xəbər verir. Tarixdə rəsmi sənədlərdən çox xalq yaddaşında yaşayan şəxsiyyətlərdən xalq qəhrəmanı, “Qırmızı tabor”un əfsanəvi komandiri Abbasqulu bəy Şadlinski 24 fevral 1886-cı ildə İrəvan qəzasının Vedibasar mahalında dünyaya göz açıb.**

XX əsrin əvvəllərindən başlayaraq Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur bölgələrində erməni-daşnak silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı törətdikləri soyqırımlarının geniş vüsət aldığı ağır şəraitdə xalq arasında böyük nüfuza malik olan Şadlinski Vedidə erməni-daşnak quldur dəstələrinə qarşı vuruşub. Könüllü xalq birləşməsi olan “Qırmızı tabor” un komandiri kimi daşnak qüvvələrilə mübarizə aparıb. Məhz bu şücaətin nəticəsi olaraq “Qırmızı tabor”un 19 döyüşçüsü “Qırmızı bayraq” ordeni ilə təltif olunub.

1920-ci il iyulun 28-də Naxçıvanda sovet hakimiyyəti elan edildikdən sonra Abbasqulu bəy Şadlinski Hərbi İnqilab Komitəsinin və Nəriman Nərimanovun dəvətini qəbul edərək sentyabrın 17-də 200 nəfərlik “Qırmızı tabor” dəstəsi ilə Naxçıvana gəlib, buradakı qırmızı qvardiya döyüşçüləri ilə qüvvələrini birləşdirib.

O, əvvəlcə Naxçıvan sərhədlərinin qorunmasına, daha sonra isə Zəngəzur istiqamətində daşnak hissələrinə qarşı fəal döyüş əməliyyatlarına başçılıq edib. “Cəllad Dro”nun rəhbərlik etdiyi daşnak qüvvələrinin darmadağın edilməsi Naxçıvanda sovet hakimiyyətinin möhkəmlənməsində həlledici rol oynayıb və bölgədə ingilis-daşnak işğalına son qoyub. Bu xidmətlərinə görə Abbasqulu bəy Şadlinski Nəriman Nərimanov tərəfindən “Qızıl Ulduz” medalı ilə təltif edilib. 1922-ci ilin sonunadək Naxçıvanda sərhədlərin mühafizəsinə rəhbərlik edib. 1930-cu ilin fevral ayında ermənilərin xain oyunları nəticəsində qətlə yetirilib.

Tarixi mənbələr təsdiqləyir ki, Abbasqulu bəy Şadlinski daşnak quldur dəstələrinə qarşı apardığı mübarizədə sadəcə azərbaycanlı əhalinin deyil, ermənilərin də yağılardan qorunmasına çalışıb. Hay-erməni tədqiqatçısı İ.Tahiryan yazırdı ki, Azərbaycan xalqının qəhrəman oğlu Abbasqulu öz dəstəsi ilə daşnak komandirləri Dro, Kazo və Primovun quldur dəstələrinə qarşı döyüşərək həm hayları, həm də müsəlmanları qətliamdan xilas etmişdir.

Abbasqulu bəy Şadlinskinin məzarı uzun illər Böyük Vedidə orta məktəbin həyətində yerləşib. 1957-ci ildə Ermənistan KP MK-nın qərarı ilə Abbasqulu bəyin və digər inqilab fədailərinin məzarlarının götürülməsi nəzərdə tutulsa da, bu qərar icra olunmayıb. 1988-ci ildən sonra azərbaycanlıların tarixi torpaqlardan qovulması ilə Abbasqulu bəyin məzarının aqibəti barədə dəqiq məlumat əldə edilməyib.

1986-cı ilin oktyabrında Şərur rayonunda “Qırmızı tabor”un Şöhrət muzeyi (Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi) yaradılıb. Muzeydə əfsanəvi sərkərdələrin həyat və mübarizə yolu, XX əsrin əvvəllərinin ictimai-siyasi mənzərəsini canlandıran sənədlər, nadir fotolar, qəzet və kitab materialları, arxiv sənədləri nümayiş etdirilir. Xüsusi salonda isə Abbasqulu bəyin uşaqlıq və gənclik illəri, inqilabi fəaliyyəti, qılıncı, tüfəngi, hərbi geyimləri və döyüş sursatları yer alır.

***Ləman TƏHMƏZ***
***XQ***

# Çərşənbələrin ilki – **Su təntənəsi**

**Milli-mənəvi irsimizin qorunması və tanıdılması hər birimizin borcudur. Hər bir xalqın mədəniyyəti, mənəvi əxlaqı, dünyagörüşü onun bayramlarında öz əksini tapır. Azərbaycanda qədimlərdən bayramların sayı çox olub. Bu baxımdan, çillələrin də, Novruz çərşənbələrinin də xalqımızın bayram təqvimlərində mühüm yeri vardır. Novruz xalqımızın milli-mənəvi dəyərlərinin ən qədim və zəngin tarixə malik bayramlarından biridir. Novruz adətləri bu gün də ilkin mühafizəkarlığını qoruyub saxlamışdır. Novruz çərşənbələrinin hərəsinin özünəməxsus mərasimləri var. Mərasimlərdə xalqımızın dünya və kainat haqqında ilkin təsəvvürləri öz əksini tapmışdır. Bu mərasimlərin həyata keçirilməsi Novruzun əsas ünsürü olan Su çərşənbəsi ilə başlayır.**



Su çərşənbəsi ilə bayrama hazırlıqlar başlayır. Deyirlər ki, Tanrı ilk olaraq suyu yaradıb. Buna görə su ilk çərşənbə kimi qeyd edilir. Xalq arasında o, "Əvvəl çərşənbə", "Əzəli çərşənbə", "Gözəl çərşənbə", "Sular Novruzu", "Gül çərşənbə", "Sel çərşənbə", "Zəmzəm çərşənbə", "Çillibeçə çərşənbə" kimi də tanınır. Su çərşənbəsində suyun müqəddəs mahiyyəti ifadə olunur. Su sağlamlıq, paklıq, tale göstərmə, övladvermə, müqəddəslik, dirilik, ölməzlik, xoşbəxtlik gətirən bir inam rəmzi kimi çıxış edir.

"Axar sular Novruzu" və ya "Sular toyu" da adlanmışdır. Suyu müqəddəs sayan xalqımız "Su bulandıranı el utandırar", "Suya tüpürməzlər", "Suya söyməzlər" və bu kimi inancları, "Su haqqı", "Suyun sovulmasın", "And olsun axar suya", "Ömrün su qədər olsun" və bu kimi andları qoşmuşlar. Səfərə çıxanın arxasınca su atıb "Yolun aydın olsun!" deyirlər ki, Tanrı köməyi olsun.

Suyun müqəddəsliyi qədim türk miflərindən qaynaqlanır. Qədim miflərə görə suyun yiyəsi vardır. El arasında "Suyun



Arzularını, gördüyü yuxuları suya danışmaq, sübh tezdən evə bulaq suyu gətirmək və s. su ilə bağlı ayinlərdəndir. İnanclara görə, sübh tezdən bulaqdan götürülən su min bir dərdin dərmanıdır. Su çərşənbəsində baharın ilk suyundan gətirilərdi. Su sübh tezdən götürülərdi ki, insan səsi eşitməsin. Əski inanclara görə, çərşənbə günü bütün dərdlərin dərmanı olan çərşənbə suyu dalınca gedərlərmiş. Amma bu işi hər adama tapşırmazlarmış. Həmin su dalınca gümüş kuzələrlə dan yeri sökülənə kimi valideynlərin ilki sayılan, 15,16 yaşlı subay qızlar gedər, üç və ya yeddi bulaqdan su götürər, dinməz-söyləməz evə gətirib qablara boşaldana kimi heç kimlə danışmaz, yerə baxarlarmış. Məhz buna görə də bu "lal su" adlanarmış. Bu ayini icra edən qızlar yolda tanış bir adama rast gəlsəydilər, üzlərinə su çiləyər, onların bu yolla bulaqdan "lal su" gətirdiyini xəbər verərdilər. Bəzən onları ya nişanlıları, ya da qohumları müşahidə edərdilər ki, suyun "müqəddəsliy"inə xələl gəlməsin. Tatarların Narduqan (Gündoğan) bayramında da bu mərasim keçirilir, belə ki, bir oğlanla bir qız arxalarına baxmadan, dinməzcə bulaqdan fala baxmaq üçün su gətirirlər.

*Dəyirman arxına bax!*
*Su gəlir, çarxına bax.*
*Ay çərşənbə, xoş gəldin!*
*Qızlarda axına bax!*

Dədə-babalarımız inanıblar ki, bu çərşənbədə sellər aşıb-daşır, bütün azar-bezar qar ilə bərabər yuyulub gedir. İnsanlar suyun üzərindən adlamaqla xəstəliklərdən qurtulacağına inanmışlar.

İnanca görə, axar suyun qarşısı kəsilməməlidir. Suyun qabağını kəsəni Tanrı cəzalandırar. Babalarımız suyu canlı varlıq kimi görmüşlər. Folklor nümunələrimizdə su kultundan istifadə buna bir sübutdur. Qazan xanın çay ilə söhbəti bunun bariz nümunəsidir. Buna görə də ilk çərşənbə anası", "Suyun yiyəsi", "Hovuzun anası" adlanan ifadələrə də rast gəlinir. Su elə müqəddəsdir ki, Axır Çərşənbə çaylar dayanır, ağaclar baş əyib alnını suya söykəyir.

Suyun "tale göstərmə" funksiyasına inanan əcdadlarımız "Tas falı" ("Qızlardesin", "Çərşənbə deyişməsi", "Kuzə falı", "Dilək falı" və s.) deyilən fal açma ilə həddi-büluğa çatmış qızların gələcəkdəki talelərinə baxmışlar. Çərşənbənin gecəsində axşam qadınlar, qızlar, oğlanlar kiminsə evinə yığılıb çillə çıxarardılar. Bu gecəni həm də insanlar bəxt gecəsi adlandırırlar. Odur ki, qızlar su ilə fal açıb bəxtlərini sınayardılar. Bu vəsfi-hal mərasimi "Üskük çıxarma" falıdır. Bir camın içərisinə hərə öz nişanəsini üzük, sırğa, düymə atırdı, sonra qabın üzərinə dəsmal salınırdı. Nişanələri qabın içərisində iki-üç dəfə qarışdırıb bayatı deyilirdi, bir yeniyetmə qız uşağı əlini camın içərisinə salıb nişanənin birini sudan çıxarırdı. Bayatını oğlan, qız, qadın, kişi hər kəs deyə bilərdi. Hər dəfə bayatı çağrılanda camdan kimin nişanəsi çıxsa, onun diləyi həmin bayatı olan mətləbə uyğun yozulardı. Bayatı söylənilən anda, hələ nişanə çıxmamış hiss olunurdu ki, həmin bayatıya uyğun kimin üzüyü, nişanəsi çıxa bilər. Bunlara nümunə olaraq:

*Sarı yağın tortası,*
*Sarı kilimin ortası.*
*Allah muradın versin*
*Gələn ayın ortası.*

Bu mərasim səhərə kimi davam edir. Günəş doğandan sonra mərasim iştirakçıları su üstünə gedib çillə kəsdirməsi, əl-üzünü yumaları, niyyət edib suyun üstündən tullanaraq, "Ağırlığım-uğurluğum bu sulara", "Ağırlığımı su götürsün" deməsi ilə başa çatır.

Qabda suya salınan saç və ya sapa üzük bağlayıb evlilik yaşını, iynələrin uclarına pambıq sarıyıb qismətini təyin etmək də fal inanclarındandır.

Dirilik suyu Xıdır və İlyas qardaşlarının adı ilə bağlıdır. Onların dirilik suyu – "abi-çavidan"ı tapmaları ilə bağlı mifoloji rəvayətlər mövcuddur. Əfsanələrə görə, Xıdırla İlyas iki qardaş olublar. Onlar ab-həyat suyunu içdikdən sonra ölməzlik qazanıblar. Onların bir-birinə qovuşduğu gün isə Novruz bayramının başlandığı gün hesab olunur. Rəvayətlərdə deyilir ki, Xıdır quruda, İlyas isə suda yaşayırlar. Onlar həmişəköməyə ehtiyacı olanın imdadına yetişirlər. Kiçik qış fəslində böyük çillə ilə kiçik çillə arasında "Xızır Nəbi" bayramı keçirilir. Bu da Xıdır Nəbinin adı ilə bağlıdır. Novruzun ilk çərşənbəsi isə İlyasın adı ilə bağlanır. İlk çərşənbə bəzi mənbələrdə "İliyaz çərşənbə" adı kimi verilmişdir. Bu çərşənbə axşamından etibarən suların buzu əriyir, sular get-gedə isinir, gecələr donmur, deyilənə görə, o, "yer altında yaza gedir". Bu səbəbdən də xalq arasında ilk Çərşənbə Su çərşənbəsi kimi tanınır.

Xalq əfsanələrində, məhəbbət və qəhrəmanlıq dastanlarında suyun müxtəlif funksiyalar daşıdığı motivlərlə yanaşı, suyun dirilik rəmzinə də rast gəlinir. Qəhrəmana gücü, qüvvəni, qeyri-adi qabiliyyətləri verən vasitələrin biri də sudur. Folklorda "dirilik suyu" aktiv işlənmişdir. Azərbaycan folklorunda dirilik suyu Şirvanla əlaqəli verilir. Rəvayətlərdə, nağıllarda, Nizaminin "İsgəndərnamə"sində dirilik suyu içmək Xızıra nəsib olur. "İsgəndərnamə"-də İsgəndər dirilik suyunu axtarsa da, tapa bilməsə də, onun hikmətini dərk edir. "Koroğlu" dastanındakı Qoşabulaq da dirilik bulağı, ölməzliyin rəmzidir. Qoşabulağın suyundan içəndən sonra Koroğluya qeyri-adi aşıqlıq, şairlik, nərə, Qırata qeyri-adi xüsusiyyətlər verilmişdir.

Azərbaycan türklərinin inamlarında suyun kultlaşması onun əcdad olması, övlad verməsi, and yerinə çevrilməsi digər faktlarda gerçəkləşmişdir. Türk mifoloji inamlarında suyun bərəkət və qüvvət mənbəyi, cəza verən Tanrı timsalında öz əksini tapır. İlkin başlanğıc olan su insan nəslinin artımından sonra çay, bulaq, göl və s. şəkillərdə inamlar sisteminə daxil olmuşdur. Türk dünyagörüşündə suya tapınmanın izlərindən Su Tanrısı obrazı formalaşmışdır.

Su çərşənbəsində süfrələr bəzədilir. Təmiz sudan hazırlanmış pürrəngi çay, müxtəlif şirniyyat və yeməklər, əsasən də plov süfrənin nemətləri sırasında olur. Bu çərşənbədə süfrəyə səməni qoyulmur. Təmiz, lal suyun süfrədə olması isə vacibdir. Əgər həmin su aşarsa, bu bolluğun rəmzi kimi qiymətləndirilir.

Su Tanrının müqəddəs nemətlərindən biridir. Suyu müqəddəs bilən xalqımız bu çərşənbədə su ilə bağlı ayinləri həyata keçirərək bayramın ilk günlərini qarşılayır. Suyun qüdrətinə inanan dədə-babalarımız su ilə əlaqədar müdrik sözlər yaratmış, mahnılar bəstələmiş, şeirlər qoşmuşlar.

*Qışda sülhü buz ilən,*
*Yazda salar dava su.*
*Dillənməyir söz ilən,*
*Çəkir ağalar nəva su.*

***Səhər HİDAYƏT qızı ORUCOVA,***
***filologiya elmləri doktoru, professor***

*Yeni tamaşalar*

**Tanınmış yazıçı-dramaturq, publisist və tərcüməçi Hüseynbala Mirələmovun "Gəlinlik paltarı" əsəri saf sevgi, ailə dəyərləri və qadın taleyi mövzusuna həsr olunub. N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında əsərin ilk tamaşası olub.**

# "Gəlinlik paltarı"nın Lənkəran təqdimatı




Əvvəlcə teatrın strategiya və kommunikasiya şöbəsinin müdiri Namiq Ağayev yazıçı Hüseynbala Mirələmovun zəngin ədəbi yaradıcılığı, dramaturgiyası, əsərlərinin sənətkarlıq xüsusiyyətləri barədə məlumat verib.

Quruluşçu rejissor, teatrın direktoru, respublikamızın əməkdar mədəniyyət işçisi, Dağıstan Respublikasının əməkdar artisti Laləzar Hüseynova, quruluşçu rəssamı Fuad Hüseynov, rəssam Sevən Həsənli, musiqi tərtibatçısı Vüqar Fərəcov, rejissor assistenti Nuranə Nəcəfova olan tamaşada rolları səhnə ustalarından Ayşən Əsədova – Fənayə, Aynur Əhmədova – Zinayə, Şəbnəm Hüseynova – Rahibə, Elçin Hacıyev – Qadir, Saleh Əzimzadə – Haris, Səyad Əliyev – Fədai, Aysel Babazadə





– Rufa, Nuranə Nəcəfova – Sadiqə, Günel Bağırova və Elvin Məmmədov Pantomim peşəkarlıqla ifa ediblər.

Tamaşa boyu həyatın sərt, taleyin gözlənilməz dönəmləri qəhrəmanları çətin seçim qarşısında qoyub. İnsanın xoşbəxtlik uğrunda mübarizəsi emosional səhnələrlə tamaşaçılara təqdim olunub.

Tamaşanın sonunda yazıçı Hüseynbala Mirələmov əvvəllər də doğma teatrın səhnəsində əsərlərinin oynanıldığını vurğulayaraq teatrın rəhbərliyinə, yaradıcı kollektivə dərin minnətdarlığını çatdırıb. Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsinin sədri Qafar Cəfərli əsərin çox aktual mövzuya həsr olunduğunu, yaradıcı heyətin möhtəşəm tamaşa ərsəyə gətirdiyini qeyd edib.

Sonda teatrın direktoru Laləzar Hüseynova əsərdə insan taleyinin zərif və ağrılı məqamlarının yüksək sənətkarlıqla əks olunduğunu, xalqımızın nəcib adət-ənənələrini, milli dəyərlərimizi qoruyub gənc nəslə aşılamağın vacibliyini diqqətə çatdırıb.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# "Günəşin dostları" Qax səhnəsində



Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Yusif Abdurrahmanov, quruluşçu rəssamı Fidan Səbirli, musiqi tərtibatçısı isə Nicat Fətəliyevdir.

İnteraktiv səciyyə daşıyan bu səhnə əsəri uşaqlarda təbiətə sevgi, qayğı hissini formalaşdırmaqla yanaşı, dostluq, birlik, qarşılıqlı anlayış, bilik və digər bəşəri dəyərləri ön plana çəkir. Rejissor yozumu, səhnə həllinin rəngarəngliyi və aktyorların



**Yazıçı, şair, dramaturq Elçin Məhərrəmin "Günəşin dostları" pyesi Qax Dövlət Kukla Teatrının səhnəsində tamaşaçılara təqdim olunub.**

koloritli ifasını tamaşaçılar maraqla qarşılayıblar.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

**AZƏRBAYCAN ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI**

*Kafedralar üzrə kafedra müdiri və dosent vəzifələrini tutmaq üçün*

müsabiqə elan edir

**Kafedra müdiri vəzifəsini tutmaq üçün:**

**1.** Humanitar fənlər kafedrası üzrə – 1 yer.

**Kafedra üzrə dosent vəzifəsini tutmaq üçün:**

**1.** Maliyyə və mühasibat kafedrası üzrə – 1 yer.

**Qeyd:** müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (AƏSMA-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız 6-cı bənddə qeyd olunan sənədləri təqdim etməlidirlər):

*1. Rektorun adına ərizə.*
*2. Kadrlar uçotunun şəxsi vərəqəsi.*
*3. Ali təhsil haqqında diplomun surəti.*
*4. Elmi dərəcə haqqında diplomun surəti.*
*5. Elmi ad haqqında diplomun surəti.*
*6. Elmi və elmi-metodiki işlərin siyahısı.*

**Telefonlar:** (012) 526-58-41, (012) 526-58-42, daxili nömrə - 2807.

**Ünvan**: AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.

**"Bakı Beynəlxalq Dəniz Limanı" Məhdud Məsuliyyətli Cəmiyyəti**

*"Nəqliyyat vasitələrinin cari və əsaslı təmiri xidmətləri"nin satın alınması üçün AZCON-un idarəetməsinə verilmiş dövlət müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətləri və publik hüquqi şəxslər tərəfindən məhsulların (mal, iş və xidmətlərin) vahid satın alınması Qaydalarına əsasən çərçivə sazişi bağlanması məqsədilə*

açıq tender elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Təkliflərin təqdim edilməsi üçün son tarix 11 mart 2026-cı il saat 16.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan təkliflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** +(994 12) 599-00-03 (daxili 1803)

**Ünvan:** AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 35 (31004) 24 fevral 2026-cı il, çərşənbə axşamı

İDMAN

## Belarusda qızıl medal



**Fevralın 20-dən 22-dək Belarusun paytaxtı Minskdə 3 qat olimpiya çempionu Aleksandr Medvedin xatirə turniri keçirilib.**

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, 55-ci dəfə təşkil edilən yarışda sərbəst güləş üzrə milli komandanın üzvü Abubakr Abakarov (92 kq) uğurlu çıxış edib. Bütün rəqiblərinə qalib gələn təmsilçimiz fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Abubakr finalda dağıstanlı Qamzat Qasanov üzərində inamlı qələbə qazanıb – 12:5.

## XXV Qış Olimpiya Oyunları başa çatıb



**İtaliyanın Milan və Kortina Ampetso şəhərlərinin ev sahibliyi etdiyi XXV Qış Olimpiya Oyunları başa çatıb. Milli Olimpiya Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, bu barədə Azərbaycan komandasının şef-de-missionu Anar Bağırov açıqlama verib.**

“Azərbaycan komandasının şef-de-missionu olaraq bildirmək istəyirəm ki, bu möhtəşəm idman bayramı həm təşkilatçılıq, həm də rəqabət baxımından yaddaqalan hadisələrlə zəngin oldu. İtaliya bu genişmiqyaslı yarışı yüksək səviyyədə təşkil etməyi bacardı. İki fərqli mərkəzdə keçirilməsinə baxmayaraq, logistika və idmançıların rahatlığı ən yüksək səviyyədə təmin olunmuşdu. Olimpiya Oyunlarının bağlanış mərasimi bu böyük birliyin və idman həmrəyliyinin yekunu oldu. Bu oyunlar bizə bir daha göstərdi ki, qış idman növlərinin inkişafı üçün böyük potensial var və biz əldə etdiyimiz təcrübəni növbəti illərdə daha böyük uğurlara çevirmək niyyətindəyik”, – deyə Anar Bağırov qeyd edib.

## Misli Premyer Liqasında XXI turun yekunu



**Ötən bazar günü Misli Premyer Liqasında XXI turun son 2 oyunu keçirildi. Günün ilk görüşündə “Şamaxı” “İmişli”ni qəbul etdi. Görüşdə tərəflərin səyinə baxmayaraq, hesab açılmadı – 0:0.**

Turun son qarşılaşmasında “Sabah” “Kəpəz”i qəbul edib.

“Bank Respublika Arena”da baş tutan görüş meydan sahiblərinin qələbəsi ilə yekunlaşıb – 1:0. Yeganə qolu 88-ci dəqiqədə Kahim Parris gəncəlilərin qapısından keçirib.

Xallarının sayını 52-yə çatdıran Bakı klubu liderdir. Gəncə təmsilçisi 13 xalla 11-ci sıradadır.

Qeyd edək ki, XXI turun əvvəlki matçlarında “Turan Tovuz” “Zirə”ni, “Araz-Naxçıvan” “Karvan-Yevlax”ı (hər ikisi 2:0) məğlub edib. “Sumqayıt” – “Qəbələ” qarşılaşması qolsuz başa çatıb. Turun “Neftçi” – “Qarabağ” oyunu isə qeyri-müəyyən müddətə təxirə salınıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

# “Qarabağ” nəhənglər meydanında çıxışlarını davam etdirir




**Qeydlərimizə ötən ilin yayından bəri UEFA Çempionlar Liqası turnirində uzun, çətin, mürəkkəbdən də mürəkkəb bir yol keçən və hələ də nəhənglər meydanında çıxışlarını davam etdirən "Qarabağ"a, Qurban Qurbanov başda olmaqla məşqçilər heyətinə, klubun bütün əməkdaşlarına təşəkkürlər, var olun nidaları ilə başlamağı özümüzə borc bilək.**

Azərbaycan təmsilçisinin Avropa klub yarışlarının zirvəsi olan turnirdə 36 rəqibin mübarizəsində ən yaxşı 24 kollektiv sırasında yer alması dərin fəxarət hissi yaşadan nəticə, təkzibolunmaz nailiyyətdir. Ağdam komandası 8 illik fasilədən sonra nəinki tarixində ikinci dəfə Çempionlar Liqasında qrup mərhələsi sınaqlarının iştirakçısıdır, həm də indi daha böyük uğur qazanaraq xalqımıza əsl zəfər gecələri yaşatmış, pley-off mərhələsinin də qapısını açmağa özündə güc, qüvvə tapmışdır. Bu zaman bir sıra ciddi çətinliyə baxmayaraq (onların hamısını siz yaxşı bilirsiniz) böyük işlər görülmüşdür. Nəticə də göz qabağındadır: bu gün Avropanın ən güclü 24 klubundan biri "Qarabağ" Azərbaycandır!

Qazanılmış uğurun məğzini, mahiyyətini layiqincə qiymətləndirmək üçün çox sübuta, təsdiqə ehtiyac yoxdur. Təkcə bir məqamı xatırlamaq kifayətdir. Əsas mərhələnin yekununda turnir cədvəlinin 25-36-cı pillələrində dayanmış və yarışla vidalaşmış 12 komandadan 5-i rəqiblərimiz olmuş "Atletik", "Napoli", "Kopenhagen", "Ayaks" və "Ayntraxt"dır. Bu klubların təmsil etdikləri İspaniya, İtaliya, Danimarka, Niderland və Almaniyanın necə qüdrətli futbol ölkələri olduğu azarkeşlərə yaxşı məlumdur.

İspaniya, İtaliya, Almaniya milliləri ən böyük futbolun – dünya çempionatlarının qızıl medallarının hədsiz sevincini yaşamış ölkələrin komandalarıdır, Niderland və Danimarka da mundiallarda özləri haqqında xoş təəssürat yaratmışlar. Azərbaycan isə çox təəssüf ki, dünya çempionatlarının heç həndəvərinə belə yaxınlaşa bilmir, hər dəfə seçmə yarışlarında sonuncu yerlərlə kifayətlənməklə bütün ümidlərimizi heçə çıxarır.

Hərdən "Qarabağ"ın qarşılaşdığı komandaların tarixini, heyətlərini, stadionlarını, təlim-məşq bazalarını, maliyyə imkanlarını, ötəri də olsa, götür-qoy edəndə adama elə gəlir ki, onların hamısı ağır çəkili və çox zəhmli boksçulardır. Belə bir vəziyyətdə nəhənglərdən açıq-aşkar geri qalan və yüngül çəkili boksçunu xatırladan "Qarabağ"ın rəqiblərdən hər hansı biri ilə görüşdə qələbə qalsın bir yana, heç-heçəyə nail olması da fövqəladə hadisə, möcüzə kimi dərin əks-səda yarada bilər.

Bu gün Bakı vaxtı ilə gecəyarısı, saat 00:00-da "Qarabağ" 2025/2026-cı illər mövsümündə Çempionlar Liqasında böyük ehtimalla sonuncu dəfə azarkeşlər qarşısına çıxacaq. Bir həftə əvvəl "Tofiq Bəhramov"da "Nyukasl" ilə pley-off mərhələsinin ilk oyununda qeydə alınmış ağır məğlubiyyət (1:6) səfərdə cavab matçından sonra İngiltərə klubunun səkkizdəbir finala vəsiqəni rəsmiləşdirəcəyinə elə bir şübhə yeri qoymur. Bununla belə, komandamızın evdəki uğursuzluqdan fərqli, rəqib meydanında FİFA-nın italiyalı hakimi Davide Massanın idarə edəcəyi görüşdə istər müdafiədə, istərsə də hücumda fəal mübarizə aparacağına da ümidimizi itirmirik.

Başlıcası, Azərbaycan çempionu Ağdamın "Qarabağ" komandası indiki turnirdə vəzifəsini inamla yerinə yetirmiş, Çempionlar Liqasının pley-off görüşlərinin iştirakçısı olmuş, dünya da onun oyununa biganə qalmamışdır.

Biz "Qarabağ"ın qardaşı "Qalatasaray"ı da unutmamışıq. Pley-off mərhələsinin ilk görüşündə İtaliyanın "Yuventus" komandasına üç top fərqlə qalib gələn (5:2) İstanbul klubu səkkizdəbir finalda mübarizəni davam etdirmək üçün özünə yaxşı zəmin, kifayət qədər möhkəm top ehtiyatı yaratmışdır. Lakin tam arxayınlaşmaq üçün hələ tezdir. Hər şey Turində "Yuventus"–"Qalatasaray" oyunundan sonra qəti məlum olacaq. Sabah keçiriləcək və gərgin mübarizə vəd edən görüşü maraqla gözləyək.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

*Anatoli Banişevski – 80*

# Azərbaycan futbolunun əfsanəsi

**Həmişə qürur hissi ilə demişəm və indi də fərəhlə bildirirəm ki, jurnalist taleyimlə güvən duyğusu keçirirəm. Çünki başqa peşə sahibi olsaydım, bəlkə də indiyədək qarşılaşdığım və varlıqları ilə fərəhləndiyim xeyli dostumun obrazlarını hələ də qəlbimdə əziz xatirə tək qoruyub saxlamazdım. Hərdən onları ayrı-ayrılıqda xatırlayır, hətta xəyalımın ekranında onları görüb söhbətləşir, sevinir, kədərlənir, həm də dərin düşüncələrə də qatılıram. Bəzilərinin taleyini birər-birər vərəqləyib o çağların bir daha canlı şahidinə çevrilirəm. Çox duyğulu məqamlarla çulğalanıram. Fikirləşirəm ki, görən, niyə insanların bir çoxu layiq olmadıqları əzab-əziyyətlərə qatlaşırlar. Niyə bir nadanın hökmü, istəyi ilə onlar əzab-əziyyətlərə qatlaşmağa məcbur edilirlər. Nə üçün xalqına, məmləkətinə böyük xidmətləri müqabilində layiq olmadıqları hallarla qarşılaşırlar.**

Eh, bu “niyələr” saysız-hesabsızdır. Heç dürüst cavablar da verən tapılmır. Gərək belə də özün-özünü əməlli-başlı dərk edəsən, baş vermiş hadisələrin dərinliyinə varasan, müsibətə düçar olmuşlarla xəyali söhbət aparasan, lap yeri gələndə özünü onun yerində hiss edəsən.



Azərbaycanımızın ünlü futbolçularından biri, bəlkə də birincisi, uzun illər halal duz-çörək kəsdiyimiz, xalqın qəlbində özünəməxsus obrazı ilə əbədiyaşar haqq qazanmış Anatoli Boris oğlu Banişevski məhz belə bir şəxsiyyəti, dürüst varlığı ilə qəlbimin dərin və çox möhtərəm bir guşəsində özünəməxsus yer tutur.

Artıq ahıl yaşındayam. İş fəaliyyətimlə bağlı dünyanın bir çox ölkəsində olmuşam. Yaradıcı sənət baxımından çox dəyərli eloğlumuzun adını müxtəlif dillərdə xatırlayan adamlarla görüşüb söhbət aparanda qürur hissi keçirmişəm. Fəqət idman dünyasının, xüsusən futbol aləminin nümayəndələrinin dilində Ələkbər Məmmədov, o cümlədən Anatoli Banişevskinin adlarını dilə gətirəndə az qalırdım sevincimdən qanad açıb pərvazlanım.

Oxuculara bildirirəm ki, bu sətirləri vərəqlərə köçürərkən Azərbaycanın ən populyar futbolçularından biri olmuş Anatoli Banişevskidən qısaca da olsa danışmaq fikrindəyəm. Axı, bu günlərdə onun 80 yaşı tamamlanır.

Sankt-Peterburqda yaşayan həmyerlilərimizin istəyi ilə hazırda Anatoli Banişevskinin ömür yolu, xüsusən futbol həyatı ilə bağlı kitab vərəqində yaradıcılıq işini davam etdirirəm. Təqvim vərəqlərindən bildim ki, hazırda bu böyük futbol ustasının 80 yaşı tamam olur. Odur ki, “Xalq qəzeti”nin baş redaktoru, yaxın dostum Əflatun Amaşovun razılığı ilə bu yubiley qeydlərimi qələmə aldım.

Bəri başdan deyim ki, bir sıra futbolçular çox halda böyük ustalıqlarının və istedadının qurbanına çevriliblər. Səbəb isə məhz istedadlı olmalarıdır.

Gərgin futbol həvəskarları əla bilirlər ki, sovetlər zamanında Moskvanın əlahəzrət futbol aləminin başları milli respublikaların, əyalətlərin gözə çarpan güclü dəri top ustalarını nə olursa-olsun paytaxt klublarına zorla da olsa gətirmək üçün müxtəlif hiylələrə, əyri-üyrü yollara əl atırdılar. Məsələ xoşluqla həllini tapmayanda zorla, qanundankənar üsullarla işi “qaydaya salmağa” “çalışırdılar”. Ötən əsrin 50-60-cı illərində o zaman SSRİ çempionatının “B” qrupunda iştirak edən “Neftçi”nin birdən-birə iki futbolçusunu – Ələkbər Məmmədovu və Yuri Kuznetsovu Moskva “Dinamo”suna çəkib apardılar. Azərbaycan azarkeşləri onunla təsəlli tapırlar ki, hər iki futbolçu o zamankı SSRİ çempionatının “B” klubunda çıxış edən bir komandanın üzvləridirlər. Bu, haradasa xoş bir məram idi. Fəqət güclülər dəstəsinin üzvü olan bir klub futbolçunun zor gücünə, heç bir etik normaya riayət etmədən mənqirləyib paytaxtda yerləşdirmək nə demək idi?! Haqqında söhbət açmaq istədiyim Anatoli Banişevskiyə münasibətdə Moskva məhz belə bir cahillik yolunu tutmuşdu. “Xoşluqla paytaxt klubuna keçməsən, başına oyun açacağıq. Açdılar da!..”

Öncə onu “əsgəri xidmətə çağırmaq” adı ilə fəal hərəkətə keçirdilər. O zaman “Neftçi”yə himayədarlıq Azərbaycan KP MK katibi Ə.Əmirova həvalə olunmuşdu. Sağ olsun, o da Moskvanın etikadankənar “əliuzunluğunun” – Anatoli Banişevskinin paytaxta köçürülməsi üçün canfəşanlığının qarşısını alır. Nəhayət, niyyətlər boşa çıxdıqda paytaxt dəllalları şantaja əl atdılar. “Neftçi”nin OİK-lə (Rostov) matçında “xuliqanlıq” hərəkətlərinə yol verdiklərinə görə “Neftçi” oyunçularının bir neçəsini ciddi cəzalandırıldılar. Bunların sırasında komandanın ən güclü oyunçuları Anatoli Banişevski, Vyaçeslav Sonuqlarov və başqaları yarışdan kənarlaşdırıldılar.

Mən “Neftçi”nin o zamankı oyunçularını yaxşı tanıyırdım. Hər birini xarakterizə edə bilərəm. Cəsarətlə deyirəm ki, Anatoli Banişevski zatən ən intizamlı, təvazökar, tərbiyəli, sakit, rəqib oyunçuya hörmət və ehtiramla yanaşmağı bacaran əsl idmançı idi. Haqqında danışmaq istədiyimiz bir neçə futbolçunu cəzalandırma məqamında A.Banişevskinin də adının hallanması təsadüfi deyildi. Elə əslinə qalsa, Moskva onun istəyinə qarşı çıxan Anatolinin özünü məhz belə ağır cəzaya məruz qoymaqla gənc futbolçuya başa salmaq istəyirdi ki, bizimlə “siçan-pişik oyunu” oynama, başını aşağı sal, köç Moskvaya...”

Tolik isə çox prinsipial mövqeyindən geri çəkilmədi: “Bakı mənim doğma şəhərimdir. Digər bir yaşayış məskəninin köməyini heç ağlıma gətirmirəm”.

Hə, demək belə! Məşhur cizgi filmində olduğu kimi, hədə-qorxuya keçdilər: “Nu, poqodi, Banişevski!..” Bəli, hərəkət başlandı. Onu və bir neçə futbolçunu açıq-aşkar şərləyib “Neftçi”dən kənarlaşdırdılar.

Elə bu məqamda Moskvada idim. Bu şəhərin baş ortopedi, professor Aydın İmaməliyevlə yaxın dost idim. Bilirdim ki, “Neftçi”nin azarkeşidir. Dərhal ona zəng vurdum. Xahiş etdim ki, öyrənə bilsə, qoy nə baş verdiyini lazımi yerdən öyrənsin. O, axşamüstü mənimlə görüşdü və heç nə gizlətmədən bildirdi ki, “Banişevski köçürülsün Moskvaya, vəssalam”.

Alınmadı və bizim qeyrətli həmşəhərlimiz Anatoli Banişevski birdəfəlik məsələdən vaz keçdi. Və çox ağır, dözülməz idman həyatı onun ömür yoluna qəddarcasına bir sipər oldu.

Bəli, mən rəhmətlik Tolikin həyatının bu qara səhifələrini çevirirəm. Çünki danışdıqca, bu böyük futbolçunun həyatının necə zəhərlənməsi, fəaliyyətinə çəpər çəkilməsi, məqsədyönlü irəliləyişinə necə maneələr törədilməsi məsələlərini açıq-aydın uzatmayacağıq.

Yalnız onu bildirim ki, bu prinsipial insan öz əqidəsinə sadiq qalaraq vicdanlı yaşam tərzini mərdliklə davam etdirdi.

“Neftçi”də bir üzüntü hökm sürürdü. Komanda baş verənlərlə barışa bilmədi. Bu dəhşətli ovqatla da mövsümü başa vuran “Neftçi” xal toplaya bilmədiyindən güclülər dəstəsini tərk etdi.

Oxucu indi deyiləcək sözlərə diqqət kəsilsin. Baxın, Anatoli Banişevski şirnikləndirici vədləri qəbul etmədi və doğma klubunda qaldı. Bundan sonra mübarizlik keyfiyyətini itirən “Neftçi” güclülər dəstəsini tərk etdi. Bu halda da Banişevski klubdan ayrılmadı. Çox böyük əzmkarlıq və mübariz ruh yüksəkliyi ilə komandanın toparlanıb yenidən elitar liqada yer almasına varlığını əsirgəmədi və istəyinə nail oldu.

Allah sənə rəhmət eləsin, Tolik!..

Mən bir qəzet məqaləsində bu dahi futbol xadimi ilə bağlı xoş düşüncələrimin kiçik bir parçası ilə oxucuları tanış etdim. Sağlıq olsun, qismət olarsa özümə dost, qardaş sandığım Tolikin əziz ruhunu şadlandırmaq naminə kitabı mütləq yazıb başa çatdırmaq istəyindəyəm.

Məncə, bu dahi futbolçunun əziz ruhuna xoş bir xatirə olar.

Torpağın nurla dolsun, əziz qardaşım.

*Fazil RƏHMANZADƏ*

HAVA

# Bakıda gecə və səhər çiskinli, rayonlarda yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 3-5, gündüz 7-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 4-7, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

*✓ Quba rayonunun 2-ci Nügədi kənd sakini Əliyev Anar Tərlan oğluna məxsus “Opel” markalı “99 US 274” dövlət qeydiyyat nişanlı avtomobilin “BD 517490” nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

*✓ 2024-cü il fevralın 10-da Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Bağırov İlkin Mətləb oğlunun adına verilmiş M/V seriyalı, 139465 nömrəli veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*✓ Lənkəran rayonunun Aşağı Nüvədi kənd sakini Əliyev Vaqif Əbdül oğluna məxsus gəmi bileti (seriya nömrəsi AA09108, bort nömrəsi T-5 VE370ACA4039YK) itdiyi üçün etibarsız sayılır.*

*✓ Sucaəddinli Təbriz Mahmud oğlunun adına 2007-2008-ci tədris ilində Beyləqan rayon İbadət Ələsgərov adına Aşıqallar kənd tam orta ümumtəhsil məktəbinin IX sinfini bitirməsi və 647148 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR –
BAŞ REDAKTOR
ƏFLATUN
AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2917
SİFARİŞ 261
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00